Bu bir xalq qəzetidi
ƏDALƏT

## Hikmət Hacıyev: "Şarl Mişelin rolunu yüksək qiymətləndiririk"



**"Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rolunu yüksək qiymətləndiririk".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviterdə qeyd edib.

"Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etmək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib", - Prezidentin köməkçisi bildirib.

*Aqil ABBAS*

## GENERAL

Bax:səh-4

## İCTİMAİ TELEVİZİYANIN 17 YAŞI




**Hamımızın sevimli kanalımız artıq yeniyetmə dövrünü başa vurur, gəncliyinə qədəm qoyur. Amma heç vaxt nə uşaqlıq dövrü olub, nə yeniyetməlik, həmişə ağsaqqal kimi söz sahibi olub.**

**Balakişi Qasımov kanala rəhbər gələndən kanal daha da müdrikləşib və bu kanal həqiqətən ictimaiyyətin kanalıdır. Və həmişə də ictimaiyyəti narahat edən məsələləri qaldırır, müzakirəyə çıxarır, heç bir problemi "Sabaha saxlamayaq" proqramında olduğu kimi, sabaha saxlamır. Çox böyük zəhmət tələb edir, zəhmətlə bərabər ağıl, savad və geniş dünyagörüş tələb edir 24 saat dayanmadan bir-birindən maraqlı verilişlər, proqramlar efirə vermək.**

**Həm 44 günlük müharibə zamanı, həm də müharibədən sonra Qarabağla bağlı hazırladıqları reportajlar, proqramlar, işğaldan azad olunmuş ərazilərdən hazırladıqları verilişlər yaralarımıza məlhəm olur.**

**Televiziya qapıları hamının üzünə açıqdır. Vaxtilə bir çox jurnalistlərin, alimlərin üzlərinə bağlı olan bu qapıları Balakişi Qasımov gələndən sonra vurub taybatay açdı.**

**17 yaşınız mübarək, əziz dostlar! Daha böyük uğurlar arzulayıram! Balakişi müəllimi, Saleh Bağırovu, Günay Malikqızını, Anar Yusifzadəni, Nailə xanımı, Vüsalə xanımı, bütün "Dikdaban"çıları və bir-birindən maraqlı müzakirələr aparan Murad müəllimi, ümumiyyətlə, bütün kollektivi təbrik edirəm və uğurlar arzulayıram.**

**Hörmətlə:
Aqil ABBAS**

## Vilayət Eyvazov sıra baxışı keçirdi



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 118 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 27 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

**Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.**

## Ə, QORXMA, YUMRUQ DEYİL



**Bu foto gündəmə çevrilib. Hamı fotonu özünəməxsus tərzdə adlandırır. Hamısı da maraqlıdır. Dedik ki, bu şorbada bizim də duzumuz olsun. Və fotonu belə adlandırdıq.**

Əslində yumruq bir dəfə Brüseldə hazırlanan sənəddə olur.

Cənab prezident İlham Əliyevin Ermənistanın dövlət başçısı Paşinyanla Brüseldə görüşündə ən maraqlı və ciddi hadisə odur ki, Qarabağ və ATƏT Minsk qrupu müzakirə mövzusu olmayıb. ATƏT-i ABŞ və Fransa nə qədər diriltməyə çalışsalar da, gorbagor olub. Qarabağ müzakirə mövzusu deyil, artıq Avropa və dünya da Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Qarabağ Azərbaycandır.

Düzdür, Paşiynan öyrənib. Müzakirələrdə bir söz, İrəvana qayıdandan sonra başqa bir söz desin, başqa bir bəyanat versin.

İndi yenə daxili siyasətə yönəlmiş axmaq bir bəyanat verəcək.

**Pozdno, Rita!**

## Səfir Bakıdakı kafe qiymətlərindən şikayətləndi



**Azərbaycanın Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev Bakı və Polşanın paytaxtı Varşavada səhər yeməklərinin qiymətini müqayisə edib.**

Adalet.az xəbər verir ki, səfir "Facebook" hesabındakı paylaşımında Bakıda qiymətlərin baha olduğunu bildirib.

"Yüksək materiyanı bir tərəfə qoyaq. Həm də Marks deyirdi ki, insanlar yüksək materiya ilə məşğul olmazdan əvvəl yeməli, içməli və geyinməlidirlər. Varşavanın mərkəzində beş seçimdən birini edib 10 manata (25 zlotı, yaxud 6 dollar) belə müxtəlif çeşidli səhər yeməyi sifariş vermək mümkündür. Üstəlik kofe, yaxud çay da bu hesaba daxildir. Bakının mərkəzində isə 10 manata yalnız iki fincan çay içmək olar. Düzdür, yanında bir mikroskopik ölçülü qurabiyə də verirlər. Sonra da şikayətlənirik ki, ölkəmizə turistlər az gəlir ", - deyə səfir qeyd edib.

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 39 (5976) 3 sentyabr 2022-ci il | Qiyməti 30 qəpik

# "Azərbaycan ilə İtaliya arasında aktiv siyasi dialoq mövcuddur"




Bax:səh-2

## TÜRKİYƏ RESPUBLİKASININ AZƏRBAYCANDAKI BÖYÜKELÇİSİ CAHİT BAĞCI CƏNABLARINA



**Sayın Böyükelçi!**

Türkiyənin möhtəşəm Zəfər bayramının 100 illiyi münasibətilə Sizi və bütün Türk xalqını ürəkdən təbrik edirik. Bu təkcə Türkiyənin deyil, bütün dünya türklərinin Zəfər bayramıdır. Qazi Mustafa Kamal Atatürkün 1922-ci il avqustun 30-da dünyada ağalıq iddiasında olan böyük dövlətlərin üzərində çaldığı Zəfər qələbəsi bu gün də sayın Rəcəb Tayyib Ərdoğanın cümhurbaşkanlığı ilə davam edir.

Şair Vaqif Cəbrayılzadə yazır: "Türk min illərin gün işığıdır, nə qədər basdırsan yenə torpağın üstündə qalar". Biz min illərin gün işığıyıq, bizi basdırmağa kimsənin gücü çatmaz.

**Yaşasın Türkiyə!**
**Tanrı Türkü qorusun!**

**Hörmətlə:
Aqil ABBAS,
Millət vəkili**

## Səhiyyə naziri istefa verdi

**Bizdə yox, Portuqaliyada. Səbəb də odur ki, hamilə bir turist qadın (qadın sözünü ona görə yazdıq ki, artıq Avropada kişilər də hamilə ola bilir) xəstəxanada ölüb.**

Bizdə istəyirsən sağ ayağın yerinə sol ayağı kəs, sağ gözün yerinə sol gözünü çıxart, hər ay nə qədər hamilə qadın doğuş vaxtı ölsün, nəinki səhiyyə naziri, heç həmin xəstəxananın baş həkimi də istefa verə bilmir. Necə deyərlər, biz bir növ adətkardayıq.

Bir dəfə yazmışdım, yenə yazıram. Tovuzda bir qadını ilan vurub. Xəstəxanalarda zərdab tapılmır. Qadını gətirirlər Gəncəyə ki, böyük də xəstəxanaları var, orda da zərdab tapılmır. Qadını gətirirlər Mingəçevirə, Mingəçevirdə də zərdab tapılmır. Götürürlər Bakıya, qadın yolda ölür. Yaşasın Allahın bir zərdabını rayonlara lazım olan miqdarda bölüşdürə bilməyən naşa minsterstva zdravoxranenniya samıy qumannıy v mire.

## Qadağa ləğv olundu



***Sevinməyin, sərhəd qadağası yox, balıq tutmaq qadağası. Sentyabrın 1-dən kim istəyir gedib balıq tuta bilər. Düzdü, burda da qadağalar var, həm də ASAN xidmətdən icazə almalısan. Əsas odur ki, yalnız tilovla balıq tuta biləsən.***

## QOYUN ƏN GÖZƏL DƏQİQƏNİ YAŞAYAQ

***Bir dəfə yazmışam, yenə yazıram. Maraqsız Azərbaycan futbol çempionatında çox maraqlı və dinləyənlərin ürəyinə su səpən bir dəqiqə var: 44-cü dəqiqə. Bütün stadion hayqırır: "Şəhidlər ölməz, Vətən bölünməz!"***

***Ay əziz şərhçilər, nolar həmin dəqiqə susun da, qoyun o dəqiqəni yaşayaq. Bir dəqiqə şərh eləməsəniz dünya dağılar?***

**Mehman CAVADOĞLU**



## Silah yox, sülh!

***Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən növbəti Brüssel görüşü başa çatıb. Bu, tərəflər arasında eyni formatda keçirilən sayca dördüncü görüşdü. Əvvəlki görüşlərin ənənəsinə uyğun olaraq danışıqlar barədə ictimaiyyətə geniş bilgi verilmədiyi üçün bağlı qapılar arxasında baş verənlərin təfərrüatları barədə yalnız dolayısı mənbələrə istinadla xəsisliklə mətbuata sızdırılan məlumatlar əsasında mühakimə yürütmək mümkündür. Üstəlik, nəzərə almaq lazımdır ki, Bakıyla Yerevan arasında Şarl Mişellə yanaşı Vladimir Putinin vasitəçiliyi ilə də mütəmadi görüşlər keçirilir və Kremlin Brüssel prosesinə zahirən dözümlü yanaşması heç də onun nəticələrini (əgər olarsa) qəbul edəcəyi anlamına gəlmir. Bir-birinə asi olan və fərqli maraqlar güdən güc mərkəzlərinin paralel vasitəçilik missiyası ilkin mərhələdə nə qədər problemsiz ötüşsə də, onun sonradan ciddi fəsadlar törədəcəyi qaçılmazdır.***

Bax:səh-3



**GÖRƏSƏN, LAÇINDA AEROPORT AÇILANDA "AZAL" TƏYYARƏ BİLETİNİ NEÇƏYƏ SATACAQ?**

## «QARABAĞ»IN PULUNU HESABLAYIB QURTARA BİLDİNİZ?



**Neçə vaxtdır hamı oturub "Qarabağ"ın pulunu hesablayır. Və indi məlum oldu ki, Avropa Liqasında təmsil olunan klubların arasında ən az büdcəsi olan komandadı. Deyəsən, bizdən də kasıb olan Moldovanın "Şerif" komandasıdı.**

Bəli, pul çox şeydi, amma hər şey deyil. "Qarabağ" çox pullu komandaları yanı üstə qoyub. İnşallah, yenə o pullu komandaları yanı üstə qoyacaq. Çünki "Qarabağ" pula oynamır, Qarabağın adına, Azərbaycanın adına oynayır.

**Uğurlar "Qarabağ"! Uğurlar Qurban Qurbanov!**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ABŞ VƏ FRANSA SƏFİRLƏRİNİN ŞUŞAYA GETMƏMƏKLİYİ



***Mətbuatdan bildiyiniz kimi, Şuşada Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatlarının, daha dəqiq desək, səfirlərinin iştirakı ilə böyük bir tədbir keçirilib. Və nəinki bizim ölkədəki səfirlər, eləcə də Türkiyə və Moskvada fəaliyyət göstərən xarici ölkələrin bir çoxunun səfirləri, nümayəndələri, hərbi atteşeləri bizim dəvətimizi məmnuniyyətlə qəbul edib Şuşaya gəlib.***

***Yalnız ABŞ-ın və Fransanın səfirləri dəvətdən imtina ediblər, bu da ölkəmizdə böyük narazılığa səbəb olub.***

***Niyə narazı qalırsız ki, ABŞ və Fransanı tanımırsız ki? Bizim xalq hər iki ölkənin dabbaqda gönünə bələddir.***

***30 il Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal altında saxladı, 1 milyon insan yurdundan-yuvasından didərgin düşdü, şəhər və kəndlərimizi, Dünyanın Ən Varlı Şəhəri Ağdamı yerlə-yeksan elədi, məbədlərimizi, məscidlərimizi, abidələrimizi darmadağın etdi, hətta ölülərimizi qəbirdən çıxartdı, qəbiristanlıqlarımızda taxıl əkdi. Sərsəngi üzümüzə bağlayıb Yezid kimi 30 ildi bizi susuz qoydu, ABŞ və ya Fransa heç olmasa bircə dəfə Ermənistana niyə belə vandallıq edirsən, faşistlik edirsən dedimi? Demədi!***

Bax:səh-2

## XXI ƏSRDƏ YAŞAYIRIQ, YOXSA XIX ƏSRDƏ?

*(Səhiyyə Nazirliyinin menyüsünə)*

**"BBC News Azerbaijan"da Lerikin ucqar bir kəndindən bir video paylaşılıb. Kənddə çalışan bir feldşerdən, onun sınıq-salxaq "Niva"sıyla camaata necə qulluq etməyindən, insan oğlu insandan, bərbad kənd yolları ilə xəstələri şəhər xəstəxanasına daşımağından, hətta anasını çatdıra bilməyib, anası yolda ölüb.**

Saytımızda bu gün həmin videonu paylaşırıq, özünüz baxın.

Sözümüz isə Səhiyyə Nazirliyinədi. Doğrudanmı, bu kənddə bir ambulator açmaq, ora bir mamaça, həkim demirəm bir-iki tibb bacısı ştatı vermək, həmin ambulatoru dərmanla təchiz etmək o qədər çətindir? Nazirliyin buna vəsaiti çatmır?

Biz hansı əsrdə yaşayırıq - XXI əsrdə, yoxsa XIX əsrdə?

**Yəqin başqa-başqa ucqar dağ kəndlərində də vəziyyət Lerikin həmin kəndində olduğu kimidi.**

## AZƏRBAYCAN ÇEMPİONATINDA ƏN GÜLMƏLİ HADİSƏ

**Deməli, "Kəpəz" Qəbələdə "Qəbələ" ilə oynayır. Şərhçi deyir:**

***- Top qonaqların kapitanı Asif Məmmədovdadı. Qonaqlar sürətlə hücuma keçirlər.***

Qonaq "Qəbələ" sayılır. Day bundan da gülməli bir şey yoxdu. Sanki "Kəpəz"lə məzələnirlər.

Əslində isə gülməli deyil, ağlamalıdı. Azərbaycan futboluna bir ayıbdı. 500 minlik Gəncə şəhərinin stadionu hələ də gəncəlilərin üzünə bağlıdı. Nə vaxt açılacağı isə sərhədlərimizin nə vaxt açılacağı kimi sirrdi.

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı babat vurubmuş. Küçədə bir çirkin qadınla rastlaşır.

Yanında olan şair Akif Əhmədgilə deyir:

***- Ə, qağa, bu nə çirkin qadındı?***

Qadın da iyrənirmiş kimi ona baxıb deyir:

***-Sən də sərxoşsan.***

Vəli gülərək:

***- Mənim sərxoşluğum sabah keçəcək, amma sənin çirkinliyin...***

# Prezident İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak edib




**Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində ”The European House - Ambrosetti” beyin mərkəzi tərəfindən ”Dünya, Avropa və İtaliyaya baxış” və ”Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi” mövzusunda 48-ci beynəlxalq Çernobbio Forumu başlayıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqinin və ”The European House - Ambrosetti” beyin mərkəzinin dəvəti ilə beynəlxalq forumda əsas qonaq qismində iştirak edib. Dövlətimizin başçısı forumun plenar iclasında ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxış edib.

Qeyd edək ki, 1965-ci ildən fəaliyyət göstərən ”The European House - Ambrosetti” İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Mərkəz Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan ”The European House - Ambrosetti” İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar və müxtəlif tədbirlər təşkil edərək İtalyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına və əməkdaşlığın təşviqinə xidmət edir.

”The European House - Ambrosetti”, eyni zamanda, İtaliya və Avropa üçün potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir etmək imkanı olan və ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksək səviyyəli müzakirə platformaları təqdim edir.

Müxtəlif illərdə Çernobbio Forumunda dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və digər nüfuzlu şəxslər iştirak ediblər.

## “Azərbaycan ilə İtaliya arasında aktiv siyasi dialoq mövcuddur”

**İtaliyaya budəfəki səfərim çox uğurlu keçdi. Bu səfər zamanı İtaliyanın Prezidenti və Baş naziri ilə görüşlər keçirdim. Bu görüşlərdə ölkələrimiz arasında sıx strateji tərəfdaşlıq münasibətləri ilə bağlı bir çox məsələləri müzakirə etdik.**

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı bildirib.

İtaliya Prezidenti Sercio Mattarellanın dörd il əvvəl etdiyi rəsmi səfəri xatırladan dövlətimizin başçısı deyib ki, bu, ölkələrimiz arasında aktiv siyasi dialoqun olduğunu göstərir.

”Budəfəki görüşlərimiz zamanı biz ikitərəfli gündəliyimizə yeni və çox mühüm məsələlər əlavə etdik. Bunlardan biri də təhsil sahəsidir. Biz görüşlərimiz zamanı təkcə enerji məsələləri, iqtisadi inkişafla bağlı deyil, həmçinin təhsil məsələlərinə dair müzakirələr apardıq”, - deyə Prezident İlham Əliyev qeyd edib.

## “Bu il biz İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac etməyi planlaşdırırıq”

**Cənub Qaz Dəhlizinin əsas və son mərhələsi olan TAP layihəsinin istifadəyə verilməsindən bu günədək, yəni, il yarım keçdikdən sonra Azərbaycan Türkiyə və Gürcüstanla yanaşı, üç Avropa ölkəsinin təbii qaz ixracatçısına çevrilib.**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı deyib.

Dövlətimizin başçısı bildirib ki, ötən müddət ərzində Avropaya 13,5 milyard kubmetr qaz ixrac olunub, bunun da 11,7 milyard kubmetri İtaliyanın payına düşür. ”Bu il biz qazın həcmini daha da artırmağı və İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac etməyi planlaşdırırıq”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

## “Artan enerji tələbatını ödəmək üçün sıx əməkdaşlığa və koordinasiyaya ehtiyac var”

**Artan enerji tələbatını ödəmək üçün bizim əlbəttə, sıx əməkdaşlığa və koordinasiyaya ehtiyacımız var.**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı deyib.

”Biz bu məqsədlə Avropa İttifaqı ilə artıq rəsmi olaraq enerji sahəsində dialoqa başlamışıq. Bu dialoq təkcə təbii qaz deyil, enerji bazarının digər seqmentlərini, xüsusilə də elektrik enerjisi, hidrogen və yaşıl enerji seqmentlərini əhatə edir”, - deyə dövlətimizin başçısı bildirib.

## “Biz dünya bazarına enerji tədarükünü şaxələndirməklə Avropanın enerji xəritəsini dəyişdirməyi bacardıq”

**Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı strategiyası bir neçə mərhələyə bölünüb. Birinci mərhələdə müstəqilliyimizin bərpasından sonrakı üç il ərzində, yəni, 1994-cü ildə Azərbaycan Xəzər dənizində əməkdaşlıq etmək üçün xarici dövlətlərin aparıcı enerji şirkətlərini dəvət edən ilk dövlət idi. Tezliklə biz Avropa bazarına və əsasən də İtaliyaya neft ixracat edən ölkəyə çevrildik.**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı bildirib.

Azərbaycanın uzun illər boyu İtaliyanın ən böyük neft təchizatçısı olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: ”Açıq dənizə çıxışı olmayan ölkə kimi bizim ixrac kəmərlərinə ehtiyacımız var idi. Biz strateji neft boru kəmərlərini Aralıq dənizi limanında yerləşən Türkiyəyə və Gürcüstanın Qara dəniz limanına çəkdik, dünya bazarına enerji tədarükünü şaxələndirməklə Avropanın enerji xəritəsini dəyişdirməyi bacardıq”.

# Ədalət Vəliyev Ramil Hüseynovla görüşdü

**Avqustun 31-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və yeni dövlət qeydiyyatına alınmış Yeni Yol Partiyasının sədri Ramil Hüseynov arasında görüş keçirilib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən Adalet.az-a verilən məlumata görə, görüş zamanı şöbə müdiri Ədalət Vəliyev partiyanın dövlət qeydiyyatına alınması münasibətilə Ramil Hüseynovu təbrik edib və partiyaya fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı vurğunlanıb ki, siyasi partiyaların cəmiyyətdə artan nüfuzu Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan köklü siyasi islahatların nəticəsidir. Yeni siyasi konfiqurasiyanın uğurla inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi bu islahatların tərkib hissəsidir.

İqtidar-müxalifət siyasi dialoqunun və siyasi partiyalarla sağlam əməkdaşlığın qurulması nəticəsində son iki ildə Yeni Yol Partiyası da daxil olmaqla 10 siyasi partiyanın dövlət qeydiyyatına alınması, siyasi partiyaların ofislə təmin edilməsi, partiyaların qurultaylarının keçirilməsi və təsis sənədlərində edilmiş dəyişikliklərin dövlət qeydiyyatına alınması, siyasi fəaliyyət üçün bütün lazımi şəraitin yaradılması görüşdə xüsusi vurğulanıb.



Qeyd edilib ki, yeni siyasi konfiqurasiya və ölkədə aparılan islahatların strateji hədəfləri ölkədə dayanıqlı demokratik ənənələrin dərinləşməsi, cəmiyyətin inkişafı naminə iqtidar-müxalifət münasibətlərinin konstruktiv əməkdaşlıq formatına transformasiyasıdır. Siyasi partiyaların cəmiyyətin siyasi həyatında vacib rol oynadığını vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün siyasi partiyalar öz beynəlxalq əlaqələrini inkişaf etdirməlidir.

Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılmasının vacibliyini qeyd edən şöbə müdiri bildirib ki, Vətən müharibəsi dövründə əldə edilmiş siyasi həmrəylik, siyasi partiyaların Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olması, bununla bağlı birgə bəyanat və müraciətlərin imzalanması iqtidar-müxalifət dialoqunun nə qədər önəmli olmasını bir daha sübut etdi.

Şöbə müdiri siyasi sabitliyin əhəmiyyəti barədə danışaraq bildirib ki, radikal siyasi meyillər dövlətçiliyə olan təhdid kimi qiymətləndirilməlidir. Bu səbəbdən, hər bir siyasi partiya buna qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Həmçinin Milli Məclis tərəfindən ”Siyasi partiyalar haqqında” yeni Qanun layihəsinin hazırlanması zərurəti, partiyaların fəaliyyəti üçün yeni hüquqi bazanın formalaşmasının vacibliyi qeyd edilib.

Yeni Yol Partiyasının sədri Ramil Hüseynov görüş üçün təşəkkürünü bildirib və ölkədə aparılan siyasi islahatları yüksək qiymətləndirib. Siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların dövlət tərəfindən təmin edildiyini diqqətə çatdıran partiya sədri siyasi fəaliyyətində dövlətin təməl prinsiplərini əsas tutacağını söyləyib. R.Hüseynov bildirib ki, yeni siyasi konfiqurasiyanın inkişafı, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, iqtidar-müxalifət dialoqunun aparılması ölkəmizdə güclü siyasi sistemin yaradılmasına dəlalət edir. Bu səbəbdən Yeni Yol Partiyası həmin istiqamətdə sağlam münasibətlərin qurulmasında fəal iştirak edəcəkdir.

# Şuşa və Harami düzü



Fazil Mustafa

*Şuşa iki ilə yaxındlr bizdədir. Fəqət biz hələ də Şuşada deyilik. Məhz Qarabağ məsələsinə, Qarabağ siyasətinə Şuşadan baxan zaman biz Şuşada olacağıq. Hələ ki, Şuşada başı havalı gəzişirik. Biz çoxluq olaraq Qarabağ siyasətinə hələ də Şuşadan deyil, Harami düzündən baxırıq.*

*Bu səbəbdən də belə böyük bir qələbəni halallaşdıra bilmirik. Harami düzündən üzü yüksəkliklərə doğru baxanda qələbədə haramlıq axtarma vərdişi yaranır. Yaxşı ki, bu qələbəni addım-addım halallaşdıran komutan və əsgərlər çoxluğun mühakiməsi ilə davranmır. Təkcə qalibiyyət görməmişliyi olmur, həm də məğlubiyyət görməmişliyi olur. Otuz ilin məğlubiyyət görməmişləri ürəklərinin dərin guşəsində gizlətdiyi məğlubiyyəti görməmişcəsinə qorumağa çalışırlar. Onlar xəyalən Ukraynada döyüşürlər, Gürcüstanda demokratiya qururlar, Rusiyada imperiyanı dağıdırlar və realən Vətən torpağının metrə-metrə necə qaytarıldığını görmürlər. Bu gün Azərbaycanda böyük qələbəyə Harami düzündən baxan qələbəliyin səs-küyündən Şuşa zirvəsindən baxan azlığın çağırışları zəif eşidilir. Bəlkə də belə yaxşıdır. Dünyanın qulaqlarının səs-küylə dolduğu vaxtda ayının pəncəsindən, şirbalanın, çaqqalın dişlərindən Laçını ağılla qaytarırıq. Allahı sevərsiniz, ağılla davam edən qələbəmizə Harami düzündən söylənən nağılınızı dürtüşdürməyin. Vətən nağılla, şeirlə azad edimir.*

*Gec qayıtsan da, bir də solmağa qoymayacağlq səni Laçın! Qarabağa Şuşadan baxanlar deyir bunu. Məğlubiyyət görməmişləri deyil, qələbə görmüşləri deyir bunu! Xoş gəlirsən Laçınım!*

# Müsabiqədən kənarda qalan abituriyentlərin sayı ötən illə müqayisədə çox azdır

**Dövlət İmtahan Mərkəzi (DİM) 2022-ci ildə keçirilmiş buraxılış imtahanlarında qəbul planı 100 faiz dolan ali təhsil müəssisələrinin adları açıqlanıb. Bildirilib ki, 6 ali məktəbdə bütün yerlər dolub. Bunlar Azərbaycan Tibb Universiteti, Dövlt İdarəçilik Akademiyası, ”ADA” Universiteti, Azərbaycan Dövlət Dənizçilik Akademiyası, Bakı Ali Neft Məktəbi və Dövlət Gömrük Komitəsinin Akademiyasıdır.**

Eyni zamanda subbakalavrların ən çox qəbul olduğu ali təhsil müəssisələri də açıqlanıb. Bunlar Mingəçevir Dövlət Universiteti (475 nəfər), Bakı Biznes Universiteti (396 nəfər), Azərbaycan Texnologiya Universiteti (360 nəfər), Lənkəran Dövlət Universiteti (319 nəfər), Azərbaycan Dövlət Aqrar Universiteti (311 nəfər), Azərbaycan Dövlət İqtisad Universitetidir (310 nəfər).

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə mətbuata verdiyi açıqlamada bildirib ki, bu il təxminən 4900 subbakalavr ali məktəbə qəbul olub.

O qeyd edib ki, bu il subbakalavrların qəbul göstəricisi əvvəlki illə müqayisədə az olub: ”Keçən il bu rəqəm təxminən 5300 idi. Bu il qəbul göstəricisi nisbətən azdır. Amma ikinci yerləşdirmədə onların şansları yenə də var. Müvafiq ixtisasları seçərək müsabiqədə iştirak edə bilərlər”.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə marağın atdığını qeyd edən Məleykə Abbaszadə bildirib ki, III qrupa imtahan verən istedadlı gənclər həmin məktəbləri seçirlər: ”Orada əsas kontingent 500 baldan yuxarı nəticə göstərən oğlanlardır. Heç kimi məcburi hansısa ixtisasa göndərmək olmaz. Onlar öz sahələrini istəyərək seçirlər. Ali hərbi məktəblərdə də oxumaq istəyən kifayət qədər yüksək bal toplamış abituriyentlər var. Bu cür vacib ixtisaslara savadlı insanların maraq göstərməsi müsbət haldır”.




”Bu il bütün qruplar üzrə 200-dən yuxarı bal toplayaraq müsabiqədən kənarda qalan abituriyentlərin sayı ötən illə müqayisədə çox azdır”- deyən Məleykə Abbaszadə uğur qazana bilməyən abituriyentlərin boş qalan yerlərə ixtisas seçimə şanslarının olduğunu bildirib:

”Təxminən 2400 plan yeri boş qalıb. Həmin yerlər artıq təqdim edilib. 200-dən yüksək nəticə göstərən və uğur qazanmayanlar abituriyentlər boş qalan yerlərə qəbul üçün seçim etsələr, uğur qazana biləcəklər. 150-200 arası balla müsabiqədən kənarda qalan abituriyentlərin sayı daha çoxdur.

Bu bal aralığı üçün təxminən 245 boş yer qalıb”.

Qeyd edək ki, ali məktəblərdə qruplar üzrə ümumilikdə 2451 (4,78%) plan yeri boş qalıb. Minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yerlərin sayı isə 285-dir (2,78%).

I qrup üzrə vakant yerlərin ümumi sayı 327-dir (2,01%). Bu qrupda minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yerlərin sayı 7-dir (0,28%).

II qrup üzrə vakant yerlərin ümumi sayı 519-dur (4,30%). Bu qrupda minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yer yoxdur.

III qrup üzrə vakant yerlərin ümumi sayı 1010-dur (6,75%). Bu qrupda minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yerlərin sayı 127-dir (4,92%).

IV qrup üzrə vakant yerlərin ümumi sayı 286-dır (7,19%). Bu qrupda minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yerlərin sayı 151-dir (13,92%).

V qrup üzrə vakant yerlərin ümumi sayı 309-dur (7,71%). Bu qrupda minimal müsabiqə şərti 150 (ikinci mərhələ üzrə ən azı 50 bal) bal olan ixtisaslar üzrə vakant yer yoxdur.

Xatırladaq ki, Dövlət İmtahan Mərkəzi 2022-ci ildə keçirilmiş buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən 9-cu və 11-ci sinif şagirdləri, o cümlədən eksternat qaydasında imtahan verənlər üçün sabah əlavə imtahan keçirəcək.

Bundan əlavə, həmin gün bu il keçirilən Azərbaycan dili (dövlət dili kimi) imtahanlarında iştirak edə bilməyən şagirdlər də qeyd olunan imtahanı verəcəklər.

İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmaz şəhərlərində təşkil olunacaq.

**İmtahanların idarə olunması üçün 12 imtahan rəhbəri, 10 ümumi imtahan rəhbəri, 74 nəzarətçi-müəllim, 3 buraxılış rejimi (mühafizə) əməkdaşı, 10 bina nümayəndəsi ayrılıb.**

**Nicat Novruzoğlu**

# ""Artsax"ın 31-ci ildönümü" dəvətinə Ermənistanın reaksiyası: Gəlməyəcəyik...

**Qarabağdakı separatçı rejim hər yolla baş vuraraq gərginliyi bir daha artırmaq həvəsindən düşmür. Oyuncaq Artsaxın ”parlament sədri” Artur Tovmasyan müstəqilliyin 31-ci ildönümünü qeyd etmək üçün sentyabrın 2-də Ermənistan parlamentinin bütün fraksiyalarını Qarabağa dəvət edib.**

Ağlı, düşüncəsi hələ 2022-ci ilə gəlib çıxmamış bu gerizəkalı gözünün qarşısında son günlər baş verən hadisələri gözrməzdən gəlir.

Buna baxmayaraq Ermənistan mediası Artur Tovmasyanın dəvətini hələ də müzakirə edir. Məsələn, ölkənin ən çox oxunan ”Hraparak” qəzeti yazır ki, hökumətdən və ya parlamentdən heç



kim Qarabağa getməyəcək və Ermənistanın hakim elitasının iştirakı olmadan qeyd olunacaq.

Yəqin ki, yadınızdadır, bu ilin aprelində Qarabağa qanunsuz səfər etmək istəyən ”Hayastan” blokunun deputatları Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərinə buraxılmadı.

Rus sülhməramlılar erməni deputatların olduğu avtomobili nəzarət-buraxılış məntəqəsində saxladı. Daha sonra Azərbaycan tərəfi ilə əlaqə yaradıldı və erməni deputatların Qarabağa qanunsuz səfərinə icazə verilmədi. Erməni parlament üzvləri geri qayıtmalı olubdular.

Təbii ki, bu Qarabağa nümayişkaranə gələn erməni rəsmilərin ilk böyük zərbə idi. Yəqin ki, ”müstəqilliyi” qutlamağa gedəcək olan Ermənistan deputatları başlarına gələcək olayı əvvəlcədən bilir. Bu haqda yenə Hraparaq yazır: ”Müharibədən sonra Baş nazir heç vaxt Qarabağa səfər etməyib. Parlament sədrinin mətbuat katibi Çovinar Xaçatryandan soruşduq ki, Qarabağa kim gedəcək: parlamentin spikeri Alen Simonyan yoxsa, ”Vətəndaş aktı”nin deputatları?

”Cənab Simonyan Qarabağın ”parlanment sədri”ndən sentyabrın 2-də ora səfər etmək üçün dəvət almayıb. O ki qaldı həmin gün Qarabağda kim olacaq, deputatlar olacaq, ya yox, biz bunu hələ dəqiq bilmirik”, - deyə Xaçatryan cavab verdi.

Lakin bizdə olan məlumata görə, hökumətdən və ya parlamentdən heç kim Qarabağa getməyəcək”.

**Qeyd edək ki, əvvəlki illərdə Ermənistan Baş naziri Nikol Paşinyan və ölkənin digər yüksək rütbəli rəsmiləri qondarma qurum ”30 illiyini” qeyd edərdilər, 44 günlük müharibədən sonra yəni, ötən il isə ora Ermənistandan yalnız 2 deputat gəlmişdi.**

**Əntiqə Rəşid**

Aqil ABBAS

# ABŞ VƏ FRANSA SƏFİRLƏRİNİN ŞUŞAYA GETMƏMƏKLİYİ

*Mətbuatdan bildiyiniz kimi, Şuşada Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatlarının, daha dəqiq desək, səfirlərinin iştirakı ilə böyük bir tədbir keçirilib. Və nəinki bizim ölkədəki səfirlər, eləcə də Türkiyə və Moskvada fəaliyyət göstərən xarici ölkələrin bir çoxunun səfirləri, nümayəndələri, hərbi atteşeləri bizim dəvətimizi məmnuniyyətlə qəbul edib Şuşaya gəlib.*

*Yalnız ABŞ-ın və Fransanın səfirləri dəvətdən imtina ediblər, bu da ölkəmizdə böyük narazılığa səbəb olub.*

*Niyə narazı qalırsız ki, ABŞ və Fransanı tanımırsız ki? Bizim xalq hər iki ölkənin dabbaqda gönünə bələddir.*

*30 il Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal altında saxladı, 1 milyon insan yurdundan-yuvasından didərgin düşdü, şəhər və kəndlərimizi, Dünyanın Ən Varlı Şəhəri Ağdamı yerlə-yeksan elədi, məbədlərimizi, məscidlərimizi, abidələrimizi darmadağın etdi, hətta ölülərimizi qəbirdən çıxartdı, qəbiristanlıqlarımızda taxıl əkdi. Sərsəngi üzümüzə bağlayıb Yezid kimi 30 ildi bizi susuz qoydu, ABŞ və ya Fransa heç olmasa bircə dəfə Ermənistana niyə belə vandallıq edirsən, faşistlik edirsən dedimi? Demədi!*

*Hətta Qarabağdakı separatçı rejimə ABŞ hər il 10 milyon dollardan çox açıq, Allah bilir nə qədər də gizli yardımlar etdi. Bundan başqa Ermənistana üst-üstə milyardlarla yardım etdi ki, daha yaxşı silahlansın. Əvəzində torpağı işğal altında olan Azərbaycana, 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycana ABŞ Senatı 907-ci maddəni tətbiq elədi və hələ də qüvvədədi.*

*Fransa da onun kimi. Bajı-bajı deyə-deyə hələ də bayıssının dalından əl çəkmir, dalında durub. Fransa 30 il bajılarının vəhşiliklərinə, qəhbəliklərinə (oxuculardan üzr istəyirəm, amma qəhbəliyin elə bir adı var da, qəhbəlik) göz yumub.*

*İndi siz dabbaqda gönünə bələd olduğunuz bu ölkələrdən nə umursunuz?!*

*Prezidentin köməkçisi Hikmət Hacıyev Şuşada keçirilən tədbirdə bu məsələyə sərt reaksiya verdi. İndi oxuyuram ki, Hikmət Hacıyevə sosial şəbəkələrdə hücum çəkiblər. Amerikançılardan, Fransanın dəsmal götürənlərindən nə gözləyirsiniz?*

*Nə ABŞ, nə Fransa, nə də ki Rusiya Qafqazda sülh istəmir. İndi Rusiya bir az yumşalıb, ortaq mövqe tutub, təbii ki, bu da ABŞ və Fransanın xoşuna gəlmir. Onlar Rusiyanı da bu savaşın içinə soxmağa çalışırlar. Yeməzlər!*

*ABŞ da, Fransa da ATƏT-i, Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin gorbagor etdiyi ATƏT-i, yenidən gordan çıxarmaq istəyirlər. Hətta ABŞ Minsk qrupuna yeni həmsədr təyin edib.*

*Əvvəla, ATƏT Avropa Təşkilatıdırsa ABŞ orda nə sülənir? İkincisi də keçmişdə belə bir məsəl vardı, insanlar xoşagəlməz bir hadisə eşidəndə deyirdilər ki, ortada ingilis barmağı var. İndi dünyada nə səfeh bir hadisə olarsa orada mütləq amerikan barmağı var.*

*Adam ABŞ-ın və Fransanın əleyhinə deməyə və yazmağa qorxur. Qaragüruhçular ziyalıları necə gözüqıpıq eləyiblərsə gözlərini açıb həqiqəti deməkdən çəkinirlər.*

*Millət vəkili Fazil Mustafanın sözü olmasın, nə qədər sosial şəbəkələrdə böhtan atsalar da, təhqir etsələr də susmayacağıq, həqiqəti deməkdən çəkinməyəcəyik.*

*Bir məsələyə də toxunum. ABŞ səfirliyi millət vəkillərinə müəyyən tədbirləri ilə bağlı dəvətnamə göndərirlər, özü də ingilis dilində. Bu barədə fikirlərimi illər əvvəl Parlamentdə də söyləmişəm, yenə də təkrar edirəm. Fikirləşin, bizim ABŞ-dakı səfirimiz keçirdikləri tədbirlərə dəvətnaməni Azərbaycan dilindəmi göndərir? Təbii ki, yox! Mən demişəm ki, səfirlik bir də dəvətnaməni başa düşmədiyim ingilis dilində göndərsə onun heç bir tədbirinə qatılmayacam. Bunu həmkarlarımdan da xahiş elədim. Və sonra da ABŞ səfirliyinin heç bir dəvətinə qatılmadım, onlar da gördü ki, baykot etmişəm tədbirlərini, day son zamanlar mənə dəvətnamə göndərmirlər. Səfirliyin tədbirlərinə qatılmadığıma görə xançalımın qaşı düşməyib. İndi oxuyuram ki, adamlar ABŞ səfirliyini baykot etməyə çağırır, mən çoxdan baykot etmişəm.*

*Bir məsələni də xatırladım. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə Badamdar qəsəbəsində Məmməd Araz üçün həyət yeri ayırdılar və şairə yaraşıqlı bir ev tikdilər. Şair də o evi mənə, daha dəqiq desək, nəvələrinə bağışladı. Ev hazır olandan sonra Prezidentin İşlər İdarəsinin müdiri Akif Muradverdiyev mənə zəng elədi. Heç demə, ABŞ səfirliyi Badamdar qəsəbəsində özlərinə iqamətgah axtarırmışlar. Akif müəllim bildirdi ki, sənin evin amerikalıların xoşuna gəlib, icarəyə götürmək istəyirlər, ayda da 10 min dollar kirayə pulu verəcəklər, məsləhətdi, evi verəsən onlara. Dedim, Akif müəllim, qətiyyən razı deyiləm, böyük yazıçımız Mir Cəlalın sözü ilə desək, itə ataram, amma yada satmaram.*

*Bir az keçdi, yenə zəng elədi: "Məsləhətdi, sən o evi verəsən amerikalılara. İstəyirsən sənə ayrı torpaq sahəsi ayırarıq, orda ev tikdirərsən". Dedim, Akif müəllim, xətrinizi istəyirəm, amma qətiyyətlə deyirəm, evdə özüm yaşayacam. Qısası, vermədim.*

*Həmin vaxt Bakıda Türkiyə səfirliyi Bəstəkarlar İttifaqının ikinci mərtəbəsində darısqal bir yerdə fəaliyyət göstərirdi. Götürdüm qəzetdə yazdım ki, evimi məmnuniyyətlə pulsuz-filan Türkiyə səfirliyinə bağışlayıram. Nə vaxt özlərinə yeni səfirlik tikərlər, onda da qaytarıb verərlər.*

*Allaha şükür, sonralar Türkiyə səfirliyi özünə ABŞ səfirliyindən də möhtəşəm, bağlı-bağatlı bir bina tikdi.*

*Lap yadımdan çıxmışdı həmin illərdə Azərbaycanda ABŞ-ın lom udmuş bir səfiri vardı Rino Harniş, harda bir balaca Azərbaycanın əleyhinə yığıncaq olurdu, ya söz-söhbət olurdu orda peyda olurdu, dəstək olurdu. Özünü az qala Azərbaycanın yiyəsi kimi aparırdı. Heç vaxt onu qəzetdə ABŞ-ın ölkəmizdəki səfiri kimi təqdim etmirdim, həmişə belə yazırdım: "Azərbaycan KP MK-nın 2-ci katibi Rino Harniş dünən Sumqayıtda olub, ya harda olub".*

*Sovetləri görənlərin yadına düşər, 2-ci katiblər həmişə özlərini hamıdan üstün tutardılar, həmişə də rus olardılar və Rusiyadan təyin edilərdilər.*

*Bu da belə.*

# MN: Laçında döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə döyüş növbətçiliyinin təşkili ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Laçın rayonunda Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən strateji əhəmiyyətli Üçdik yüksəkliyində döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib.

Burada şəxsi heyətin gecə və gündüz nümunəvi xidmət etməsi, döyüş qabiliyyətinin və döyüşə hazırolma vəziyyətinin daim yüksək səviyyədə saxlanılması məqsədilə bütün zəruri tapşırıqlar icra olunur.

**Azad olunmuş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən kompleks tədbirlər davam edir.**

*Mehman CAVADOĞLU*

# Silah yox, sülh!

*Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən növbəti Brüssel görüşü başa çatıb. Bu, tərəflər arasında eyni formatda keçirilən sayca dördüncü görüşdü. Əvvəlki görüşlərin ənənəsinə uyğun olaraq danışıqlar barədə ictimaiyyətə geniş bilgi verilmədiyi üçün bağlı qapılar arxasında baş verənlərin təfərrüatları barədə yalnız dolayısı mənbələrə istinadla xəsisliklə mətbuata sızdırılan məlumatlar əsasında mühakimə yürütmək mümkündür. Üstəlik, nəzərə almaq lazımdır ki, Bakıyla Yerevan arasında Şarl Mişellə yanaşı Vladimir Putinin vasitəçiliyi ilə də mütəmadi görüşlər keçirilir və Kremlin Brüssel prosesinə zahirən dözümlü yanaşması heç də onun nəticələrini (əgər olarsa) qəbul edəcəyi anlamına gəlmir. Birbirinə asi olan və fərqli maraqlar güdən güc mərkəzlərinin paralel vasitəçilik missiyası ilkin mərhələdə nə qədər problemsiz ötüşsə də, onun sonradan ciddi fəsadlar törədəcəyi qaçılmazdır.*

*Sonuncu Brüssel görüşünü əvvəlkilərdən fərqləndirən əsas cəhətlərdən biri onun formatıyla bağlıdı. Bu dəfə görüşdə prezidentlərdən başqa hər iki ölkənin xarici işlər nazirləri və Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyev və Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da iştirak edirdilər. Bu cür geniş tərkib isə ilk növbədə gündəlikdəki məsələlərin daha geniş və detallı müzakirəsindən xəbər verir.*

*Artıq danışıqların gərgin keçməsi barədə ilk məlumatlar mətbuata sızılıb. Bu məlumatlar ümumi mahiyyət daşısa da, dəqiqliyi tam olaraq təsdiqlənməsə də hər halda od olmayan yerdən tüstü çıxmaz. Üstəlik, formatdan da göründüyü kimi əvvəlki görüşlərdən fərqli olaraq bu dəfə daha konkret məsələlər barədə müzakirələr aparıldığı üçün gərginliyin qaçılmaz olacağını əvvəcədən də təsəvvür eləmək çətin deyildi. Görüş vaxtı erməni tərəfi daha çox iki ölkə arasında sülh sazişi üzərində işləməklə bağlı işçi qrupunun yaradılması və nəqliyyat-kommunikasiya vasitələrinin açılması ilə bağlı məsələlərə müqavimət göstərməyə çalışsa da bütün cəhdləri uğursuzluğa düçar olub.*

*Şarl Mişelin görüşün yekunları barədə yaydığı xüsusi açıqlama nə qədər ümumi mahiyyət daşısa da, hər halda ilk və mötəbər mənbə kimi daha çox qiymətlidir. Aİ prezidenti əldə olunan razılıqlar barədə konkret bir söz söyləməsə də görüşün məhsuldar keçdiyini xüsusi vurğulayıb. O, sülh müqaviləsinin bağlanmasını sürətləndirmək üçün Ermənistan və Azərbaycan arasında razılıq əldə edildiyini və layihənin mətnini hazırlamaqdan ötrü xarici işlər nazirlərinə bir ay ərzində görüşmək barədə tapşırıq verildiyini bildirib. Sərhədlərin delimitasiyasına toxunan Ş. Mişel Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı əldə olunmuş razılıqdan da danışıb. Onun sözlərinə görə görüşdə nəqliyyat xətlərinin açılması, eləcə də humanitar məsələlər - minaların təmizlənməsi, əsirlər və itkin düşmüş şəxslər barədə də müzakirələr aparılıb.*

*Avropa Birliyi prezidentinin üç saatdan çox davam edən görüşün özətləri barədə verdiyi bu qısa açıqlamadan da göründüyü kimi müzakirə edilən məsələlərin əhatə dairəsi xeyli geniş olub. Hərçənd, real nəticələr haqqında konkret nəsə söyləmək hələlik çox tezdir. Çünki qarşı tərəfin davranışlarından, necə deyərər, qırımından açıq-aydın görünür ki, onlar müzakirə olunan məsələlərin bir çoxunun həllində, xüsusilə kommunikasiyaların açılması, sərhədlərin delimitasiya və demarkasiyasıyla bağlı proseslərin başlanmasında maraqlı deyillər. Yuxarıda qeyd etmişdik ki, Rusiyanın zahiri susqunluğu heç də onun Brüssel prosesindən məmnunluğunun göstəricisi deyil. XİN sözçüsü Mariya Zaxarovanın dünən keçirdiyi brifinqdə söylədikləri də bunun əyani sübutudur. Xanım Zaxarova Aİ-nın Cənubi Qafqazda aktivlik göstərməsini onun geosiyasi ambisiyalarıyla əlaqələndirir və Brüsseli Moskvanın bostanına daş atmaqda suçlayır: ”Ümumiyyətlə, biz görürük ki, Avropa İttifaqının Cənubi Qafqazdakı fəaliyyəti Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına real töhfə vermək istəyi ilə yox, geosiyasi ambisiyalarla bağlıdır. Bunlar Avropalıların psevdotəşəbbüsləridir. Bunlar daha çox başqasının vasitəçilik uğurlarını həyasızcasına mənimsəmək cəhdinə bənzəyir Rusiya burda vasitəçi kimi işləyir və onun işi konkret nəticələr verir. Yerevanla Bakı isə bunu qiymətləndirir”.*

*Hərçənd, son vaxtlar Ermənistan cəmiyyətində tamam fərqli proseslər gedir. Bütün ölkə getdikcə daha çox antirus ovqatına köklənməyə başlayır ki, bü da 44 günlük müharibədəki ağır məğlubiyyətdən sonra Moskvanın ətəyindən daha sıx yapışmağa məcbur olmuş Paşinyanın əlinə oynayır. Məğlub baş nazir bir tərəfdən Rusiyanın Ukrayna müharibəsindəki uğursuzluğundan, digər tərəfdənsə Kremlyönlü müxalifətin onu devirmək üçün bir neçə ay əvvəl göstərdiyi sonuncu cəhdin də iflasa uğramasından ruhlanaraq yenidən əvvəlki qərbpərəst mövqeyinə qayıtmağa meyllənib. Artıq rəsmi və qeyri-rəsmi sözçülər də bu ”köhnə-yeni” xəttin təbliğinə başlayıblar. Paşinyanın tərəfdarı olan keçmiş baş nazir Aram Sərkisyan isə bir neçə gün əvvəl verdiyi bir açıqlamayla baltanı lap kökündən vurub. O, Ermənistanın KTMT-dən çıxmasının vacibliyini vurğulayaraq Putinin məhrəm hisslərinə toxunub: ”KTMT Ermənistanın təhlükəsizliyi ilə bağlı öhdəliklərini yerinə yetirmədiyi üçün biz oranı tərk etməliyik. Çünki həmin təşkilatın üzvü olmağımız Qərbin, xüsusilə ABŞ və Fransanın hərbi yardımını almağımıza mane olur”. Qərb ölkələrinin Azərbaycan - Ermənistan konfliktinə münasibətdə Yerevanın tərəfində olması heç kim üçün sirr deyil. Münaqişənin davam etdiyi 30 il ərzində həmin ölkələrin hökumətləri dəfələrlə dəyişsə də, iqtidara ayrı-ayrı siyasi cərəyanların təmsilçiləri gəlsələr də, bu istiqamətdə heç bir siyasi dəyişiklik baş vermədi. Çünki Dağlıq Qarabağı Azərbaycandan qopardıb Ermənistana vermək həmin ölkələrin dövlət siyasətiydi. Hökumətlərin nə həmin siyasəti dəyişmək səlahiyyəti, nə də buna həvəsi var idi. Hətta Rusiya da bu platformada öz əzəli və əbədi rəqibləriylə bir sırada dayanmışdı. Bəli, heç bir beynəlxalq dəstəyi olmayan Azərbaycan bu davanı belə bir qlobal erməni həmrəyliyi fonunda uddu. Təkbaşına uddu. Təzyiqlər önündə geri çəkilməyən, çox nadir hallarda yaranan siyasi konyuktaralardan düzgün istifadə etməyi bacaran hakimiyyətinin, sınmayan, demorolizə olmayan xalqının gücüylə uddu. Və bir də ona görə uddu ki, ilahi ədalət onun tərəfindəydi.*

*Odur ki, Aram Sərkisyan əbəs yerə elə güman edir ki, Rusiyanı Qərbə dəyişməklə nəyəsə nail olmaq mümkündür. Ən düzgün yol Azərbaycanla sülh şəraitində yaşamaqdan keçir ki, hazırda silah axtarışına çıxmaq yox, əllərinə göydən düşən bu barışıq şansını dəyərləndirmək barədə düşünmək lazımdır.*

## Müəllimlər sertifikasiyadan qorxurlar



**Amma ibtidai sinif müəllimlərinin ilk imtahanı göstərdi ki, sertifikasiyadan qorxmaq lazım deyil. Bir balaca öz ixtisasını bilirsənsə, çox asanlıqla, ən azından 30 bal toplayacaqsan. Bir az da savadlı olsan, 50 baldan çox yığacaqsan. Amma məsələnin bir tərəfi var ki, gərək müəllimlərə imtahana düşən suallar əvvəldən verilsin.**

Çünki əvvəldən imtahana düşən suallar da daxil olmaqla minə yaxın suallar verilsə, müəllimlər imtahana qədər daha yaxşı hazırlaşar və çoxları da yüksək bal toplayar. Çünki müəllimlərə imtahandan öncə hardasa sualların verilməməsi də, bir ədalətsizlikdir.

**Emil FAİQOĞLU**

# Kəmaləddin Heydərov müşavirə keçirdi

**Fövqəladə Hallar Nazirliyində nazir, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə FHN məlumat yayıb.

Bildirilib ki, nazirin birinci müavini general-leytenant Rəfail Mirzəyev və Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyətinin iştirak etdiyi müşavirə FHN-in maddi-texniki təchizatı və pilot layihə kimi hazırlanmış fövqəladə halların intellektual idarəetmə sisteminin tətbiqi ilə bağlı məsələlərin müzakirəsinə həsr olunub.



Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ən müasir texnika və avandanlıqlarla təchiz olunmuş Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının günün tələbinə və texnologiyaların inkişafı dinamikasına uyğun olaraq daim yenilənməsi həyata keçirilir. Məhz bunun sayəsində FHN baş verən istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparır.

Daha sonra nazir bildirib ki, Nazirliyin maddi-texniki təchizatının yenilənməsi üzərində işlər davam etdirilməli, habelə texnika və avadanlıqlara, o cümlədən yanğınsöndürmə və xilasetmə texnikalarına vaxtlı-vaxtında texniki qulluğun göstərilməsi məsələləri bundan sonra da daim diqqət mərkəzində saxlanılmalıdır.

Müasir texnologiyalardan iş prosesində istifadənin vacibliyinə toxunan nazir xüsusilə fövqəladə halların qarşısının vaxtında alınması və nəticələrinin çevik aradan qaldırılması istiqamətində ən son sistemlərin, o cümlədən rabitə və fövqəladə halların intellektual idarəetmə sistemlərinin tətbiqinin əhəmiyyətini qeyd edib.

Sonra fövqəladə halların intellektual idarəetmə sisteminin təqdimatı edilib. Bildirilib ki, bu sistem FHN-in qurumları arasında birgə fəaliyyətin daha yaxşı koordinasiya edilməsi və qüvvələrin daha effektli tətbiqi üçün nəzərdə tutulub. Geniş imkanlara malik bu sistem xüsusi və ən son nəsil müşahidə kameralarının köməkliyi ilə fövqəladə hal rayonunun real vaxt rejimində anında nəzarətə götürülməsi və qüvvələrin vaxt itirmədən çevik və səmərəli idarə edilməsinə imkan yaradacaq. Bu sistemin əvvəlcə pilot layihə kimi konkret bir rayonda tətbiqi nəzərdə tutulur. Məhz bu pilot layihənin tətbiqi zamanı sistemin bütün xüsusiyyətləri praktiki olaraq real şəraitdə təhlil ediləcək, o cümlədən mümkün çatışmazlıqlar aradan qaldırılacaq və bundan sonra onun bütün ölkə üzrə tətbiqi ilə bağlı qərar veriləcək.

**Təqdim olunan fövqəladə halların intellektual idarəetmə sistemini yüksək qiymətləndirən nazir Kəmaləddin Heydərov onun pilot layihə olaraq qısa müddətdə tətbiqi ilə əlaqədar müvafiq tapşırıqlar verib.**

# Ağdamın Qarağacı qəbiristanlığı ilə bağlı alternativ hesabat hazırlanacaq



**Bu gündən Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyi yeni layihəyə başlayr.**

Bu Adalet.az-a barədə layihənin rəhbəri Asəf Quliyev məlumat verib.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəklədiyi ”Ruhlar şəhərini ruhu” layihəsi sentyabrın 1-dən noyabrın 30-dək həyata keçiriləcək.

Layihə barədə danışan Asəf Quliyev qeyd edib ki, işğal altında olan zaman Ağdamda ağdamlılar və bütünlükdə Azərbaycan üçün bir çox mənəvi əhəmiyyət daşıyan məkanlar yerlə yeksan edilib:

”Layihənin əsas vəzifəsi belə məkanlardan biri olan Qarağacı qəbiristanlığı ilə bağlı alternativ hesabat hazırlamaqdır.

Məqsəd bu hesabatı Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyalara, beynəlxalq təşkilatlara çatdırmaqla işğal dövründə baş vermiş vandalizm aktlarının təkcə maddi yox, daha çox mənəvi zərərini beynəlxalq ictimaiyyətə çatdırmaqdır.

”Haqqında alternativ hesabat hazırlanacaq Ağdamın Qarağacı qəbiristanlığının min illik tarixi var” deyən layihə rəhbəri təəssüf hissi ilə vurğulayır ki, bu məkana yalnız bir dəfə, 1927-ci ildə elmi ekspedisiya təşkil olunub.

”Qarağacı qəbiristanlığında heç vaxt nə arxeoloji qazıntı, nə də başqa bir tədqiqat aparılmayıb.

Əlbəttə ki, bizim məqsədimiz arxeoloji qazıntı aparmaq deyil. Nə də elmi araşdırma aparmayacağıq. Biz sadəcə bu məkanın insanlar üçün nə qədər mənəvi dəyəri olduğunu və belə bir məkanın işğal dövründə hansı vəziyyətə salındığına diqqət çəkmək istəyirik”.

Asəf Quliyev bildirib ki, Ağdamın yenidən qurulması planında Qarağacı qəbiristanlığının da bərpa olunacağı nəzərdə tutulub:

”Bizim layihənin məqsədlərində biri də insanların yaddaşında qalan bəzi nüansları tapıb ortaya çıxarmaqdan ibarətdir. Əminik ki, bərpa işləri görülən zaman insanların yaddaşında qalan bu detallar faydalı olacaq”.

**Sonda layihə rəhbəri Ağdamın Qarağacı qəbiristanlığı ilə bağlı hər hansı bir tarixi video, foto materialları olan şəxslərdən bu materialların layihənin icraçılarına təqdim etməyi xahiş etdi.**

# Aşağılanan təhsilimiz və qocaman müəllimlərimiz: «Sertifikasiya» oyunu...

**Təhsilimiz, ata- anamız qədər müqəddəs bildiyimiz müəllimlərimiz niyə belə məhv edilir, gözdən salınır?**

Xalq olaraq, vətəndaş olaraq bütün məhrumiyyətlərə dözürük; hər gün qiymət artımı, hər gün aclıq , işsizlik, huquqlarimizin pozulması, səhiyyənin, nəqliyyatın, k/təsərrüfatının, mədəniyyətin , iqtisadiyyatın və daha nələrin verdiyi imtahanlardan ya sağ çıxırıq ya da heç sağ qurtula bilmirik!

3- 5 ildə maaşi yerindən tərpənməyən əhalinin bu imtahanda nələr düşündüyünü bir Allah bilir, bir də dodaqlarının altında Allaha gileylənən özləri!

Hər şeyə dozərik! Necə ki, dözürük! Amma buna dözmək olmur!

Bu fotodakı və minlərlə bu yaşda müəllimlər... Yəqin ki, bu yaşda bütün müəllimlər oğlu-



qızı, bəlkə də nəvəsi yaşında birinin qarşısında imtahan verə- verə düşdüyü duruma görə əzab çəkir, mənən ölüb - dirilir.

Hələ məktəbdəki şagirdlərinin ” müəllimə, eşitdim imtahandan kəsilmisiniz ” risxəndini və yaxud təəssufunu xəyal edən yasli, müəllimlər müəlliminin xəcaləti umrunuzdadirmi?

55-60 yaşlı müəllimi ”sertifikasiya” edərkən qazandığınız” uğur” , ”nailiyyət”, ”xeyir” də, əzdiyiniz bu müəllimlərin uzərinizdəki haqqi sizi, sizin vicdanınızı sakit buraxacağınımı düşünürsünüz?

Axı onlar müqəddəs şəxslərdir! Həzrəti Əli deyib ki, mənə bir hərf öyrədənə mən yüz il kölə olaram! 40 il ömrünü şərəfli bir sənətə həsr edən o qocaman müəllimlərdən nə istədiniz?

**Dövrün, yaşamım verdiyi sstres və həyəcanlarının üstünə bir dənə də ” sertifikasiya” sstresi qoyub, bu insanları niyə ölümə sürükləyirsiniz?**

**Əntiqə Rəşid**

## Arzumanyanın həbsi Naira Zöhrabyanda təşviş yaratdı: "Arayik Arutyunyan da həbs oluna bilər"

**Xəbər verdiyimiz kimi, ötən gün Qarabağdakı erməni separatçılarının keçmiş komandanı Mikael Arzumanyan Qarabağdan Ermənistana gedərkən saxlanılıb. Məlumata görə, Ermənistan İstintaq Komitəsinin Hərbi İdarəsinin müstəntiqlərinin göstərişi ilə tutularaq nəzarətə götürülüb.**

Bu təmtəraqlı həbs bir çox keçmiş cinayətkarın kürkünə birə salıb.

Adalet.az panorama.ama istinadən xəbər verir ki, məsələyə Ermənistan parlamentinin keçmiş deputatı Naira Zöhrabyan da etinasız yanaşmayıb. O , feysbuk səhifəsində bununla bağlı paylaşım edib. Eks deputatın sözlərinə görə, Arayik Arutyunyanın da həbs olunma ehtimalı artır: ”Əlbəttə, Paşinyanın arxasında gizlənən Onik Qasparyan, Cəlal Arutyunyan və başqaları Qarabağın 75%-nin xəyanətkarcasına təslim olmasına görə cavab verəcəklər. Mikael Arzumanyandan əvvəl, ilk növbədə, Cəlal Arutyunyan, Onik Qasparyan və şərəfini Nikola ucuz qiymətə satan qalan zabitlər həbs edilməli idi.

Zöhrabyana elə gəlir ki, general-mayor Mikael Arzumanyanın həbsi sifarişli həbsdir:”Güman edə bilərəm ki, Mikael Arzumanyan Brüssel görüşü ərəfəsində prezident İlham Əliyevə ”hədiyyə” kimi həbs edilib.





Oniklərə, Cəlallara və digər ləyaqətsiz zabitlərə elə gəlirsə ki, Nikolun arxasında gizlənərək özlərini sığortalayırlar və başqa bir günah keçisi olmayacaqlar, deməli, dərin yanılırlar.

Fikirlərinin sonunda deputatın bu həbslərdən həyəcanlandığı da hiss olunmaqdadır. O paylaşımında deyir:”Nikol hamınızı bir-bir həbs edəcək və düz edəcək. Çünki sadə bir məntiq var: bir nömrəli günahkarı və təslim olanı həbs etməsəniz, cəsarətiniz çatmadığı üçün o da öz növbəsində məğlubiyyət ”cibinizə” soxacaq və yerə uzadaraq qandal taxacaq.

Zöhhrabyan paylaşımının sonunda ”İstisna etmirəm ki, yaxın vaxtlarda belə şou vasitəsilə Qarabağın ”prezidenti” Arayik Arutyunyan da həbs olunacaq”- yazaraq fikrinə yekun vurub

Qeyd edək ki, ”Çiçəklənən Ermənistan” partiyasının deputatı Naira Zöhrabyan Nikol Paşinyanın qatı əleydarlarındandır. Onun Baş nazirə qarşı ilk etiraz çıxışı bu sözlərlə başlamışdı: ”Canlı yayımlar zamanı Paşinyanın manerasına heyran qaldım. Bölgələri təslim edən hər kəsin cavab verəcəyini söyləyir. Görəsən, onları kim təslim etdi? Cəmiyyəti günahlandırmağa son qoyun. Baş verənlərin hamısına görə siz cavabdehsiniz”

**Əntiqə**

## *Fələstinlilər son illərin ən böyük təhlükəsi ilə üzləşirlər*



**İşğal altındakı İordan çayının qərb sahilindəki fələstinlilər son illərin ən böyük təxliyyəsi ilə üz-üzədir.**

Təxminən 1200 fələstinlinin yaşadığı Masafer Yatta bölgəsində İsrail əsgərlərinin nəzarəti altında bir çox ev sökülür. Digər tərəfdən, bölgədə yəhudi köçkünlərin də varlığı artır. İsrail bu ərazini ”hərbi poliqon” elan edib. İsrail Ali Məhkəməsi də may ayında bu iddianın yanında olub və bölgədə gərginlik artıb. Əgər planlaşdırıldığı kimi davam edərsə, bölgə onilliklərin ən böyük kütləvi evakuasiyası ilə üzləşə bilər.

BBC-yə müsahibə verən fələstinlilər regionda baş verən proseslərdən narahatdırlar və özləri üçün gələcək görə bilmədiklərini deyirlər.

İsrail tikintiyə icazə vermədiyi evlərin ”qanunsuz” olduğunu bildirərək artıq söküntü işlərinə başlayıb. Digər tərəfdən, icazə almaq fələstinlilər üçün asan deyil.

**Yaşayış məntəqələri məsələsi İsraillə beynəlxalq ictimaiyyət arasında uzun müddətdir müzakirə olunur.**

**Eminquey**

*Məzahir ƏHMƏDOĞLU*

# QARŞINDA SEVİNCDƏN ÖLƏ BİLƏYDİM – VƏTƏN!



**...Yaş fərqimiz 25 ili ötsə də bizim çox rahat dostluğumuz yaşanır. Telefon əlaqələri, hal-əhvalları, əlbəttə ki, simvolik xarakter daşıyır. Ancaq elə ki, ayda bir dəfə, iki dəfə görüşə biliriksə, söhbətlərimiz şirniyyatlı çay süfrəmizdən də şirin olur. Bir saat, iki saat, üç saat... Görüşlərimiz heç vaxt çərçivəli, planlı olmur. Bəlkə də iş, ailə qayğıları, digər həyati zəruri məsələlər olmasa, eləcə ac-susuz da Allah bilir, neçə saat, neçə gün davam edər. Mənim bu cavan dostumla bu dərəcədə yaxın, istəkli olmağımın əsas səbəbi ikimizin də arzuladığı böyük səmimiyyətdir. Elə ona görə də bu yüksək vəzifəli və rütbəli dostumla vətənimizin bu günündən, gələcəyindən, dünya siyasətindən, hətta futboldan, dost-tanışlardan... Rzadan danışanda da səbr və təmkinlə vaxtla, zamanla da saatlara baxılmadan gizli, üzə çıxmayan çarpışmamız olur. Və heç vaxt bu dadlı, eyni zamanda cari söhbətlərin, xoş, səmimi mübahisələrin sonu gəlmir, qalır növbəti görüşlərə.**

**İnsan nə qədər vətənpərvər, dürüst, səmimi ola bilərmiş? İnsan nə qədər alicənab, əsilzadə ola bilərmiş? Dostumun portreti nə qədər arzulanan və qürurverici olsa da təkcə bu epitetlərnən də tamamlanmır. Onu tam dərk etmək, tamam açmaq da mümkün deyil. Çünki 44 günlük Vətən müharibəmizin zəfərlə başa çatmasının sevincini yaşadığımız günlərdə o mənə elə bir söz, söz nədi, elə bir fantastik arzusunu bildirdi ki, gülümsəyərək söylədi ki... Mən göz yaşlarımı sıxa bilmədim.**

**Seçilmişləri, böyük qəlb sahiblərini, dahi şəxsiyyətləri, gözəl, xeyirxah əməlləri ilə pislərin də günahlarını yuyanları, bütövlükdə bəşəriyyət üçün sevinə bilən, həm də ağrıya bilən əzabkeşləri, Allaha üz tutub ürək sözləri ilə az qala Yaradanın özünü də çaşdıranları... tam dərk etmək mümkün deyil. Qeyriadiliklərin nüvəsinə, ruhuna qovuşa bilmədiyimiz kimi. Gördüklərimizin, yaşadıqlarımızın fövqündə bəzən elə hadisələr baş verir ki...**

**...Mən göz yaşlarımı sıxa bilmədim. Sanki onun mənə söylədikləri elə bu dəqiqə, bu an baş verəcək və bu uca boylu, Nazim Hikmət misalı ”mavi gözlü div” adamdan, qardaşım kimi, oğlum kimi, vətənin azadlığı uğrunda şəhid olan övladlarımız kimi sevdiyim insandan əbədi ayrılacağam.**

**İndi əziz oxucu, ən vacib məqama yön almaq vaxtıdır. Ancaq mən bu əhvalatı danışarkən o Böyük Dostumun adını çəkə bilmərəm. Çünki bunun bir sirr olaraq qalamasını vəsiyyət edib. Təkcə mənə yox... İndi hamısını danışaram.**

**Qələbədən sonra Şuşa sevincimizi xüsusi yaşayırdıq. Əlbəttə, daha çox onun sevinci, heyranlığı ilə. Söhbətimizin birində məni çox məhrəmanə baxışlarla süzüb əlini çiynimə qoydu. Sonra söhbətinə başladı.**

**- Bilirsən ki, mən bu böyük qələbəmizə necə sevinmişəm. Onu da bilirsən ki, Şuşada bayrağımız dalğalananda ürəyim az qala sevincdən dayanmışdı. Məzahir müəllim, mən sevincdən öləcəkdim. Fani dünyada bundan xoşbəxt ölüm ola bilərmi? Əfsanəvi Ali Baş Komandanımız igid oğullarımızın Şuşanı qeyri-bərabər döyüşdə düşməndən təmizlənməsini xəbər verən zaman mən artıq bu dünyanın ən xoşbəxt adamı idim. Sən də bilirsən ki, bu döyüş elə-belə döyüş olmayıb. Müasir silahların heyrətamiz dövründə sanki qədim bir ölüm-qalım məsələsi... Şuşa qalası heç kəsin ağlına gəlməyən bir üsulla murdarlardan azad edildi. Qədimlərdə də, sonralar da bənzər döyüşlər olub. Elə Troya müharibəsindəki hadisələr və yaxud Spartalıların vətən torpağı uğrunda qeyri-adi cəsurluğu... Bunları sən məndən də yaxşı bilirsən. Bizim oğullarımız öz canı, qanı bahasına təkcə Şuşanı almadılar ki. Sonrakı bütün qələbələrimizin bünövrəsini qoydular həm də. Şuşa sanki bizim ”Axilles dabanımız” idi. Biz bu qədim mifologiyanı da Qarabağın dərələrinə buraxıb Zəngəzur yoluna çıxmışıq. Ayaqlarımızın, dabanlarımızın möhkəmliyi, Dəmir yumruğun sirrində, xalqımızın mətnliyində, Ali Baş Komandanımızın dünya siyasətindəki üst mövqeyindədir.**

**...Məzahir müəllim, indi lap sakitcə dinlə məni. Şuşa fəthindən sonra düşünüb-düşünüb bir gün diz çöküb əllərimi Allahıma uzadaraq Onun bu böyük qələbəni xalqımıza, bütün türk ellərimizə qismət etməsini gücüm çatan bəşəri bir sevinclə alqışladım. Sonra Ona üz tutub o döyüşlərdə şəhid ola bilmədiyim üçün Vətənim, Xalqım və Ali Baş Komandanım qarşısında can borcumu dilədim. Dilədim ki, Böyük Allahım, sən ki mənə və xalqıma dünyanın ən böyük sevincini yaşatdın, elə bu andan canımı qurban deyirəm. Harda olur olsun, ölümü təbəssümlə qarşılayacağam.**

**...Sonra ata-anama vəsiyyət elədim. Ailəmə, baxmayaraq, övladlarım hələ orta məktəb şagirdləridir, onlara da vəsiyyət elədim. İndi bir dost kimi də səni seçib sənə vəsiyyət edirəm: mən dünyanın ən xoşbəxt insanlarından biriyəm...**

**Əziz dostum bütün bunların həm də bir sirr kimi qalmasını istəmiş və hamını xəbərdar etmişdir ki, onunla bağlı qəfl baş verə biləcək hadisəyə mümkün qədər ağrımayaq.**

**Mən bu əhvalatı yazacağımı ona bildirsəydim qətiyyən razılaşmaz, hətta dostluğumuza xələl gələ bilərdi. Ancaq yazmaya da bilmədim. Adını çəkmədən, kimliyini bildirmədən mən əziz dostumla, o böyük vətənpərvərlə, o gözəl şəxsiyyətlə belə danışmağı üstün tutdum. İnanıram ki, o, məni başa düşər və bağışlayar. Hadisə ilə o qədər də əlaqəsi olmasa da yadıma qədim bir türkümüzün misraları düşdü elə bu dəqiqə:**

**Bu kadar yürekden çağırma beni,**
**bir gece ansızın gele bilerim,**
**kapında sevincden öle bilerim...**

*Emin Piri*

# Biz nə istəyirik?

***Az qala hər kəs önəm verdiyi xarakterlərin önündə səmimiyyət, dürüstlük, güvənin öndə gəldiyini deyir.***

***İnsanlardan özümüzdə olmayanları istəyirik.***

***Kimin nə deməyindən aslı olmayaraq qarşımızda səmimi olan birini səmimiyyətinə uyğun dəyərləndirib uca görürükmü?***

***-Tam əksi. Əksinə, onun səmimiyyəti malik olduğu statusu, dəyəri endirir, adiləşdirir. Uzaqbaşı filankəs səmimi adamdır-deyərik, gülərik, bitər.***

***Yaxud vəzifəsi, pulu yüksək olmayan birinin səmimiyyəti onu gözümüzdə ümumiyyətlə heç nə edəcək.***

***Dürüstlük istəyirik, axı, tam dürüst adamı özümüz olduğu kimi qəbul edə bilirikmi?***

***-Əksinə, bildiyimiz dürüstlük, həqiqət bizi uzaqlaşdırar.***

***Bu qədər dürüst olmağa nə gərək var? Bəlkə də qəddarca çıxacaq, amma qarşılıqlı aldadıb, qarşılıqlı bir-birinə inanmış kimi göstərib bir-birini yola vermək olar.***

***Güvənə önəm veririk, amma özümüz nə qədər güvən veririk?***

***Xarakter əsasdır deyərək- münasibətlərdən iş həyatına kimi pul çox şeydir deyərək xarakter adı altında xislətimizi gizlədən deyilikmi?***

***Səmimiyyət, dürüstlük, güvən- bu sadəcə əsas istək və ruhumuzda gizlənən insan xislətini gizlətməkçün bir vasitə və ya sığortadır.***

***Dərinə getsək, bəlkə də qarşımızdakılardan da səmimiyyət, dürüstlük, güvən istəmirik. Bu heç bizə lazım da deyil. Ağzımıza taxdığımız maskadır bu da. "İstəyimiz budur" adıyla əsl istəyimizi,özümüzü gizlətmək.***

***Bir sözlə, bir üzümüzə sillə vurulanda iki üzə sillə atarıq, amma istəyirik ki, qarşımızdakı İsa olsun. Bir üzünə vuranda o biri üzünü sillə vurmaqçün bizə tərəf döndərsin.***

Aqil ABBAS

# GENERAL

*Çox böyük rütbədir. Bir generalın yetişməsi üçün dövlət nə qədər xərc çəkir. Və nə qədər də vaxt lazımdır, adi əsgərdən başlamış pillə-pillə leytenanta, general olana qədər.*

*Biz tələbə olanda axşamlar gedərdik Nizami küçəsinə. Hər axşam müəyyən saat müddətində general formasında İbrahim Əhmədov bu küçədə gəzişərdi. Adamlar ehtiramla ona yol verərdi. Əslində çox adam, elə biz tələbələr kimi, onun gəzdiyi vaxtı dəqiq bildiyindən generala tamaşa etmək üçün həmin vaxt Nizami küçəsində olardı. Ağır-ağıryana bir kişi idi, elə ağır-ağır da gəzirdi. Məşhur jurnalist (o vaxt məşhur deyildi) İlqar Əlfioğlunun dayısı idi.*

*Ağdamda Ədalət həkim vardı, general, daxili işlər naziri Arif Heydərovun əmisi oğlu idi. Həftədə, ayda əmioğlusuna kənd matahı göndərərdi. Kənd matahı da nə olur - motal pendiri, quzu, kənd çolpası, yumurta, Qiyaslı qaymağı, ya da nübar mer-meyvə.*

*Bir dəfə həkimin oğlu Akiflə qatarda bir gəlirdik, dostum idi. Ağcabədinin Bayat kəndindən Nazim də bizlə idi, o da Akiflə Xalq Təsərrüfatı İnstitutunda bir yerdə oxuyurdu.*





*Səhər qatardan düşəndə Akif dedi ki, atam əmimə pay göndərib, kömək eləyin aparaq. Gəldik Arif Heydərovgilə. Qapını xanımı açdı, Akifi qucaqlayıb öpdü, bizimlə də görüşdü, paylarını keçirtdik otağa, qayıtmaq istədik xanım buraxmadı. Dedi, səhər-səhərdi bir stəkan çay için. Utana-utana keçdik otağa. Səhər süfrəsi açıq idi. Bu vaxt yan otaqdan Arif Heydərov çıxdı. Düzü səksəndik, qalxdıq ayağa. Gəlib o da Akifi qucaqladı, hal-əhval tutdu, sonra bizimlə də görüşdü, dedi əyləşin.*

*Süfrədə nə vardı - pendir, yağ, yumurta, hə, bal da vardı. Utana-utana yedik.*

*Generalın evindən çıxanda Nazim təəccüblə dedi:*

*- Ə, qaqa, bunlar da bizim kimi pendir-çörək yeyir.*

*Güldük. Düzü, mən də elə bilirdim ki, generalların səhər süfrəsi nəsə ayrı cür olur.*

*Bu gün Azərbaycanda ləyaqətli, şərəfli generallar çoxdur. Öz zəhmətilə pillə-pillə yüksələn generallar və öz vəzifəsini general adına layiq icra edənlər. General olanda da sadəliyini, səmimiyyətini itirməyənlər. Məclislərdə, küçələrdə, toyda, yasda generallığını gözə soxmayanlar. Neçə-neçə belə general tanıyıram.*

*Və bir də general adını ləkələyənlər də var. Son zamanlar müxtəlif sahələrdə çalışan bir neçə general həbs olunub. Mətbuatda oxudum ki, dünən Müdafiə Nazirliyində İdarə rəisi işləyən general-mayor Bəkir Orucov da saxlanılıb. Görün vəzifəsi nə imiş? Nazirliyin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi. Saxlanılma səbəbini yazmayıblar. Amma görün nazirliyin mənəvi-psixoloji təminat İdarəsinə kim rəhbərlik edirmiş? Onun mənəvi cəhətindən əsgər və zabitlər nə örnək götürürmüş? Hələ bir müddət də Hərbi litseyin rəisi olub, minlərlə tələbə, daha doğrusu, zabit yetişdirib. İndi Bəkir Orucov da generaldı, Hikmət Mirzəyev də, Polad Həşimov da...*

*Nə isə. General tutulanda nədənsə çox pis oluram. Çünki tutulanlar general adını ləkələyirlər.*

*Sonda. Vaxtım olanda general Arif Heydərovdan bir xatirə də yazacam.*

# ŞEYTAN ÖLMÜR

***Allah şeytana əbədi ömür verib. Yəni Qorbaçov ölməz, o, şeytanın insan cildində təcəssümüdü. Hansısa bir adda yenidən zühur edəcək.***

***Və Qorbaçov tək deyil, dünya doludu qorbaçovlarla. Harda qan-qada var, onu törədənlər Qorbaçovdu və qorbaçovlardı.***

***Şeytan və şeytanlar şeytanlıqlarından bir dəqiqə belə əl çəkmirlər. İki qardaş xalqı (Rusiya-Ukrayna) bir-birinə düşmən eləyib şəhərləri, kəndləri dağıdırlar. Qocaya, cavana, uşağa rəhm eləmirlər. Suriyanı, İraqı, Əfqanıstanı dağıdırlar. Liviya xalqını xoşbəxt edən Qəddafini verirlər yoldan çıxartdıqları xalqının əlinə linç etdirib vəhşicəsinə öldürürlər. Pakistanla Hindistanı vuruşdururlar. Yəməndə müsəlmanı müsəlmana qırdırırlar. Nə bilim, Afrikada bir milləti xristian və müsəlmanlara bölüb vəhşicəsinə qan tökürlər. Milyonlarla insanı aclıq və səfalət içində çürüdürlər. Qarabağda evləri, meşələri yandırırlar, çöllərə, çəmənlərə mina döşətdirirlər. Cənubi Amerikada nə qələt qarışdırırlar...***



***Oturub insanları fəlakətə sürükləmək üçün min bir xəstəlik kəşf edirlər, dünyaya yayırlar, adını da qoyurlar pandemiya, meymun çiçəyi, nə bilim quş qripi, eşşək qripi. Ölkələri iqtisadi böhrana yuvarladırlar.***

***Şeytan və şeytanlar isə gözəl-gözəl saraylarda, ağevlərdə, Kanar adalarında, Maldiv adalarında kef eləyə-eləyə törətdikləri əməllərdən ləzzət alırlar.***

***Qorbaçov şeytandı, ölə bilməz. Yenə başqa bir adda zühur edəcək və yəqin ki, zühur də edib.***

***Amma mən ən çox bir şeyə təəccüblənirəm. Bizim Allah qarşısında nə günahımız vardı ki, bu Qorbaçovu bizim üçün göndərmişdi? Başımıza nə müsibətlər gətirdi? Hələ də yaralarımızdan qan axır. Fahişə arvadı ilə erməniləri yoldan çıxarıb, silahlandırıb saldı bizim millətin üstünə. Və əslində gic ermənilərin özləri də bədbəxt oldu. Biz ermənilərə "bic" deyirdik, amma indi məlum olur ki, bic yox, gicmişlər.***

***Şeytan və şeytanlar yenə də onların quyruğunun altını qaşıyır, yenə də soncuqlayırlar.***

***Dünyanın bütün mətbuatı yazır ki, Qorbaçov öldü. Ağdamlıların bir zarafatı var, əclaf adam öləndə deyirlər: "Görən, birinci dəfə öldü? Birinci dəfə ölübsə çox çətin olacaq". Yəqin indi inkir-minkir salıb təpiyinin altına. Cəhənnəm də qəbul eləmir, bir də gördüz oğraş təzədən dirildi.***

***Dostlar, şeytan ölmür. Yenə deyirəm, Qorbaçov və qorbaçovlar yenə də zühur edəcək - ayrı adda, ayrı postda.***

## Hindistanda 100 metrlik binalar dağıdılıb

**Hindistanın Ali Məhkəməsi yaxınlıqdakı binalardan müəyyən məsafədə tikinti aparılmasını qadağan edən qaydanı pozduğunu müəyyən etdikdən sonra ölkənin Noida şəhərində iki 100 metrlik 30 mərtəbəli bina sökülüb.**

Tikinti şirkətinin yaxınlıqdakı binalardan müəyyən məsafədə tikinti aparılmasını qadağan edən qaydanı pozaraq dövlət məmurları ilə əlbir olması müəyyən edildikdən sonra Ali Məhkəmə binaların sökülməsi barədə qərar qəbul edib. Rəsmilər binaların şəlalə üsulu ilə, 3500 kiloqram partlayıcıdan istifadə edilərək söküldüyünü bildirib. Sosial mediada paylaşılan görüntüdə iki binanın sökülməsini izləmək üçün bir araya gələn insanların böyük maraqla izlədiyi müşahidə olunub.

**Eminquey**

# Qan tökülən torpaqda güllər bitir



**...Hamı deyir ki, vətəni sevirəm və vətənin yolunda canımdan keçməyə hazıram. Bəli, bunu çoxlarımız deyirik və bu gün də o fikri səsləndiririk. Amma əsl vətən oğlu odur ki, əlinə silah alıb döyüşə gedir, vuruşur, ya şəhid olur, ya qalib olur, ya da qazi olur! Aydındır ki, Birinci və İkinci Qarabağ savaşında da Azərbaycan oğulları, əsgərlərimiz aslan kimi döyüşdülər. Onlar aslan kimi döyüşdülər, Şuşanı, Hadrutu, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı, Kəlbəcəri, Laçını geri qaytardılar.**



...O torpaqlar elə-belə geri qayıtmadı. O torpaqların dağında, daşında, ormanında və hər yerində şəhid qanı axdı.

Və həmin şəhid qanı bu gün gül kimi, çiçək kimi torpaqdan boylanır və bizə sevinc gətirir. Həm də o güllərdən, çiçəklərdən şəhidlərimizin, yaralı qazilərimizin ətri, qoxusu, iysi gəlir. Elə bilməyin ki, bunlar hamısı adi bir hissdi, duyğudu.

Bunlar hamısı tarixdi, vətəndi və gələcəyimizdi. Əgər o şəhidlərimiz olmasaydı, biz indi özümüzdən razı halda o torpaqlara gedib ziyarət etməzdik. Həm də şəhidlər və qazilərimiz yaşlı və orta nəslin çiyninə düşən ağır yükü öz çiyinlərinə aldı və vətəni bayaq dediyimiz kimi azad elədi.

Füzuli rayonunda da Birinci və İkinci Qarabağ döyüşlərində əlinə silah alıb döyüşən, şəhid olan, qazi olan oğullar az deyillər. Xüsusən də Birinci Qarabağ savaşında ayrı-ayrı igid oğullarımız silaha sarıldı və vətənin müdafiəsinə qalxdı. Onlardan ikisi - topçu, zabit Ağabala Quliyev və döyüşçü-fotoqraf Nurəhməd Vəliyev barəsində kimlər bilməsə də füzulilər çox yaxşı xəbərdardırlar. Belə ki, Ağabala Quliyev prokurorluq orqanlarında çalışsa da, könüllü olaraq Birinci Qarabağ savaşı başlayanda doğma Füzuliyə qayıdır və orda döyüşür. Hətta topu yüksəkliyə qaldırmaq üçün başqa bir texnika tapmayanda kənddən bir traktor tapır, topu traktorun arxasına qoşur və özü də sükan arxasına əyləşib yüksəkliyə qalxır və həmin yüksəklikdə topu yerləşdirir. Bütün kordinatları dəqiq hesablayır və erməni mövqelərini həmin yüksəklikdən darmadağın eləyir. Ağabala Quliyevin vətən sevgisi, vətən məhəbbəti o qədər güclü olur ki, bu hisslər hər an, hər dəqiqə düşmənə üstün gəlir. Silah-sursat, mərmi olmayanda belə Ağabala müəllim onları çətinliklə əldə edir. Bir an da olsun döyüş mövqeyindən geri çəkilmir.



Döyüşçü-fotoqraf Nurəhməd Vəliyev isə bir əlində silah, bir əlində fotoaparat düşmənlə Birinci Qarabağ savaşının ilk günlərindən döyüşə atılır. O qədər çətin, ağır anlarla üzləşir ki, ölüm onu hər an izləyir, amma o ölümə qalib gəlir.

Deyir ki, mən burda ölməyə yox, döyüşməyə və düşməni öldürməyə gəlmişəm. Göydən qrad, bomba yağanda belə o heç nədən çəkinmir, səngərdə döyüşür, ən çətin anları və məqamları fotoaparatın lentinə köçürür.

Onun Birinci Qarabağ savaşını əks etdirən yüzdən çox döyüşlərdə çəkilmiş nadir fotoları var. Bu fotolarda Füzulinin döyüşmüş, şəhid və qazi olmuş neçə-neçə igidlərinin şəkilləri qalıb. Və o şəkillər bu gün də qorunub saxlanılır. Tarix heç vaxt unudulmur. Ən azırdan ona görə ki, o ya təkrarlanır, ya da tez-tez xatırlanır.

Bu günlərdə bu tarix bir daha yenidən xatırlanıb. Birinci və İkinci Qarabağ savaşında döyüşmüş qazilər, müharibə iştirakçıları yenidən bir yerə toplaşıblar.

Füzulidə "Şuşa Zəfəri: dünənimiz, bu günümüz" adlı Horadizdəki "Muğam Mərkəzi"ndə möhtəşəm bir tədbir keçirildi.

Həmin tədbirdə Füzuli Rayon İcra Hakimiyyətinin, Xocavənd Rayon İcra Hakimiyyətinin nümayəndələri, Kürdəmir Regional Mədəniyyət İdarəsinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, Birinci və İkinci Qarabağ müharibəsi veteranları, qazilər iştirak ediblər.

Tədbir iştirakçıları Horadiz şəhərindəki "Qəhrəmanlar parkı"nda vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə ucaldılan abidəni ziyarət edərək onlara ehtiramlarını bildirib, abidə önünə tər, gül-çiçək dəstələri qoyublar.

Tədbir zamanı erməni işğalçılarına qarşı aparılan mübarizədən, Zəfər tariximizdən, xalqımızın döyüşkənlik ruhundan geniş söz açılıb. Onlar 1993-cü ilin 23-25 avqust tarixlərində Füzuli uğrunda gedən döyüşlərin baş verdiyi yerləri, məkanları ziyarət ediblər, döyüş xatirələrini danışıblar. "Şuşa ili"nə həsr olunan kitab sərgisi və döyüşçü-fotoqraf Nurəhməd Vəliyevin Qarabağ müharibəsi tarixinə həsr olunmuş fotosərgisinə maraqla baxılıb.



Təbii ki, 1993-cü ilin 24-25 avqustunda cəmi bir topla düşmənə qarşı mübarizə aparan topçu, zabit Ağabala Quliyevin, onun döyüş dostlarının şücaətindən danışanlar Qarabağ müharibəsi veteranlarının bu qəhrəmanlığını yüksək qiymətləndiriblər. Foto-sərgidə Birinci Qarabağ müharibəsi tarixini o dövrdə Füzuli uğrunda gedən döyüşləri əks etdirən yüksək çox tarixi fotolar, sənədlər nümayiş etdirib.

Görüşdə iştirak edən bütün qonaqlar öz ürək sözlərini səsləndiriblər. Füzuli Rayon İcra Hakimiyyəti başçısı Alı Alıyev, Xocavənd Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Əfsanə Quliyeva və başqaları Birinci və İkinci Qarabağ müharibəsi savaşında Füzulinin qəhrəman oğullarının şücaətindən, Şuşa Zəfərinə aparan yolun məhz Füzuildən başlanmasından ətraflı bəhs ediblər.



Onlar 2020-ci il oktyabrın 17-də Füzuli şəhərinin işğaldan azad olunmasını böyük qələbə və tarixi hadisə kimi dəyərləndiriblər.

Tədbirdə çıxış edən topçu, zabit Ağabala Quliyev və döyüşçü-fotoqraf Nurəhməd Vəliyev və başqaları 8 noyabr Zəfər gününə aparan tarixi-mübarizə yolu haqqında xatirələrini danışıb, ordumuzun Şuşa zəfərinin, Vətən müharibəsinin qızıl səhifəsi kimi qiymətləndiriblər.



**Ümumiyyətlə, bu cür görüşlərin keçirilməsi və xatırlanması bir daha tarixin, Birinci və İkinci Qarabağ savaşın yenidən vərəqlənməsi, xatırlanması deməkdir. O torpağa ki, şəhid qanı tökülüb, o torpağa ki, şəhid ayağı dəyib və orda gül bitir, çiçək boylanır, biz onların ətrini və qoxusunu hər zaman hiss edəcəyik. Və onu da hiss edəcəyik ki, şəhidlərimiz və qazilərimiz həmişə bu xalqın qəlbində və ürəyində özlərinə əbədi bir heykəl ucaldıblar. O heykəl ki, onu min illər keçsə də, heç kim nə sökə, nə dağıda, nə də məhv edə bilər. Nə vaxta qədər ki, Azərbaycan var, vətən var, Qarabağ var, o vaxta qədər də şəhidlərimiz və qazilərimiz yaşayacaq və bizi həmişə böyük gələcəyə aparacaq. O gələcək günəş kimi işıqlı, göy üzü kimi təmiz bir dünyadır.**

**Faiq QİSMƏTOĞLU**

# DTX-nın fəaliyyətindən qorxmayan rejissor



Zaur Əliyev,
Dosent

**Sovet dövründə üç rəngli bayrağı filmdə çəkmək böyük CƏSARƏT tələb edirdi.**

1971-ci ildə Sovet hakimiyyətinin dövründə İsa Hüseynov və Əjdər İbrahimovun ssenarisi əsasında Əjdər İbrahimovun rejissorluğu "Ulduzlar sönmür" adlı tarixi-bioqrafik film çəkilir. Film Azərbaycan Xalq Komissarları Sovetinin sədri, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Nəriman Nərimanovun həyat və çoxsahəli fəaliyyətinə həsr edilmişdir. Film bolşevik və sovet ideologiyası təsiri ilə çəkilib. Filmdə maraqlı bir səhnə var. Bu epizodda Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli ilə Nəriman Nərimanovun görüş yeri göstərilir. Görüşdə Nəsib bəy Yusifbəyli ilə yanaşı Hacı Zeynalabdin Tağıyevin iştirakı da səhnədə var, burada Nəsib bəy Nərimanovun Cümhuriyyət ünvanına səsləndirdiyi sərt ittihamlara cavab olaraq deyir:

"Bizi nəsillər mühakimə etməyəcək. Biz Azərbaycanı müstəqil ölkə etdik". Filmdə bununla Nəsib bəy Yusifbəylinin istiqlal uğrunda necə çətinliklər yaşadığı aydın olur.

Ssenaridə Nəsib bəyin N.Nərimanova "Sizin vətəniniz yoxdu, onu Rusiyayaya satmısınız" deməsi kadrdan silinib, bu isə o zaman istiqlalçılıq xəttini qabartması sovet dövrü üçün cəsarətli addım idi. O zaman belə ssenarist və rejissorlar Şərqin ilk demokratik respublikasının mövcudluğunu subliminal olaraq bizə çatdırırdılar.

Filimdə daha maraqlı bir kadr var. Azərbaycan ordusunun rəsmi keçidi.

ÜÇ RƏNGLİ AZƏRBAYCAN BAYRAĞI əllərində. 1971-ci ildə rejissorun bu bayrağı hardan əldə etməsi və onu filmdə CƏSARƏTLƏ göstərməsi böyük bir addım idi.

Sovetin senzurası və DTX-nın fəaliyyətindən qorxmayan rejissor 1971-ci ildə ÜÇ RƏNGLİ BAYRAĞI filmdə göstərməklə bizim müstəqil dövlətimizin 1918-1920-ci illərdə olmasını bizə xatırladırdılar.

**Bir müddət məhz bayraq səhnəsinə görə film qeyri rəsmi olaraq Tv-də və kinoteatrlarda yayımlanması qadağan edilir. Bundan sonra filmin ssenari müəllifi İsa Hüseynovla rejissor Əjdər İbrahimova çox təyziqlər olunur. Nəticədə rejissor filmdən uzaqlaşaraq Aşqabada gedir. İsa Muğannanın yazdığı ssenariyə isə hədsiz müdaxilələr edilir. Hətta Məşədi Əzizbəyovun qızı da həmin ssenariyə baxır və nələrinsə çıxarılmasını istəyir. Ssenari bir rusa həvalə edilir, o da 200 səhifə yazıb gətirir, lakin məlum olur ki, yeni ssenaridə azərbaycanlılar aşağılanır. Bunu eşidən İsa Hüseynov gedir Moskvaya və ona qoyulan şərtlərlə filmi qoruyub saxlaya bilər. Moskvanın tələbi ilə də Nərimanovun Azərbaycan Cümhuriyyət rəsmləri ilə normal münasibətini göstərən kadrlar və mesenat Hacı Zeynalabdin Tağıyevin müsbət obrazı çıxarılır...**

# Azərbaycan müəllimindən çağırış

**Cəmiyyəti narahat edən və bu məmləkətin insanını, xüsusən də gəncləri uçuruma aparan bir çox şeylər haqqında yazılar yazırıq. Şair kimi, yazıçı kimi, jurnalist kimi, vətəndaş kimi.**

Təbii, hamının müəyyən qədər çevrəsi, oxuyanı var və mütləq ki kimlərinsə həyatına nə cürsə təsir qüvvəmiz var. Bəzən yazılarımızı oxuyub mənfi fikirlərindən azad olanlar, hadisələrə başqa prizmadan baxmağı öyrənənlər olur. Amma bizim təsir qüvvəmiz bir müəllimin bu cəmiyyətə bəxş edə biləcəyi şeylərlə bir tərəziyə gəlməz.

Çünki onlar yetişməkdə olan nəslin təməlinə daş qoyan sənət sahibidirlər. Bir müəllimin apardığı təbliğat, ötürdüyü fikir daha effektivdir, nəinki bir yazarın.

Cəmiyyətin üç sütunundan biri olan müəllimlik peşəsinə "müqəddəs" yanaşma bir növ də buradan doğur.



Bu mənada sosial şəbəkədə qarşıma çıxan və mənə xoş təsir edən bir paylaşımı sizinlə bölüşmək istəyirəm. Bu paylaşımı edən məhz müəllimdir. Ülviyyə Mahmudovanın çağırışı son dərəcə önəmli çağırışdır. O, üç sütundan biri kimi cəmiyyətin idarəsində rol oynayan digər sütunlara çağırış edib.

"Viktor Hüqo deyirdi: "Hər hansı dinə mənsub olmaq sizi yaxşı insan edə bilməz.Yaxşı insan olmaq vicdanla əlaqədədir. Vicdan, insanın içindəki tanrıdır"

5 il sonra kim olacağın oxuduğun kitablardan, izlədiyin filmlərdən, dinlədiyin musiqilərdən, zaman keçirdiyin insanlardan və yediyin qidalardan asılıdı.

Əziz valideynlər, hörmətli müəllimlər uşaqların zamanlarını doğru xərcləmələrinə istiqamət verin.

Zaman xərcləyərək əldə etdiyimiz hər şey sabah kim olacağımızı formalaşdırır.

Çox təəssüf ki, bu gün bilincli şəkildə millət savadsızlığa, cahilliyə sürüklənir ki, din xofu altında bizi çox rahat idarə edə bilsinlər.

Bilmirəm bunu bir mən sezirəmmi? Yoxsa hamı görür ki, bütün mövzuların içərisinə şiyə sünni ayırımçılığı qatılır. Az qala hamı moizə oxuyur, fətva verir. Həmçinin kütləvi şəkildə narkomanlar artır...

Bir bioloq kimi Azərbaycan - türk geninin məhv edilməsinə yönəlik uzun illər elmi müdaxilənin olmasına inanıram. İstənilən bir işğalçı dövlət işğal etdiyi ölkənin dinini, adət ənənələrini də dərindən öyrənərək onları yanlış yönə yönləndirirlər, kütləni asan idarə edə bilmək üçün. Əziz müəllimlər əsas iş biz müəllimlərin üzərinə düşür.

Gənclərimizi din adı altında fəaliyyət göstərən yüzlərlə cərəyanların qulu olmaqdan qoruyaq. NARKOMANİYADAN çəkindirək! Biz müəllimlər məktəbdə 45 dəqiqə fənni tədris edib, işimizi bitmiş hesab etməyək.

Şagirdlərin davranışına, hərəkətinə fikir verək. Ailə həyatlarını araşdıraq. Hər müəllim bir uşağı xilas etsə ÖLKƏMİZ xilas olacaq.

**Bunun üçün dövlətin müvafiq strukturları geniş tədbirlər görməlidir".**

**Eminquey**

Aqşin Dadaşoğlu

# Bizim soxulcanlar



*Tez-tez burada "yaltaq şairlər" kəlməsinə rast gəlirəm.*

*Əsl şairlər yaltaq olmur qardaşım.Sizin dediyiniz adamlar ədəbiyyata dəxli olmayan adamlardır ki,gəlib bizim gözəl poeziyamıza,şeiriyyətimizə soxulublar.*

*Bu soxulmalar,hər sahədə var.*

*Məsələn bu yaxınlara kimi gömrükümüzə soxulanların əksəriyyəti kənddən gələn köylülər idi.Nə gözəl soxulmuşdular.Aralarında soxulmaqla general olanlar var idi.*

*Soxulmaq belə olur e qardaşım.*

*15 il öncə kənddə kombayn qıtlığı yaranmışdı.Qonşu kənddən həmən qət-təzə kombaynla kömək gəldi.*

*İndi kombayınçı qardaş taxılı biçilməli adamlarla danışmaq,sahələrin yerini bilmək,qiymətləşmək istəyir.Amma yeddi dəyirmanda bir ovuc buğdası olmayan adamlar,3-4 taxıl əkməyən,vaxtı keçən taxılını biçdirmək istəyən bir dəstə adama imkan vermirlər ki,kombaynçı ilə danışsınlar.*

*Kombaynçıya soxulmuşdular güclə çıxarmışıq.*

*Neynək,bu adamlar hər yerdə,hər sahədə,şəhərdə,kənd də hər yerdə var..*

*Soxulanların ən qorxulusu qohum-qardaşdan olan soxulanlardı.*

*Onlar lap zəli kimi soxulurlar.Qopanda da bütöv bir yeri yara eləyirlər.*

*Soxulanların arasında mənəvi istaedalı adamlar da az deyil.Amma onların da ağılı "işdə bazlığ"dan və bir də Zəfər üçün bir güllə belə atmayıb,hər cür orden və medalları almaqdan o yana keçmir..*

*Yazıq yalaq şairlər.Sizin də elə adınız çıxıb.Soxulmadığınız yer qalmayıb amma ortada heç nə yoxdu.*

*Siz qorxulu deyilsiz.Qorxulusu dəqiq işlərə soxulanlardı.Akademiyaya,hüquq,mexanika və energetika sahələrinə soxulanlardı.Özü də harada daha çox soxulan var,o yer o dəqiqə hiss olunur.Məsələn mən kəndli köydə oturub hiss edirəm ki,Azenerji və Azərişıqa soxulan çoxdu.*

*Ax soxulcanlar.*

*Bizim soxulcanlar.*

## Postament Babəki gözləyir



**Düz iki ilə yaxındır ki, Babək prospektinin sonunda onun postamenti qoyulub. Ətrafında da gül-çiçək, yaşıllıq salınıb. Hər gün də həmin yaşıllıqlara xidmət göstərilir, su verilir və qulluq edilir. Amma illər ötsə də, Babəkin heykəlini gətirib o postamentin üstünə qoymurlar. Biri deyir iş yarımçıqdır, biri deyir yaxın vaxtlarda heykəl yerinə qoyulacaq, biri də deyir ki, heç bu məsələ tezliklə həll olunan deyil. Bax, biz tarixi qəhrəmanlarımıza belə soyuq münasibət bəsləyirik.**

Əgər Xətainin, Koroğlunun heykəli kimi Babəkin də heykəli qoyulacaqsa, heç qoyulmasa yaxşıdır. Çünki Xətai kimi böyük şəxsiyyətə çox balaca bir abidə qoyulub. Koroğlunun Qıratı isə, Qıratdan çox Yüsür əminin eşşəyinə oxşayır. Adam qalır mat-məəttəl. Bilmir ki, bunu yaradan heykəltəraş Xətaini, Koroğlunu niyə bu günə qoyub, el-obanın gözündən salır?! Nə isə...

**Emil FAİQOĞLU**

Aqil ABBAS

# LAÇINLI ŞƏMİSTANLA ATÜSTÜ SÖHBƏT

İsmayıllıdan Qəbələ yoluna çıxanda yolun sağında gördüm ki, gözəl kətə bişirirlər. Maşını saxladım, kətə bişirən xanımlardan xahiş etdim ki, beş dənə də mənə bişirsinlər aparacam.

50-55 yaşlarında bir kişi obyektin qarşısındakı stolda tək oturub siqaret çəkə-çəkə çay içirdi.

Məni görcək ayağa qalxdı:

- Aqil məllim, savaanız xeyir! Gəlin bir istəkan çay için.

- Sağ olun, təşəkkür edirəm.

- Kətə bişənə qədər ayağ üstə gözləmiyəsiniz ha? Gəl, əmoğlu, gəl bir çay içək.

Şirin Qarabağ ləhcəsində danışırdı. Qolumdan tutub oturtdu. Çay süzdü.

- Bu obyekt məəmdi, saa qurbandı. İsmayıllıda rahat ev-eşik də tikdirmişəm. Başıyın dəstəsiynən qonağım ol.




- Allah qoysa, ayrı vaxt. İndi yol üstəyəm, Bakıya qayıdıram.

- Mən də Laçındanam. Həm Minkənddə, həm də Laçının özündə evmiz-eşiymiz vardı. Rəşad Məcidnən də qohumluğum çatır. Mirhacib ağa bizim nəslin də ağsaqqalıydı. Anam Ağcabədidəndi. Bir xalam da Ağdamda ərdədi.

- Rəşad mənim qardaşımdı.

- Sizi yaxşı tanıyram. Rəşada dayılıq etmisiz, o da sizi çox istiyir. Çayını iç, soyutma. İstiyirsən mirəbbə gətirsinlər.

- Çayı qəndlə içməyi xoşlayıram.

Başladı Laçından danışmağa. Elə həvəslə danışırdı, mən də həvəslə qulaq asırdım. Sonra da mən Laçın xatirələrimi danışdım. Onu ayrıca yazaram oxuyarsız.

Bir siqaret də yandırdı, sonra dedi:

- Obyekti də, İsmayıllıdakı evmi də satdığa qoymuşam.

- Niyə?

- Satıf çıxıf gedəjəm Laçına. Həm evmizi tikəjəm, həm də bu obyekti Laçında açajam. Getmişdim başçımız Aqil məllimin yanına, yaxşı oğlandı. Xahiş elədim ki, icazə alsın çıxıf gedim Laçına. Dedi mənnik döyül hələ. İndi istiyirəm gedəm Ağdama, Prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi Emin məllimin yanına. Mənə kömək eləsin, arvad-uşağımı da götürüf köçüm Laçına. Evimi tikənəcən çadırda da yaşıyaram.

- Tək?

- Tək niyə? Bütün laçınlılar qayıtmax istiyir, mən də onnardan biri. Obyektimi də açajam.

- Laçında həyatın canlanmasına müəyyən illər lazımdı, obyekt işləməyəcək axı.

- Heç işdəməsin. Qoyun-quzu saxlıyıf ailəmi dolandıra bilmeyjəm? Guya dədə-babalarımız bizləri obyektlə saxlayıflar kı?

- Obyektini neçəyə satırsan?

- Sənə havayı, əmoğlu döyülsən?

- Bəs, başqasına?

- Nə verər-verər də, Allah bərəkət versin.

Kətələr hazır oldu. Durmaq istəyirəm, əl çəkmir:

- Mən ölüm, getmə. Otur bir az dərddəşək.

- Dostlar maşında gözləyir. Allah qoysa ayrı vaxt keçəndə yenə görüşərik.

- Hə, burda saxlıyarsan, uşaxlara deyərsən maa zəng eliyəllər gələrəm.

- Mənə bir sözün?

- Sözüm odur ki, mənim, bütün laçınlıların təşəkkürünü Cənab Prezident İlham Əliyevə çatdırasan. Biz laçınlılar kişi adamları sevirik. O da kişi oğlu kişidi, dediyini elədi. Qarabağı azad elədi və bizim də qaçqınlıq həyatımıza son qoydu.

Nə qədər elədim kətənin pulunu da götürmədilər.

- Məllim, pulunu qoy civinə. Kətə nədi, bu obyekt saa qurbandı.

Sonra da obyektin yanındakı quzuları göstərib dedi:

- Bəyənib oturmadız, yoxsa quzulardan birini ayağıyın altında kəsif sizə gözəl bir Laçın kabavı verəjəydim.

Öpüşüb ayrıldıq. Arxadan dedi:

- Rəşada salam söyləməyi unutma.

- Baş üstə.

# İnşallah, gedib İrəvandan uçarıq

*Zəngəzur dəhlizinin açılmağına az qalıb. Deməli, oturursan maşına, gedirsən Ağdama, Şuşa bulağın suyunda əl-üzünü yuyursan, doyunca içirsən, sonra da bir qismət çörək kəsirsən, ordan Əsgəranda babat piyvələyirsən, Xocalıda yolun qırağındakı dükandan ürəyin istəyən bir siqareti alırsan, sonra da üz tutursan Şuşaya. Şuşada avtobus vağzalında Qəmər xalanın köhnə yeməkxanasında sarımsaq qatıqla bir Şuşa xəngəli yeyirsən. İstəsən bir 100-150 vurursan, sonra da üzü Güləbətinə, Laçına. Turşsuya çatanda dünyanın ən dadlı turşsuyundan içirsən, arağı da öldürür. Sonra da yenə üzü Laçına. Laçın Turşsuyunda da bir çay içib istirahət edirsən, sonra da üzü Gorusa, 20 km yoldu. Gorusda yaxşı çay balığı verirlər, onu yeməsən ermənilər inciyər. Onların da inciyən yeri yaxındı axı. Ordan da İrəvana. İrəvanda nəbadə allanıb, erməni konyakı içəsən. Bütün rus filmlərində reklam elədiklərinə baxma, taxtabiti iyi verir. Bizim Göyçay konyakının yanında orşala suyudu.*

*Ordan da 50 dollar verib təyyarə bileti alırsan, uçursan Antaliyaya, ya da istəyirsən İstanbula. İstəsən o qiymətə Madridə də uça bilərsən, Realın oyununa baxmağa.*

*Burdan da İrəvana uzaq başı 50-60 manat benzin pulu edir. Həm gəzə-gəzə, ləzzət ala-ala gedirsən, xərc də çəkmirsən. Aldığın havaya, gördüyün mənzərəyə görə də xərc çəkmirsən.*

*İrəvanda təyyarəyə minəndə AZAL-ın prezidenti Cahangir Əsgərova dəsmal sallamağı da unutmayın.*

*Mən bir vaxtlar Bakıdan Ağdama necə getmək olar, Şuşaya necə getmək olar barədə yazmışdım, təxminən 15-20 il əvvəl, yadımdan çıxıb. O vaxt həmin yazılara görə mənə rişxənd eləyənlər olmuşdu ki, yəni, yalan danışırsan. Amma nağıl danışmırdım. Həmən günü görürdüm və həmən günü yaşayırdım. Və indi həmin günü gördüm və yaşadım.*

*İndi dediyim yolla İrəvana da gedəcəyik, ordan ucuz təyyarə bileti ilə harasa uçmaq üçün yox, yəqin ki, Zəngəzur dəhlizi açılanacan Cahangir Əsgərov da istefaya gedər, bilet ucuzlaşar.*

*İnşallah!*



Emin Piri

# Həzrəti İsalıq və erməninin çiyələkli çayı

*Elə bir dövrə çatmışıq ki, Həzrəti İsa nümunəsi zəiflik sayılır.*

*Bir üzünə sillə vurulanda o biri üzünü çevirmək nadanlıq, qorxaqlıq kimi qələmə verilir.*

*Müasir dövr insanlığın elə bir halına şahidlik edir ki, ikinci silləyə boyun əymək sənin bəşəri insanlığından deyil, xarakter zəifliyinin nümunəsidir.*

*Bir yaxşılığa ikiqat yaxşılıq, bir pisliyə ikiqat pislik həyatın qayəsidir.*

*Ya da ən yaxşı halda İsa kimi bir üzünə sillə vurulanda o bir üzünü çevirməkdənsə, İslam peyğəmbərinin qana qan, dişə diş tezisi müasir dövrə daha uyğundur.*

*Birinci sillədən sonra ikinci silləni gözləmək elə haqqı nahaqqa qurban vermək, elə şeytana çevrilməkdir.*

*Məşhur filmdə deyildiyi kimi insanlar sənə hörmət etməlidir. Bu iki halda olur: ya səni sevərək hörmət edirlər, ya da qorxaraq. Sevərək hörmət etmirlərsə, gücündən istifadə etməlisən. Güc anlayışı isə müxtəlif sahələrdə müxtəlif yönlərə qədər uzana bilər.*

*Yaxud hörmətsiz qalmaqdansa, tarana getmək daha yaxşıdır. Nə olar, olar...*

*Bir praktik nümunə bunların həyatımda görmüşəm:*

*Oktyabrın ilk günləridir, Füzuli-Xocavənd istiqaməyindəyik. Ardıcıl minamyot, top mərmiləri düşür. Baş qaldırmaq qeyri-mümkündür. Bakıdan çıxmamış belə bir eyforiya yaranmışdı ki, erməni bizi görən kimi qaçır. Əlbəttə, təbliğat, ruh yüksəkliyi üçün bu cür də lazım idi.*

*Bəziləri üçün bununla qarşılaşmaq, mərmilərə qonaq olmaq şok effekti yaratdı. Rabitəylə əlaqəyə çıxdılar ki, bəs, bizi vururlar.*

*Batalyon komandiri polkovnik-leytenant da qayıtdı ki; onlar vurur, siz də vurun. Erməni mərmi yerinə sizə çiyələkli çay göndərməliydi?!*

*İndi əzizlərim, bu dünyadasınızsa sizə hörmət etməlidirlər. Ya sevgiylə, ya da qorxaraq. Güc hesabına. Başqa yolu yoxdur.*

*Bu dövlətlər arasında da belədir, fərdlər arasında da.*

*Birinci sillədən sonra o biri üzünüzü çevirsəniz sizi çiyələkli çaya qonaq etməyəcəklər, sizi qorxaq, nadan, zəif sayıb ikinci, üçüncü...sillələri sayacaqlar.*

# Fədakar və təvazökar alimin yeni monoqrafiyası

**Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan xanlıqları və Qarabağ tarixi" şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru Nazim Rəhbər oğlu Məmmədov Vətən tarix elmində özünün bənzərsiz dərin izini salmış, hədsiz vətənpərvərliyi, təvazökarlığı, məhsuldarlığı, fədakarlığı ilə fərqlənən araşdırıcılardan biridir. Onu ötmüş əsrin 90-cı illərinin ikinci yarısından daha yaxından tanımağa başlamışam. N.R.Məmmədovu tanımağa başladığım məqamdan "Azərbaycanın Qarabağ bölgəsi tarixinin yorulmaz araşdırıcısı" kimi dəyərləndirmişəm. Zənnimin məni aldatmadığını N.R.Məmmədovun son 20-25 il ərzində yazıb nəşr etdirdiyi 200-dən artıq əsəri də təsdiq edir.**

N.R.Məmmədovla hər dəfə görüşəndə xalqımızın "Qarabağsız bir gün də yaşamadım" fikri, deyimi yadıma düşür. Ötmüş əsrin sonlarında itirilmiş Qarabağ bölgəsinin 2020-ci ilin sonlarına doğru erməni işğalından azad olunması xalqımızın təqribən 30 il çəkmiş həsrət hissini vüsal duyğusu, sevinci ilə əvəz etdi. "Ələmdən nəşəyə" (mərhum şairimiz S.Rüstəmin ifadəsidir - X.Q.) aparan bu keçid məqamında N.R.Məmmədov yeni bir monoqrafiyasını da yazdı və nəşr etdirdi: "İkinci "Qarabağ müharibəsi: Zəfər salnaməsi". Bakı: "Optimist" MMC Çap Mərkəzi", 2022, 464 s. 2022-ci ilin əvvəllərində əziz dostumuz, dəyərli, vətənpərvər tarixçimiz Nazim Məmmədov AR Prezidenti İ.H.Əliyevlə eyni vaxtda artıq azad olunmuş, yenidən bərpa edilən Şuşa şəhərini ziyarət etdi və bu ziyarət öz əksini fotoşəkillərdə də tapdı.

N.R.Məmmədovun "İkinci Qarabağ müharibəsi: Zəfər salnaməsi" adlanan, 24 fəsildən ibarət olan monoqrafiyasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı Azərbaycan ordusunun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyə Cümhuriyyətinin böyük mənəvi dəstəyi ilə 44 gün davam etmiş II Qarabağ müharibəsində qazanılmış tarixi qələbədən bəhs olunur, Qarabağın işğaldan azad olunmasının ölkə, region və dünya üçün əhəmiyyəti qeyd edilir, Azərbaycan oğullarının keçdikləri şanlı döyüş yolu izlənir, 10 noyabr 2020-ci il tarixində imzalanmış "Şuşa Bəyannaməsinin" əhəmiyyəti qeyd edilir, "Xarı bülbül" festivalının təsnifatı təqdim olunur, müharibədən sonrakı dövrdə Azərbaycan Respublikasının Qarabaş bölgəsində başlanmış ilkin bərpa, tikinti, quruculuq tədbirləri işıqlandırılır.

Monoqrafiyanın "Giriş" qismində (s. 11-24) müəllif özünün "mötəbər tarixi mənbələr birmənalı şəkildə Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, ermənilərin bölgəyə XIX əsrin əvvəllərində məqsədli şəkildə köçürülməsi faktını sübuta yetirir" (s. 11) müddəasını danılmaz tarixi dəlillərlə əsaslandırır. Əsərin I fəslində (s. 25-36) İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinin səbəbləri nəzərə çatdırılır və əhəmiyyəti qeyd olunur. Monoqrafiyanın II fəslində (s.




37-50) strateji əhəmiyyətli Suqovuşanın azad olunmasından, III fəslində (s. 51-64) Murov zirvəsindən gəlmiş zəfər müjdəsindən, IV fəslində (s. 65-78) II Qarabağ müharibəsində Cəbrayıl rayonunun rolundan, V fəslində (s. 79-91) Füzuli rayonunda tarixi ədalətin bərpa olunmasından, VI fəslində (s. 92-103) "Tərtərdə Ermənistanın terror ölkəsi olduğunun təsdiq olunmasından", VII fəslində (s. 104-119) Xocavənddə əldə olunmuş mükəmməl qələbədən və amansız erməni vandalizmi faktlarından, VIII fəslində (s. 120-130) Zəngilanda qazanılmış tarixi qələbədən və kütləvi erməni terroru faklarından bəhs edilir.

### *Monoqrafiyanın IX fəslində*

***(s. 131-141) Azərbaycan Respublikasının Gəncə və Bərdə şəhərlərinə Ermənistanın terrorçu hücumlarından, X fəslində (s. 142-153) Qubadlının erməni işğalından azad olunmasından və erməni vandalizmi faktlarından, XI fəslində (s. 154-168) azad olunmuş Şuşa şəhərindən , XII fəslində (s. 169-175) 10 noyabr 2020-ci il Bəyannaməsindən və bu tarixi sənədin mahiyyətindən, XIII fəslində (s. 176-189) Ağdamın işğaldan azad olunmasından və ermənilərin bu bölgə ərazisində diqqəti cəlb edən dəhşətli vandalizm faktlarından, XIV fəslində (s. 190-207) Zəngəzurun altun tacı olan Laçının erməni işğalından azad olunmasından və burada diqqəti cəlb edən vandalizm faktlarından, XV fəslində (s. 208-217) Azərbaycanın "İsveçrəsinin" - Kəlbəcərin erməni işğalından azad olunmasından, XVI fəslində (s. 2018-237) böyük zəfərin cəsur qəhrəmanlarından, XVII fəslində (s. 238-260) Zəngəzur dəhlizindən və onun tarixi əhəmiyyətindən, XVIII fəslində (s. 261-272) "Şuşa Bəyanaməsi"nin tarixi əhəmiyyətindən, XIX fəslində (s. 273-279) "Azərbaycanın mədəniyyət paytaxtı" elan olunmuş Şuşa şəhərində keçirilmiş "Xarı bülbül" festivalının əhəmiyyətindən bəhs edilir.***

N.R.Məmmədovun bu əsərinin "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsidir" adlanan XX fəslində (s. 280-300) H.Ə.Əliyevin Şuşaya qəlbən bağlılığını təsdiq edən fikri də nəzərə çatdırılmışdır: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir" (s. 280). Əsərin Füzuli hava limanına həsr olunmuş XXI fəslində (s. 301-314), "Möhtəşəm Zəfərin davamı: Qarabağın bərpası" sərlövhəsi daşıyan XXII fəslində (s. 315-371) II Qarabağ müharibəsindən sonra bölgədə başlanmış ilkin bərpa, quruculuq işlərindən bəhs olunur.

N.R.Məmmədovun monoqrafiyasının XXIII fəsli (s. 372-381) Azərbaycan Respublikası və İran İslam Cümhuruyyəti arasında imzalanmış Kommunikasiya əlaqəsi haqqında Anlaşma Memorandumunun təhlilinə həsr edilmişdir. Əsərin XXIV fəslində (s. 382-409) tərtib olunmuş cədvəllər əsasında Azərbaycan Respublikasının apardığı 44 günlük II Qarabağ müharibəsinin qısa xronologiyası təqdim edilir. Rus və ingilis dillərində təqdim edilmiş xülasələr (s. 410-437) bu monoqrafiya ilə bağlı olan aydın təsəvvürün yaranmasına yardım edir. Fikrimcə, N.R.Məmmədovun bu monoqrafiyası II Qarabağ müharibəsinin tarixi ilə bağlı olan araşdırmaların intensivləşməsinə mühüm təkan verəcək.

**"Hörmətli qardaşlarıma sağlam ömür arzusu" ilə yaşayan, elmi araşdırmalardan usanmayan, "Vətən qarşısında daim borclu olduğunu" söyləyən tarixçi dostum Nazim bəyə hər şeydən öncə cansağlığı, uzun ömür, elmi yaradıcılıq sahəsində isə yeni uğurlar arzulayıram!**

**Xeyirbəy Qasımov**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, dosent**

# İnanclar nəyə xidmət edir?

**Həmişə mənə maraqlı olub, biz nəyə inanırıq? Ümumiyyətlə biz kimə inanırıq? Lap qədim zamanlardan bizə "miras" qalan bu inanclardan qurtulmağın yolunu tapa bilmirik. İnsanlardakı "qara pişik" xofu əsrlərdir bitmir. Bu haqda düşünəndə beynimdə belə bir sual formalaşır; insanlarla qarşılaşmasın deyə bütün qara pişikləri təbiətdən təcridmi edək? Yəni dorğrudanmı biz öz planlarımızı inanclar üzərində qururuq? Doğrudanmı onların bizə təsiri var? Əslində, cəmiyyətin bir təbəqə ziyalısı, hadisələri və əşyaları mifləşdirməyə qarşıdır. Ancaq bütövlükə inanclardan və miflərdən necə qurtulaq? Bir insanın öz ömrünü inanclar üzərində formalaşdırmağı öz keçmişinə bağlı olmağından irəli gəlir, yoxsa cahilliyindən ?**

İnanclar içərisində ən çox diqqətimi çəkən isə " qara piçik" mövzusudur. Səhər tezdən qonşu uşağını məktəbə aparırdı. Birdən qonşu möhkəm qışqırdı: Kənan, tez köynəyindəki düymədən yapış, qarşından qara pişik keçir". Uşaq da heç nəyi anlamır, sakitcə baxır. Yaxınlaşıb nə baş verdiyini soruşanda, qonşu Rübabə xala həyəcanlı şəkildə qarşılarından qara pişik keçdiyini dedi. Buna görə bu gün işlərinin düz gətirməyəcəyini deyib, ah-vay edə- edə yollarına davam edirdilər. Yol boyu Kənanın sualları dayanmırdı. Ana qara pişikdən qorxdun? Niyə onu görəndə qışqırdın? İndi o pişik nə vaxt qarşıma çıxsa ona daş atım? Ana uşağın bu suallarına bütün hikkəsi ilə cavab verirdi. Sanki həyatda bütün yaşadığı uğursuzluqların səbəbi o "qara pişik" idi. Əminəm ki, Kənan da böyüyəndə öz övladını bu inanclara "sığınaraq" hikkəsi ilə qoruyacaq. Əslində çox ağrılı məqam idi. Bir ana öz övladına mərhəmət aşılamaq əvəzinə, "qov, vur" kimi kobudluğu nümayiş etdirən hərəkətləri "tövsiyyə edirdi". Bu azmış kimi məktəbə çatar-çatmaz "bax, sağ ayağınla içəri keç ha" deyib, Kənanla sağollaşan ana, başına gələn bu "hadisəni" telefonda öz qohumlarına danışırdı.




Hələ kəndimizdə Qəmər nənə yas yerlərindən gedən mollaların arxasınca elə daş atırdı ki, sanki o daş bu evin sakinlərini ölümdən qoruyacaq. Bu hadisəni görən kimi analdım ki, Qəmər nənə "Qurani-Kərim"də "Ali-İmran surəsi"in 185-ci ayəsindən (Hər canlı ölümü dadacaqdır) xəbərsizdir.

Hə zaman bu sual ətrafında düşünmüşəm: inanclar əqidə məsələsidir, yoxsa təhsil? Əgər təhsil məsələsidirsə niyə bu günümüzdə də inanclar aktualdır? Axı təhsil kifayət qədər inkişaf edib. Doğrudanmı bizim cəmiyyətdə müəyyən bir nəsil hələ sovetlər dönəminin "qanunları" ilə yaşayır. Müasir ölkə olaraq bizim də avropa və digər ölkələrə çıxışımız var. Ancaq bitməyən inanclar qeybət artırmaqdan və bəzən də vəhşi hissləri aşılmaqdan başqa heç bir işə xidmət etmir. Hələ sizə hasarın başında dayanıb "qarr-qarr" eləməyə peşman olan qarğadan danışmıram. Həmin an evdən sürətlə həyətə qaçıb, bir parça daşı o qarğanın üstünə atan uşağın gözlərindəki vəhşiliyi görməmək mümkünsüzdür.

Dəsmalın ayrılıq rəmzi olduğunu bilmirdim. Bir neçə dəfə "kiməsə dəsmal vermə, ayrılıq gətirir" cümləsi ilə rastlaşmışam. İlk cavabım belə olub: "Ayrılığı dəsmal yox, insanların soyuq münasibəti, laqeydliyi gətirir". Ancaq bu cavabıma gülüb keçənlər də az olmayıb. İnancları müqəddəsləşdirənlər məni cavabıma görə qınayıblar.

Su saflıqdır, aydınlıqdır deyirlər . Uzaq səfərə gedən bir adamın arxasınca su atmaq da bizim müqəddəs saydığımız inanclardandır. Ancaq inanca çevirdiyimiz bu adətimizin hələ də hansı məna kəsb etməsini aydınlaşdıra bilməmişəm.

Millətin sınağından çıxmış inanclardan biri də

**İnancları hər hansı bir məhzəb və ya dinlə əlaqələndirməyi heç vaxt doğru addım hesab etməmişəm. Düşünürəm ki, insanlar doğru maariflənməlidir. Bu zaman inancların nə qədər bəsit bir məntiqə sığındığını anlayarlar.**

**Əntiqə Kərimzadə**

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Hər şeyə bir qulp qoymayaq



*...Biz həmişə bir iş görəndə onun ədalətli, həqiqi və obyektiv tərəfini unudub, bizə sərf eləyən məqamlarını daha çox düşünürük. Yəni bir var ki, hər hansı bir nöqsanı, qüsuru düzəltmək üçün şərait yaradasan, kömək göstərəsən və bir də var o şəraitdən sui-istifadə edib şəxsi maraqlarını üstün tutasan. Bax, belə anda istər-istəməz haqq-ədalət ayaqlar altında qalır, cəmiyyət haqsızlığı görür və birmənalı olaraq həmin adamlardan narazı qalırlar. Amma gəlin insaf naminə deyək ki, haqqın və ədalətin yolunu tutan, insanlara kömək göstərən və nöqsanları aradan qaldırmaqda yardım edən qurumlar da var.*

*Nazirlər Kabinetinin məlum bir qərarı var. Həmin qərara əsasən qaz cihazlarında, hamam otağında və mətbəxdə bütün qazötürücü xətlər təhlükəsiz və möhkəm olmalıdı. Yəni həmin qurğulardan məzillərə qaz axını olmamalı və eyni zamanda digər qüsurlar baş verməməlidir. Məhz belə anlar olanda istər-istəməz həm sosial obyektlərdə, həm də yaşayış binalarında qazdan yaranan partlayışların baş verməsi qaçılmaz olur. Təsadüfi deyil ki, bir çox vəzifəli şəxslərin və mənzil sahiblərinin səhlənkarlığı üzündən belə faciələr də baş verir.*

*Artıq bu təhlükəsizliklə bağlı mövcud qanun və qərar qüvvəyə minib və həmin qərarın da icrası "Azəriqaz"a həvalə edilib. Heç kimə sirr deyil ki, neçə illərdir yaşayış binlarında bu yoxlamalar aparılmayıb və təbii ki, həm sosial obyektlərdə, həm də insanların yaşadığı həyətyani evlərdə və yüksək mərtəbəli mənzillərdə nöqsanlar mövcuddur. Belə ki, həmin nöqsanlar tüstü-bacaların yaxşı çəkməməsi, hamam otağında qızdırıcı cihazların standarta uyğun olmaması və qaz xətlərinin qüsurlu olması ilə bağlıdır. Təbii ki, bu mövcud nöqsanlar uzun müddət davam edərsə, hardasa böyük partlayışların yaranmasına gətirib çıxara bilər.*

*Noyabr ayına qədər Bakı şəhərində və digər yerlərdəki çoxmərtəbəli binalarda və həyətyani yaşayış sahələrində "Azəriqaz" əməkdaşları tərəfindən bu məsələlər öz həllini tapmalıdır. Yəni mövcud nöqsanlar aşkar edilməli, qüsurlar barəsində mənzil sahiblərinə məlumat verilməli və həmin nöqsanlar bir ay müddətində aradan qaldırılması tövsiyə olunmalıdı. Biz bunların hamısı ilə razıyıq. Amma onunla razı deyilik ki, iki ay müddətində Bakıdakı minlərlə yaşayış mənzillərində məlum qurum bu yoxlamaları necə başa çatdıracaq. Üstəlik də bəzi mütəxəssislər mövcud nöqsanlardan istifadə edərək mənzil sahiblərini get-gələ salacaq, incidəcək və hətta nəsə onlardan təmənna umacaqdır.*

*Çünki heç kimə sirr deyil ki, bütün qurumlarda öz işinin öhdəsindən gələ bilməyən və mövcud vəziyyətdən sui-istifadə edən kadrlar da var. Belə adamlar insanların çətin durumundan və bir çox halda savadsızlığından istifadə edərək onları incidir, get-gələ salır, kömək etmək, maarifləndirmək əvəzinə qanunun sərt üzünü tətbiq edərək yüksək məbləğdə cərimələr yazırlar. İndiki iqtisadi böhran və sıxıntılar içində hər hansı bir mənzilin sahibinə texniki nasazlığa görə yüksək məbləğdə cərimə yazmaq özü çox böyük ədalətsizlikdir.*

*Oğul odur ki, kasıb, imkansız və aztəminatlı ailələri başa düşsün, onları maarifləndirsin, kömək eləsin və çətin vəziyyətdən çıxarmağı bacarsın. Əgər bir təqaüdçü hamamda, yaxud mətbəxdə qaz qurğusunda yaranmış texniki nasazlığa görə cərimə edilirsə, bu, onun çörəyinin kəsilməsi, çıxılmaz vəziyyətə düşməsi və ən nəhayət böyük narazılığa gətirib çıxarılması deməkdir. Ona görə də məlum qurumun mütəxəssisləri həmin prosesləri yerinə yetirərkən insanlara və abonentlərə çox həssaslıqla yanaşmalı, onların əsəbi ilə oynamamalı və bu mərhələdə ədalətli mövqe tutmalıdılar.*

*"Azəriqaz" sistemində vətənini və millətini sevən ədalətli mütəxəssislər də kifayət qədərdir. Bəli, bizim bütün hallarda savadlı, obyektiv və vicdanlı mütəxəssislərə ehtiyacımız var və onlar da bu xalqın övladları, oğullarıdılar. İstənilən qurum da öz yerində olmayan və obyektiv mövqe tutmayan mütəxəssislər var. Amma gəlin onunla razılaşaq ki, vicdanlı və savadlı mütəxəssislər qat-qat onlardan çoxdur və nə yaxşı ki, belə insanlar az deyil.*

*Bilmirik, həmin proses nə vaxt başlayacaq, mənzillərdə qaz xətlərinin yoxlanılması nə vaxt icra ediləcək? Amma görünən odur ki, yaxın zamanlarda bu proseslərə start veriləcək. Ümumiyyətlə, əvvəllər də mənzillərdəki qaz xəttinin və cihazların təhlükəsizliyi ilə bağlı yoxlamalar olub. Həmin yoxlamalar zamanı da abonentlərə xəbərdarlıq edilib, çox az miqdarda mənzil sahibi inzibati qaydada cərimə olunub. Təbii ki, qanun hər şeydən üstündür. Amma qanunu icra edən də ondan üstün olmamalıdır.*

*İkincisi də, bu tədbirlərlə bağlı əhali arasında geniş maarifləndirmə işi aparılmalıdı. Çox təəssüf ki, bu işlər yetərincə aparılmayıb. Başqa sözlə desək, həmin tədbirlər keçirilərkən mütləq Mənzil İstismar Sahələrinin nümayəndələri, Mənzil Tikinti Kooperativin sədrləri də iştirak eləməlidilər. Çünki bu gün mənzillərdə oğurluq edən dəstələr və adamlar bu tədbirlərdən öz çirkin məqsədləri üçün yararlana bilərlər. Yəni ən azından gəlib deyə bilərlər ki, biz filan idarədən gəlmişik, mənzildə qaz xəttini yoxlayırıq. Ev sahibi də qapını açar və oğrular içəri girər. Sonra nələr baş verər, onu bir Allah bilər.*

*Sözümüzün canı ondan ibarətdir ki, hər hansı bir işi görəndə ona qulp qoymaq lazım deyil. Və mövcud vəziyyətdən də sui-istifadə edilməməlidir. Yəni iş elə görülməlidir ki, bundan nə ev sahibləri, nə də digər insanlar əsəbləşməməli, həyata keçirilən tədbirlərin onların xeyrinə olması öz təsdiqi tapmalıdır. Başqa sözlə demiş olsaq, hər bir mənzil sahibi, hər bir abonent hiss etməlidir ki, bu tədbir onların həyatını təhlükədən xilas etməyə yönəldilib. Bax, belə olanda və kimsə bir işə qulp qoymur, nə işi icra edən, nə də mənzil sahibləri əsəbləşmirlər. Deməli, hər şeyi həyata keçirmək çox sadədir. Bu sadəlik də ondan ibarətdir ki, qanunun aliliyi təmin olunur, bundan hər iki tərəf razı qalır.*

## *"Artsax"ın müstəqilliyinin 31-ci ildönümü və ermənilərə böyük "travma": Niyə Ermənistan?*

**Xəbər verdiyimiz kimi, Qarabağdan Ermənistana gedərkən Qarabağdakı erməni separatçılarının keçmiş komandanı Mikael Arzumanyan saxlanılıb. Nəşrin yazdığına görə, Ermənistan İstintaq Komitəsinin Hərbi İdarəsinin müstəntiqlərinin göstərişi ilə tutularaq nəzarətə götürülüb.**

Adalet.az xəbər verir ki, hazırda sosial şəbəkələrin erməni seqmentində qarabağlı ermənilər "ağır zərbədən" stress keçirdiklərini iddia edirlər.

Erməniləri ən çox dərdləndirən Mikael Arzumanyan oyuncaq "dqr" "dövləti"nin deyil, Ermənistan İstintaq Komitəsinin Hərbi İdarəsinin müstəntiqlərinin göstərişi ilə həbs olunmasıdır. İstifadəçilər bunu "bir ölkənin başqa bir ölkənin daxili işinə qarışması kimi" xarakterizə edərək Arzumanyanın həbsinə etiazlarını bildiriblər.

İstifadəçiləri daha çox isə sabah -2 sentyabrda qondarma Artsaxın müstəqilliyinin 31-ci ildönümü ərəfəsində general-leytenantın məhz Paşinyan hakimiyyəti tərəfindən həbs edilməsini, əslində Artsaxın müstəqil olmadığına işarə kimi düşünürlər. Eks deputat Naira Zöhrabyan kimi, onlar da düşünürlər ki, tezliklə separatçı rəhbər Arayik Arutyunan da Ermənistan İstintaq Komitəsinin Hərbi İdarəsinin müstəntiqlərinin göstərişi ilə tutulacaq.

***P.S.** İlahi Ədalətin təcəlli etdiyi dönəmdəyik!*

**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU

# Yarpaq tökümündən fraqmentlər

## Abbas Abdullanın "Üzü dan yerinə" kitabından

Mənə görə həyatda ən ağrılı an əkibbecərdiyin ağacın quruması, tikdiyin binanın uçması, sevdiyin insanın itirilməsi...Bir sözlə yarpaq tökümüdü. Bunun qarşısını heç nə ilə almaq mümkün deyil. Doğrudur, biz insan olaraq özümüzözümüzə təsəlli üçün deyirik ki, verən də Allahdı, alan da, yaradan da odur, öldürən də! Bu, doğrudur. Və bu doğru ilə biz barışırıq. Barışmaya da bilmərik. Çünki başqa bir yol yoxdur. Amma itirdiyimizin kimliyi, nə, nəçi olması vaxtında bilinməyəndə ağrı daha sarsıdıcı olur, daha üzücü olur. Doğru olanlardan biri də budur ki, bununla bağlı xalq şairi Cabir Novruz gözəl bir şeir də yazıb. Və deyib ki, "Sağlığında qiymət verin insanlara!". Çox təəssüf ki, biz bu şeiri də bilirik, hətta əzbər söyləyirik. Lakin əməlimizdə, işimizdə, həyatımızda onu reallaşdırmırıq. Elə bil oturub gözləyirik ki, itirək...və sonra da itirdiyimiz üçün oturub göynəyək...

Yəqin ki, Azərbaycan oxucusu gözəl şairimiz, özünəməxsus koloriti olan Abbas Abdullanı xatırlayır. Onun yaradıcılığına bələddi. Mən şəxsən Abbas müəllimlə "Ulduz" jurnalında redaktor olduğu zaman və sonra Yazıçılar Birliyində işlədiyim illərdə tez-tez zəngləşmişəm, görüşmüşəm, həmsöhbət olmuşam. Buna görə də Abbas müəllimin xatiri də, xatirələri də mənim üçün çox əzizdi, unudulmazdı. Xüsusilə onun mənə müraciəti o qədər isti və doğma idi ki, sanki biz min illər idi ki, bir-birimizə bağlanmışdıq və .... Bu an elə bil hardansa bir meh əsdi deyəsən. O meh xatirə meh idi. Məni Abbas Abdullaya tərəf yönəltdi. Özümdən asılı olmadan əlimi uzadıb onun kitablarından birini götürdüm. Mən üzü Abbas Abdullaya tərəf səmtlənmişdim. Onun kitabı da "Üzü dan yerinə". Bilmirəm bu təsadüfdi, yoxsa elə o doğmalığın diktəsidi. Hər halda iksi də mənim üçün indi xatirələrin ip ucudu. O ip ucundan tutub Abbas müəllimin "Yarpaq tökümü"nü oxuyuram. Abbas Abdulla yazır ki:

*Yarpaq tökümündən yaman qorxuram,*
*əzizim,*
*sən necə?*
*Hər gün yol çəkir gözüm,*
*Yuxuma girirsən hər gecə?*
*Vəfasız yarpaqmı,*
*budaqmı,*
*yoxsa,*
*şıltaq uşaqlar kimi*
*verdiyini geri alan torpaqmı?*

Doğru demisən ,Abbas müəllim! Mən də elə yaşımın bu çağında ruhumun nazilən, qəlbimin üzülən məqamında daha çox və daha tez-tez düşünürəm bu barədə. İtirdiklərim ömrümdən ömür aparır, günümdən gün. Elə bil ki, bütövlüyüm yavaş-yavaş əriyir, ilim aya, ayım günə tərəf əyilir. Və mən bu məqamlarda ən çox ürəyimdə, ruhumda sevgimi düşünürəm. Onun göy üzünə, Tanrı dərgahına doğru yaxınlaşdığını, məndən sonra orda qərar tutacağını indidən hiss edirəm. Və bilirəm ki, nə olur-olsun, Allahım öz verdiyini ortalıqda qoymayacaq. Onu öz himayəsinə alacaqdı. Çünki:

*Ovcuma qızılı xəzəl yığıram,*
*Bu payız özünü çırpır üstümə...*
*Yaydan təngnəfəs - yorğun çıxıram -*
*Bu payız salıbdı cığır üstümə...*

Həqiqətən ömrün payızı öz izini, öz sözünü izinsiz, soruşmadan həkk edir, naxışlayır həyatıma. Bu da təkcə bir ruh, ürək rahatsızlığı yox, həm də sözün bütün mənalarında yaşadığımın bütövlüyü önündə məni baş əyməyə, şükürlər etməyə həvəsləndirir, inandırır. Ona görə ki, bu payıza qədər mən bir yaz yaşamışam, bir yay keçmişəm. Onu misralara köçürmüşəm, ömrümün gününə, çiçəyinə bələmişəm. Bilə-bilə ki, yaydan sonra payız gəlir. Bunu sən də pıçıldayırsan, deyirsən mənə. Özü də o qədər ahəstə və incə bir söz seçimi ilə deyirsən ki, inanmamaq mümkün deyil. Və mən də sənə inananlardan biri kimi qəbul edirəm çəkdiyin mənzərəni də, dinləyirəm dediyin sözləri də:

*Burda yarpaq tökümü yaxınlaşır,*
*əzizim,*
*sizdə necə?*
*Bu gecə gizlicə bizə gəlmişdin.*
*Səni görmədi heç kəs,*
*sən hamını gördün,*
*xoşun gəldi körpələrdən.*
*Doyunca sənə baxmaq üçün*
*iki göz işıq oğurlamışdım səhərdən.*
*Hələ də səni görmək acıyam,*
*Hələ də...*

Görün, daxili tələbat, lap açıq desəm, sevginin gücü nə boydadı. Yaşatdığı həsrətə şair etirazı hansı hikkədədi, hansı üsyandadı! Bunu görmək üçün mütləq sevən gözlə baxmalısan. Əks halda "Şair sözüdür" deyəcəksən. Mən də bunu heç istəmərəm. Çünki şair sözü heç də həmişə yalan olmur. Və bunu yazan, deyən şair də əslində öz sevgisini dolayısı ilə sənin diqqətinə yalan donunda çatdırıb, təqdim edib. Düşünüb ki, bu vasitə ilə könlünə yol tapsın. Necə ki, mən ömrümün payızını sənə belə pıçıldayıram:

*Dağların zirvəsi dumanlanıbdı*
*Ümid də dizini bükübdü səssiz...*
*Gözümü, könlümü duman alıbdı -*
*Mən heç vaxt olmurdum belə həvəssiz...*

Yəqin ki, nədən bu ovqatda olduğumu anladınız. Bildiniz ki, ömür payızının ən böyük zərbəsi təkcə yarpaq tökümü deyil, həm də bilərəkdən, düşünülmüş şəkildə çəkilən çəpərdi, bağlanan yoldu... Gözdən uzaqda dayanmaqdı... Telefonu bağlamaqdı... Bir sözlə unutdurmağa çalışmaqdı... Amma, sən nə edirsən et, payız öz işindədi, Allahdan gələn sevgi də öz taxtında! Bunu unudulmaz Abbas Abdulla da mənə və hamıya bəyan edib. O yazıb ki:



*Min doqquz yüz filanıncı ilin*
*yarpaq tökümü yadındamı?*
*yaman kövrəldir adamı -*
*sinəsi yaralı,*
*bahardan aralı yarpaqlar*
*yaşıl günlərinin arxasınca*
*qurumuş qollar kimi uzanan budaqlar.*

Mən şeirin bu nöqtəsinə gəlib çatanda bir anlıq isinəndə yumrulanan ahı, hönkürtünü qovub saxladım. Dərindən bir nəfəs almaqla özümü o anın içərisindən çıxarmaq istədim. Amma bacarmadım.

Bunun üçün mənə tərəf sənin əlin uzanmalı idi. Və mən də həmişəki kimi o əldən tutub ayaqda dayanmalı, yanında durmalı idim. Sən əlini uzatmadın... mən də ki...içində olduğum ovqat isə artıq elə içimə də hopmuşdu. İçimdə də payız idi. Yarpaq tökümlü payız. O payız dilimin ucuna gətirdiyi sözlərin də canına, qanına hopmuşdu:

*Sözü də saxlamır dilimin ucu,*
*Kədər iməkləyir bəbəyə tərəf...*
*Elə bil bu payız əlində qayçı -*
*Tələsir, toxunmuş gəbəyə tərəf...*

Dəyərli oxucum, bu nostalji duyğuların sizə nə yaşatdığının fərqindəyəm. Yəqin siz də öz ömrünüzün payızı ilə nəfəs nəfəsə dayanmısınız. Və siz də o payıza qədər olan yolun xəritəsini çəkmisiniz gözünüzün önünə. Hardan başlayıb hara gəldiyinizi özünüz üçün pıçıldayırsınız. Amma unutmayın ki, şair Abbas Abdulla da həmin o xəritəni çəkib, həmin o xatırlatmanı edib. O da ömür payızının yarpaq tökümünə şairanə baxmaqla yanaşı, həm də bu şeir ilə sanki etiraz edib, müqavimət göstərmək istəyib. Necə deyərlər, bir şairlik edib:

*Bir yarpaq tökümündə -*
*Günlərin bir günündə*
*Bürünəcəyəm taleyimə*
*Yansam da, donsam da*
*kimə nə?*
*Baş götürüb çıxacam*
*yaşadığım şəhərdən*
*Gözlə yolumu*
*paralel xətlər kəsişən yerdə.*

Mən də ustadımın, unudulmaz Abbas Abdullanın sözünün işığında öz sözümə, öz misralarıma tərəf baxdım. Elə baxa-baxa da mən də ömür payızımı düşündüm. Təbii ki, baxışımın da, düşüncəmin də qəhrəmanı - QİBLƏSİ SƏN idin! Bunu Allah da bilir, onun bəndələri də. Baxmayaraq ki, sən Allahın verdiyini dilinə gətirmək istəmirsən...amma bu bir gerçəklikdir ki, ömrün payızı öz işini görür . Yarpaq tökümü adamı yaman ağrıdır:

*Sıxıram ovcumda ürəyi didən*
*Ayrılıq ağrısın...amma ki, əbəs...*
*Mənəm bu payızla ürəyi gedən -*
*Bir ovuc su götür yanıma tələs...*

Hə, deyəsən bu yazım kədər notlu doğuldu. Amma mən belə olmasını istəməsəm də, yarpaq tökümü özü öz aurasını yaratdı, öz şəklini çəkdi. Təbii ki, çəkilən şəkilin əsas rəssamı Abbas Abdulla idi. Mən də onun rənglərinə öz rəngimi uyğunlaşdırmaq cəhdləri etdim. İstəyim sadəcə olaraq Abbas müəllimin ruhunu sevdirmək və bir də Sənə yarpaq tökümünü xatırlatmaq... Yavaş-yavaş hazırlaş... o tökülən yarpağın biri də sənin ovcuna düşəcək... Demək istədiyim budur.

# Bir şeirin haləsi



Nizaməddin Şəmsizadə
əməkdar elm xadimi,
professor

**Şeirin yaşı olmur. İnsanın psixologiyasını onun yaşı müəyyənləşdirir. Dünyanın yaşını heç kim bilmir. Şeir də dünya kimidir. Şeir və mahnı milli doğulur, bəşəri yaşayır. Böyük Azərbaycan alimi Şərhçilik məktəbinin banisi Xətib Təbrizi (XI əsr) deyib: "Şeir haqqında yazmaq, şeir yazmaqdan çətindir". İndi mən də bu çətinlik qarşısındayam. Bir şeirə bir dünya sığışıb. Şeirin bədii əhatə imkanları çox genişdi. İnsan xəyalının hüdudu nə qədərdirsə, şeirin tutumu da o qədərdi. Şairin kimliyini - şairliyini, bir şeirdən bilmək olar. Şairlik Aysberq kimidi. Onun doqquz tinindən cəmi biri suyun üzündə olur. Qalan səkkizi görünmür, suyun içində olur. "şair sözü müqəddəs sözdür" deyirdi, böyük tənqidçi V. Belinski. Bir çox şeir yazanlar, bu müqəddəsliyi qoruya bilmir, heç o səviyyəyə gəlib çatmır.**

Azərbaycanda şair sözünün müqəddəsliyini qorumaqla məşğul olan söz aşiqlərindən biri mənim dostum Ramiz Məmmədzadədir. Yox, o xalq şairi, filan deyil, heç olmaq da, istəmir. Şair sözü hər şeydən ucadır - deyir, Ramiz muüəllim, təki söz bizdən inciməsin. Məmməd Arazın "Bu da belə bir ömürdü, yaşadım" , Ramiz Məmmədzadənin "Bir ömüdrü, o da keçdi beləcə" şeirlərini səhnəmizin zadəganı, dostum bənzərsiz aktyor, Fuad Poladovun ifasında dinləmişdim. Hansı, havaxt yazılıb bilmirəm. əsas bu deyil, əsas odur ki, hər iki şeirin haləsi - aurası böyük və işıqlıdır. Ayın aurası kimidir. Aləmə işıq salır. Amiz müəllim yazır:

*İşıq umdun hər açılan səhərdən*
*Arxasınca ha yüyürdüm, ha qaçdım,*
*Kimsə məni aşıranda yəhərdən,*
*Mən əl atıb üzəngidən yapışdım.*
*Bir ömürdü*
*O da keçdi beləcə.*

Bu şeir nə hecadı, nə sərbəst. Həm hecadı, həm sərbəst. Qədim türk şeiri üslubundadı. Mənası təkcə misralarında deyil, daha çox poetik ifadələrin yorğa kəhər kimi cövlanındadır "işıq umdum hər açılan səhərdən" - insanın əbədi, tükənməyən arzusudur - həyatın dialektikası, mənasıdır. Bu mənanı "arxasınca ha yüyürdüm, ha qaçdım" misrası tamamlayır. Nə yaxşı ki, tale səni yəhərdən aşıranda, zirvədən aşağı üzəngi varmış...

*Bağa baxdım, papaq düşdü başımdan*
*Fəqət, yenə dayanmadım, yürüdüm*
*Neçə atlı çapıb keçdi qarşımdan*
*Mən bu yolda suya döndüm, əridim.*
*Bir ömürdü*
*O da keçdi beləcə.*

Bu, şair Ramiz Məmmədzadənin görüntüsü olan ömürdü. Hərə ömrü öz taleyi səmtindən görür, tərənnüm və vəsf edir. Əsas odur ki, papağım başımdan düşsə də, dağın zirvəsi olduğunu unutmayasan. Dayanmadan həmin papaq salan zirvəyə can atasan. Bu yolda əriyib suya dönmək də fəxarətdir.

"Dəniz zirvədən başlanır" - deyirdi gözəl, lirik şair Nəbi Xəzri. Zir-



vədən dərinliyə! - Ramiz Məmmədzadənin şair yolu belədir. Zirvəyə qalxmzsan dərinliyə enə bilməzsən. Zirvəyə çıxmaq da, böyük hünərdi.

*Bir ümidin qapısını göstərdi*
*Səma mənə, bulud mənə, yer mənə.*
*Bu dünyanın öz qayğısı, öz dərdi,*
*Necə deyim, bir ömür də ver mənə*
*Ömür birdi*
*O da keçdi beləcə.*

Bu misralar nə zaman yazılıb bilmirəm, heç bilmək də istəmirəm. Ananın, bir də şeirin yaşını soruşmazlar. Əsas budur ki, bu misralar indi ömrünün 86-cı baharını yaşayan Allahın iradəsini yerinə yetirən bir şairindir. Ümid qapısı! - hələ heç ki içəri keçməyib. Hamı qapıyacan gəlib. Mənim fikrimcə ümid ən ümidsiz ən şirin aldanışdır, yalandır.

Insan lap son dəqiqəyə qədər ümidlə yaşayır. Bu gözəl yalanın həqiqət olacağına ümid bəsləyir. Kim özünü daha asan aldadırsa, (inandırırsa!) o daha çox xoşbəxt, rahat yaşayır. "necə deyim, bir ömür də ver mənə" ikinci ömür verilmir. Verilsəydi bəşəriyyətin faciəsi olardı.

*Haçan sənin ürəyini qırmışam*
*Ey işin avnd olsun demişəm*
*Taleyimi bir sevgiyə qurmuşam*
*Bu sevgiyə mən and olsun demişəm*
*Bir sevgidir*
*O da keçdi beləcə.*

Dünyada ürək qırmaqdan ağır cinayət yoxdu. Gəncin sevgisi adi haldı. Ən böyük həzz ahıl adamın sevgisidir. Biz gənclikdə sevginin qədrini bilmirik.

Eşqin gözəlliyini evlənməkdə görürük. Mən həmişə demişəm, əsl sevgi ZAKS-ın qapısından içəri girmir. Girəndə arvada, anaya, nənəyə çevrilir. Həqiqi EŞQ kənarda dayanıb öz vaxtını gözləyir. Əsl sevgi ilahi bir fenomendir, həmişə mistik aləmdədir, onun bu dünyada yerdə işi yoxdu. Yerə enən kimi adiləşir.

Sevgi ömür deyil, sevgi taledir. O, hər adama qismət olmur. Hər adam ömrü tale kimi yaşaya bilmir.

*Məndən bir gün qaçasıymış bu ömür*
*Harda olsam onu gəzdim, hayladım*
*Sən demə od parçasıymış bu ömür,*
*Zərrə-zərrə, gilə-gilə payladım.*
*Bir ömürdü*
*O da keçdi beləcə.*

Böyük alman filosofu F.Nitsşe deyib: "İnsanın gözəlliyi bir adlamac olması, gəldi gedərliyidir".

Su içmək üçün, ömür keçmək üçündür. Ağlamaq insana xas ilk xüsusiyyətdir. Buna hərə bir cürə məna verir: həkimlər də, filosoflar da. Ancaq mənə elə gəlir ki,uşaq yaşayıb öləndə özünə ağlaya bilmədiyi üçün elə bu başdan ağlayır. Əslində biz hər gün bir az zərrəzərrə ölürük. Bunu ağıllılr anlayır, nadanlar isə, həyatdan, mal-dövlətdən, vəzifədən yapışıb, rəzilcəsinə sürünür.

*Yox, sən demə, bu dünyanın yolunu*
*Necə tutsan əvvəl-axır bu imiş*
*O qismətdi, mənim ömur qalamın,*
*Öz bəxtimin yarpaqları bürümüş*
*Bir talehdir,*
*Bir ömurdü beləcə..*

Bu dünyanın işləri belədir; necə tutsan, elə də gedəcək. "ömur qalamı, öz bəxtimin yarpaqları bürümüş" gözəl ifadədir, "bəxtimin yarpaqları". Taleyə bundan yaxşı don geyindirmək olmaz.

Bir şeir bir dünyadı, şairin bioqrafiyasıdır. 2400 il əvvəl böyük yunan filosofu Aristotel məşhur poetika əsərində yazırdı: "Poeziya tarixdən daha ciddidir". Cünki şeir daha çox ümumidən, tarix isə xüsusidən bəhs edir. Bir şeir bütöv bir tarixi epoxanı əhatə edir. Fəqət ən gözəl və mənalı şeir yer üzündə, kosmosun modeli olan insan mənəviyyatını əks etdirəndi.

**Ramiz Məmmədzadənin "Bir ömürdü, o da keçdi beləcə" şeiri nüvəsi güclü olduğu üçün haləsi, aurası da böyük olan poeziya faktıdır.**

# SEVGİMİZDƏ MÜŞFİQ RUHU

## Mən onu hər gün salamlayıram

**Poeziyamızın ən istəkli və unudulmaz təmsilçilərindən biri təbii ki, Müşfiqdir. Onun yaradıcılığı, onun ədəbiyyatımıza töhfələri danılmaz, həm də əvəzsizdir. Baxmayaraq ki, qısa bir ömür yaşadı, amma möhrünü bu ədəbiyyata vura bildi, özünü təsdiq onun bütün yaradıcılığının şah damarı oldu. Dillər əzbəri olan "Yenə o bağ olaydı", "Ana", "Sən onun eşqiylə, məhəbbətiylə" və sairə Müşfiq poeziyasının ən ətirli çiçəklərindəndir.**

Bu gün "Hər şairin bir şeiri" ilə yola çıxanda Müşfiqin qapısını döydüm. Onun misraları ilə, onun söz çələngi və ruhu ilə pıçıldaşdım. Bir də gördüm ki, hər zaman ruhumun sarı siminə nəvazişlə toxunan Müşfiq yenə ürəyimi yerindən oynadır. Yenə məni qələmə, bilgisayara tərəf çəkir. Çünki onun sevgi nəğmələri birbaşa ürəyə işləyir. Təbii ki, ürək də yerindən oynayanda, onu havalandıranda sakitləşdirmək üçün bircə yol qalır. O da ürəyin səsinə qulaq asmaqdı. İndiki məqamda isə ürək deyir:

*Çiçəklər məftunu bir bülbüləm ki,*
*Gözlərim bağçanın gülünə düşmüş.*
*Qəhrini çəkdiyim gülün surəti*
*Xəyalımın sakit gölünə düşmüş.*

Həqiqətən də, sevgi insanı təkcə özü ilə yox, həm də yerlə, göylə, bəzən yaradanla da üz-üzə gətirir, həmsöhbət edir, lap asiliyə də aparıb çıxarır. Bunu yalnız yaşayanlar, sevənlər bilirlər. Bu mənada Müşfiqin təqdim etdiyim dörd misrası özü-özlüyündə artıq bir



səhnə yaradır, bir rəngarəng dünyanın mənzərəsi canlanır göz önündə. Mən özümü unudaraq qoşuluram Müşfiqə və pıçıldayıram:

*Hər gün dizi üstə dua edəcəm,*
*Hər gün əl açacam onun önündə...*
*Onun dərgahına qalxıb yetəcəm -*
*Axır ki, ömrümün bəlli günündə!..*

Hər zaman bəlli olan, amma etiraf edilməyən həqiqətlərin, bəlkə də ən birincisi, məhz sevgidi, onu demək təkcə cəsarət istəmir, həm də o sevgiyə inam, inanc tələb edir. Məhz bu tələb gerçəkləşəndə nə vaxtı, nə zamanı, nə yeri nəzərə almadan ilk fürsətdə etirafa gedirsən. Ürəyin dilini üstələyir, onu bülbül kimi ötdürür... Bax, onda yenə qulaqlarımızda Müşfiqin şeiri səslənir. Könlümüzü oxşayan o səs də, o misralar da böyük sevginin özüdü:

*Onunçün çırpınır qolum-qanadım,*
*Onu yerdə deyil, göydə aradım.*
*Gör nə bədbəxtəm ki, axırda adım*
*Xırda uşaqların dilinə düşmüş.*

Görün, sevgi nə qədər pak, nə qədər müqəddəs və nə qədər də səmimidir. Müşfiq onu həm dügöydə arayır, həm yerdə axtarır... onu tapmaq üçün qol-qanadını çırpır, hətta dillərə düşməkdən də çəkinmir. Bəzən onu etiraf da edir. Bu da sevginin Böyüklük diktəsidi.! Amma Müşfiq də o böyüklüyün səviyyəsində olduğundan özünü əsl aşiq kimi hiss edir. Bunu o misraların yaratdığı aura, oxucuya etdiyi təsir birmənalı şəkildə ifadə edir. Mən də məhz həmin o oxuculardan biri kimi Müşfiqə səs verirəm:

*Ovcumda gizlədib gözümün yaşın,*
*Nədənin soracam, çək! - dediyinin...*
*Tay yerdən qaldıra bilmirəm daşın -*
*Mənə Allahımın tək dediyinin...*

Bəli, həyatımızın hər anı, ötən günlərimizin hər biri, gah bizdən asılı, gah da bizim xəbərimiz olmadan yaddaşa da yazılır, yaddaşdan da silinir,.. uğurlusu da olur, itirdiyimiz də...

Baxmayaraq ki, bütün bunların hamısı ömür sayılır. Ömrün isə gözəlliyi və özəlliyi ürəyin və ruhun bir ahəngdə vurmasıdı, bir nöqtədə özünü tapmasıdı. Yenə, təkrar olsa da, vurğulayıram ki, Müşfiq həmin o nöqtədə özünü çox rahat hiss edir. Çünki o nöqtənin adı SEVGİDİ! İnsanın yolu da bitə bilər, qapı-pəncərəsi də bağlana bilər, hər gün və hər cür əzablarla da qarşılaşar. Amma bütün bunların önündə sınmamaq, əyilməmək üçün bir daxili güc lazımdı. O gücün də adı SEVGİDİ! Ona görə də Müşfiq yazır:

*Orda-burda keçdi gənclik həyatım,*
*Hər yandan bağlandı rahi-nicatım,*
*Mənliyim, şərəfim, müqəddəratım*
*Bir dəli ceyranın əlinə düşmüş.*

Sizin oxuduğunuz, mənim isə az qala su kimi içdiyim bu şeirin içərisində rahatlıq tapdığım qədər də həm də yenidən odlandım, alovlandım, yenidən Səni, bir də Allahı düşündüm...yenidən öz dünyamın, yəni Sənə və Allaha bəlli olan dünyanın gülünü, çiçəyini qoxladım, saralan yarpaqlarının xəşəminə baxıb kövrəldim. Təsəllim isə təbii ki, Allaha inamım və sənin varlığın oldu. O inamı məndə indiki anda təkrar qabardan da, önə çıxardan da Müşfiqin misralarından ürəyimə düşən od idi. Həmin odda yana-yana şeirimi belə tamamladım:

*Sərəcəm ortaya qabar ürəyi,*
*Ad bitən dilimə bax, söyləyəcəm...*
*Sən etdin sevgini ruhun çörəyi -*
*Bax, indi, gör sənə mən neyləyəcəm!..*

**Yəqin ki, bu yazının sonuna qədər səbriniz çatdı və nə demək istədiyimi, nə yazdığımı oxuya bildiniz. Buna görə də hər birinizə təşəkkür edirəm. Amma ən böyük təşəkkür heç vaxt unudulmayacaq Müşfiqindir. Çünki onun ruhu da, şeiri də Azərbaycana, elə hər birimizə doğmadı. O doğmalıq da ömürə ömür qatır, sevgiyə sevgi. Ruhu şad olsun Müşfiqin!**

Əbülfət MƏDƏTOĞLU

# Ömür küləyi

## Ələkbər Salahzadə ilə məni qarşılaşdıran şeir

**Biz bir Allah bəndəsi olaraq bəzən həyatımızın fərqinə varmırıq. Günün necə axşam olduğunu, səhərin necə açıldığını unuduruq. Və beləcə bir də baxıb görürük ki, gün də, həftə də, ay da ötüb keçib. İlin kürəyini yerə vurmuşuq. Bunun içərisində ömür də gedib. Xatirələr qalsa da, amma o xatirələrin özündə olan gün, ay, il əlimizdən çıxıb. Elə bil ki, bir külək əsib və alıb aparıb hər şeyi...**

Bu mənada təkcə təbiətdə deyil, insan həyatında da küləklər əsir və bu əsən küləklərin xəzrisi də, gilavarı da, cənub küləyi də, səmt küləyi də... Bir sözlə, bütün küləklərin ən güclüsü, ən önəmlisi olan ömür küləyidi. O da ömrümüzdə... ömür bağımızda...ömür bağçamızda əsir. Ömür küləyi bir növü yarpaq tökümüdü. Əsdikcə bizdən günləri, ayları çırpıb alır. Bax, onda...

Masamın üstündəki unudulmaz şairimiz, şəxsiyyəti və sözü ilə həmişə fərqlənmiş Ələkbər Salahzadənin "Od odası" kitabıdır. Bu kitabı təsadüfdən əlimə almamışam...Kitab rəfimin önündə dayananda hiss etdim ki, "Bir şairin bir şeiri"ndə növbə gəlib ona çatıb, yəni Ələkbər Salahzadəyə. Açdım onun kitabını. Diqqətimi çəkən də "fraqmentlər" silsiləsindən "Külək oldum". Elə o külək də köklədi məni bu yazıya. Ələkbər Salahzadə yazmışdı ki:

*Şığıdıqca qan-tər tökür -*
*dəbərdə o çarxı külək.*
*Yorğun-arğın düşüb qalır*
*baş ağrıdan qırğı külək.*

Mən həmişə tanışlığımızı, şəxsi münasibətimizi fəxrlə xatırladığım Ələkbər müəllimin bu ovqatında özümü də gördüm, özüm də qoşuldum ruhən ona, Bakı küçələrini gəzib-dolaşdım. Üz-gözümə toxunan küləyin əlindən qurtulmaq istəmədim. Çünki o, özü axırda yorulacaq, əldən, dildən düşəcəkdi. Ona görə də çırpır özünü hara, kimə gəldi. Mən də onun bu şıltaqlığında başqa bir nöqtəni, başqa bir çaları tapdım. Həmin nöqtə isə ruhumun sarı simini dilə gətirdi və yadıma sənin baxışlarının küləyi düşdü, xatırladım onu:

*Baxışının küləyi*
*Ümid yarpağın tökür...*
*Bu üzülən ürəyin -*
*İlmələrini sökür...*

Xatirələr müəyyən mənada həm də bir bütövlükdü, onun ip ucunu tapanda başlayır çözülməyə. Çözüldükcə də sanki kələf uzanır və hardasa bir cəhrə daraq da gəlib düşür yada. O yumaq kələfi özü də xatirədi bütün mənalarda. Xüsusilə ruhla, ürəklə bir olan sevgi anlamında da. Odur ki, küləyin bir top kimi diyirlədiyi, yumaladığı və o topun, o yumağın da küçə boyu, yol uzunu diyirlənib getməsi, çözümü pıçıltıdı, sözdü şair ürəyində, şair düşüncəsində. Həmin sözü də Ələkbər müəllim qələmə alıb və yazıb:

*Boşla görək bu çax-çaxı,*
*o vaxtın o çarxı gərək -*
*cırıldadıb o cəhrəni*
*əyirə o çağı, külək!*

Mən də çox istərdim ki, bu xatirələr başdan başlasın. O yumaqlar yenidən əyrilsin, yenidən kələflənsin, didilsin. Bir sözlə, ilkinliyinə, ilk nöqtəsinə qayıtsın. Çünki başlanğıc tərəddüdlü olduğundan onu qətiləşdirmək, onu əlində, ovcunda möhkəm saxlamaq bir müddət çətin olur. Baxmayaraq ki, bütün başlanğıclar hardasa, nədəsə mütləq bir boşluğu da özü ilə ortalığa çıxarır və deməli bu da sonucda yaşandı qayğıya, ağrıya, bəzən də düzəlməyən bir sıxıntıya gətirib çıxarır. Bax, onda:

*Demirəm, kəndir sala*
*Açılmadı bir falla...*
*Məni gördüyün halla -*
*Barış, içində hönkür...*

*Son arzu, son nəfəs də*
*Çırpınır dar qəfəsdə!*
*Əbülfət adlı kəs də*
*Bax, dəvə kimi çökür!..*

Yəqin ki, fərqinə vardınız. Hiss etdiniz ki, söhbət daxilən üzülməkdən, hardasa ağrılara diz çökməkdən gedir. Elə ağrılardır ki, onlar ilahi ağrılardır, müalicəsi də, dərmanı da, təbibi də sevgidi, diqqətdi. Təəssüf ki, biz bunu həmişə ya unuduruq, ya da görmürük. Ona görə də həyatımızın



burulğanı, hətta xaosu qaçılmaz olur. O ana qədər ki, biz artıq ağrının nədənini, səbəbini dərk edirik. Gec olsa da, hər halda bizə həyat dərsidir. Bu mənada Ələkbər müəllim bu dəli küləyinin, əslində isə bu ömür küləyinin yenidən əsməsini, yenidən öz işini görməsini istəyir. Bu məntiqi bir qərardı, məntiqi bir istəkdi:

*Bir də dolanıb gələrmi*
*bu çarxın o çağı, külək?*
*Ötüb vaxtı, yatıb baxtı,*
*Dönməyəydi çarxı gərək!*

Bütün hallarda bizim ömür çarxımızın küləkdən asılı olmasını istəməzdim. Onun öz axarı ilə, öz surəti ilə fırlanması, zənnimcə daha gözəldir. Və bunun içərisində bir az rahatlıq, bir az qayğısızlıq var. Təəssüf ki, mənim istəyim sadəcə olaraq istəkdi. Onun gerçəkləşməsi də yalnız Allahın iradəsindən asılıdı. Sevgini verən Allahdı, birmənalı şəkildə o rahatsızlığı sevginin alın yazısı edibdi. Yəni rahat sevgi anlayışı yoxdu! Sevgi varsa, onun nazı da, qayğısı da, yuxusuz gecəsi də, həsrəti də, bir sözlə, bütün çaları mövcuddur və yaşanmalıdır. Bax, buna görə də mən təkcə arzu yox, həm də bir daxili ərk ilə səndən istəyimi şeirləşdirirəm. Onu yaşamaq və ona qovuşmaq istəyirəm:

*Döy qapımı hər səhər*
*Dua boxçan sinəndə...*
*Danış, hətta birtəhər,*
*Hər ürəyin dinəndə -*
*Məndən!*

Hə, ömür küləyinin diktəsi məni unudulmaz Ələkbər Salahzadə ilə qarşı-qarşıya gətirdi, görüşdürdü. Və mən də onu xatırlaya-xatırlaya bu küləyi hər ikimizin şeir dəftərinə necə əl uzatdığını, misraların necə qarşılaşdırdığını yaşadım. Məkanı cənnət olan Ələkbər Salahzadənin şeiri ilə öz şeirimi ömür küləyinə bir hədiyyə kimi kağıza köçürtdüm.

Əbülfət MƏDƏTOĞLU

№ 34 (2308) 3 sentyabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# XALQINA LƏYAQƏTLƏ XİDMƏT ETMƏK SƏLAHİYYƏTİ

**Dünyanın ən mürəkkəb dövrlərində belə Azərbaycanın necə düzgün yol tutması son illər daha dolğun görünür. Onillərlə xain qonşuların və onlara havadarlıq edənlərin reallıq və gerçəklik müstəvisinə keçirilməsi Azərbaycanın, onun güclü lideri cənab İlham Əliyevin zahiri səbr və təmkini və uzun illərin uğurlu siyasətinin nəticəsidir. Az qala bütün dünyanın marağında olan (əksərən bizim əleyhimizə) Qarabağın 44 günlük əfsanəvi bir savaşla işğaldan azad edilməsi, paralel olaraq iqtisadiyyatımızın davamlı inkişafı və dünya siyasətində mövqe sərbəstliyi daha uğurlu gələcəkdən xəbər verir.**

Dünyada baş verən indiki hadisələri, xüsusilə Rusiya-Ukrayna müharibəsi və bu müharibənin ətrafındakı olaylar, sözsüz ki, respublikamıza təsirsiz qalmır. Ancaq həmişə düzgün siyasi kurs götürən Azərbaycan özünün müstəqillik və inkişaf yoluna davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi bunun başlıca səbəbi respublikamızda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidarın arasındakı birlikdir və bizim bütün proqnozlarımızın uğurlu icrasıdır.

Bəli, bütün bunlar ölkəmizin ictimai-siyasi arenada təsdiqlənən mövqeyini aydın şəkildə əks etdirir və müasir Azərbaycan reallığının spektrini işıqlandırır.

Müdrikcəsinə söynənən ”xalqla iqtidar arasında birliyin” əbədi və sarsılmaz olduğunu biz az qala hər gün görür və yaşayırıq. Bu birliyin ən pik nöqtəsi isə təbii ki, torpaqlarımızın düşmən işğalından azad edilməsi və Böyük Qələbəmizin təntənəsi idi. Prezidentin imzaladığı bir çox mühüm sənədlər, işğaldan azad olunmuş ərazilərə intensiv səfərləri, xalqla görüşləri, istiqanlı, mehriban söhbətləri, görülən və görüləcək işlərin perspektivləri haqqında söylədikləri bütün bunları bir daha təsdiq edir.

...Yerlərdə insanların daha inamlı və nikbin görünməsi, quruculuq işlərindəki fəallıqları məhz daxili və xarici siyasətimizin uğurla davam etməsinin nəticəsidir. Rəhbərliyə inam, Prezidentlə, Ali Baş Komandanla fəxr etmək hər yerdə olduğu kimi Göyçay rayonunun sakinlərinin də sevinc mənbəyidir. Bu gerçəklik doğrudan Göyçay rayonunda daha təmtaraqlı yaşanır. Rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən İkram Vəliyev bu fikri mükəmməl ifadə edir:

- Şirvan bölgəsinin mərkəzi Arana qovuşuq zonasında yerləşən Göyçay rayonunun sakinləri bütün məsələlərə həssaslıqla yanaşır. Onlar Azərbaycanın, onun bir parçası olan Göyçayın son illər ərzində xeyli inkişafına, uğurlarına ürəkdən sevinib fəxr edirlər. Bizim camaat ölkə rəhbərliyinin qayğı və diqqətlərinə cavabsız qala bilərdimi? Unutqanlıq göyçaylılara yad olan xarakterdir. Hələ uzaq illərdə - 70-ci illərin əvvəllərində Əlvan dərəsindən gələn yağış və sel suları Göyçayı iki dəfə az qala yuyub apararkən, məhz o vaxtlar respublikaya rəhbərlik edən Ulu Öndərimizin qətiyyəti heç vaxt unudulmayacaq. Məhz Heydər Əliyevin sayəsində şəhərin şimal hissəsində nəhəng bənd inşa edildi və şəhər sel daşqınlarından birdəfəlik xilas oldu.

Hər kəsə məlumdur ki, rayondakı infrastruktur yenilikləri, rahat yollar, kəndlərin də sanki bir şəhər görkəmi alması, Göyçay şəhərinin modern inkişafı dövlətimizin, şəxsən cənab Prezidentimizin müstəsna qayğı və diqqətinin töhfələridir. Qarabağın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə, xüsusilə Vətən Müharibəsinin 44 günlük tarixi və əfsanəvi dövründə yüzlərlə göyçaylı gəncin əsl vətənpərvərlik ruhu və Müzəffər Ali Baş Komandana sədaqətlilik nümunəsi ilə silaha sarılması, igidlik göstərməsi heç vaxt unudulmayacaq. Bu döyüşlərdə Göyçay gənclərindən 50 nəfərə yaxını şəhidlik zirvəsinə ucaldı. İndi onların xatirəsi Şəhidlər Xiyabanı və digər məqamlarla əbədiləşdirilir, onların ailələrinə, eyni zamanda qazilərə hörmət və qayğı ilə yanaşılır. Bütün bu məsələlər dövlətimizin gündəlik nəzarətindədir və ən yüksək səviyyədə diqqətdə saxlanılır...

Öyrənirik ki, həmişə inkişafda olan bu gözəl məkanın, xüsusilə son vaxtlar nikbin əhval-ruhiyyənin hökm sürdüyü Göyçayın həyat ritmi, yaşam tərzi bütün istiqamətlər üzrə yüksəlişə doğrudur. Göyçaylılar dövlətimizin qayğısına cavab olaraq bütün sahələrdə uğurlar qazanmağa, vətənə töhfələr verməyə çalışırlar. Bu səbəbdəndir ki, istər kənd təsərrüfatının aparıcı bölmələrində, istərsə də sənaye, tikinti, xidmət işlərində davamlı inkişaf təmin olunur.

Bütün müəssisə və təşkilatlar, eyni zamanda hüquq-mühafizə orqanları öz fəaliyyətlərini yüksək səviyyədə qururlar. Bu mənada rayon polis şöbəsinin cinayətkarlığa qarşı fəal mübarizəsini, profilaktik tədbirlərini, sakinlərlə faydalı görüşlərini xüsusi vurğulamalıyıq.

Ürəkaçan, fəxrlə seyr edilən mənzərələrdən biri də şəhərin modern inkişafı, nümunəvi səliqə-səhmanıdır. Eyni zamanda Göyçayın kəndlərinin də inkişafı və müasirləşməsi xususi diqqət çəkir. Göyçay kimi qonaq-qaralı bir rayonda bu məsələlərin məqsədəuyğun şəkildə həlli, yəni infrastruktur paylaşımı vacib şərtlərdəndir.

Göyçayda yaşayanlar və ya buraya qonaq gələnlər rayonun bir sıra kəndlərinə də maraq göstərir, yeniliklərlə birbaşa təmasda olmaq istəyirlər. Eləcə də qədim yerlər və abidələrlə. Artıq Göyçayın ən ucqar istiqamətlərində belə, müasir tələblərə cavab verən yol, rabitə, iaşə və digər məsələlər öz həllini tapmaqdadır.






Göyçay şəhərinə, onun park və bağlarına, xüsusilə hər cür şəraitə malik stadiona və ətrafına, Əli Kərim parkına təkcə göyçaylılar deyil, qonşu rayonlardan da istirahətə gələnlərin sayı artmaqdadır.

Bütün bu məsələlər ölkə rəhbərliyinin qayğı və diqqəti sayəsində uğurla davam etməkdədir. Rayon sakinlərinə, onların yaşam tərzinə, problemlərinə, məsləhətlərinə həmişə yüksək həssaslıq və qayğıkeşliklə yanaşan İkram Vəliyev işgüzar kadrların potensialını məqsədəuyğun şəkildə istiqamətləndirir. İ.Vəliyevin bütün sahələrə eyni diqqətlə yanaşması, fərq qoymadan bütün sakinlərlə səmimi davranışı, təvazökar həyat tərzi illərdir ki, ona həmyerlilərinin inam və etibarını qazandırıb. Cənab Prezidentin dövlət məmurlarından, vəzifə sahiblərindən tələb və istəyi də elə fəaliyyətin bu cür formalaşması və həyat tərzinə çevrilməsidir.

**Düzgün istiqamət, düzgün yol isə həmişə uğurlara aparır, insana qəlb rahatlığı, baş ucalığı gətirir.**

**Məzahir ƏHMƏDZADƏ**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# MƏNİM LENİN ORDENİM

(Hekayə)



***ETİBAR ƏBİLOV***

Əvvəlcə Kolyagilin dəmir darvazalarının səsini eşitdim. Darvazanın zirələri paslanmışdı deyə, eşitdiyim səsdən ətim ürpəşdi. Sonra asfalta zərblə çırpılan dəmir stulun səsi gəldi. Sonra mən Kolyanın stuldan bərk-bərk yapışmış əllərini gördüm. Kolya bütün gücünü qollarına verib özünü stulun qənşərinə tərəf dartdı. Və bu dəfə Kolyanın özünü gördüm. Kolya yenə də həmin zərblə stulu özündən irəli atıb, yenə də irəli dartındı. Bu vəziyyət daha bir neçə dəfə təkrar olundu və Kolya nəhayət qapılarının ağzında, həyətlərindən küçəyə düşən tut ağacının kölgəsində stulunu sahmanlayıb, sonra da stula əyləşdi. Məndən iki, bəlkə də üç yaş böyük olan Kolya anadan şikəst doğulmuşdu - hər iki ayağından çolaq idi. O, bu stulun köməkliyi ilə hərəkət edə bilirdi. Hərəkət edirdi demək bir qədər düz olmur: Kolya bu stulun köməkliyi ilə sürünürdü desəm, daha düz olmuş olar… Mən (təkcə mən yox, kiçik qəsəbəmizdə hamı) Kolyanı belə görmüşdü.

Belə yeksənək istidə, adamsız və darıxdırıcı küçədə Kolyanı görməyimə sevindim. Çünki Kolyadan yaxşı həmsöhbət bu dəm mənə kim ola bilərdi ki?..

Saat 4 olardı, ya da 5-ə işləyərdi. Bayaq anama acdığımı demişdim. Anam da səhər obaşdan, həyətdə ocaq qalayıb sac üstə bişirdiyi iri bir yuxanın arasına pendir, pomidor və xiyar dilimlərini düzüb iri bir dürmək eləmişdi. İndi həmin dürmək əlimdə idi. Bayaq anama acdığımı desəm də, iştaham elə bil birdən-birə yox olmuşdu və mən əlimdə həmin dürmək, uzaqdan-uzağa Kolyaya əl elədim və Kolya da əlinin işarəsi ilə məni yanına çağırdı.

50-55 addım atıb Kolyaya çatdım. Kolya qəsəbəmizdəki əksər ruslar kimi Azərbaycan dilində səlis bilirdi. Ümumiyyətlə, biz həm məhəlləmizdə, həm də qəsəbəmizdə yaşayan ruslarla adətən Azərbaycan dilində danışırdıq. Qəribəsi bu idi ki, kiçik qəsəbəmizdəki ruslar, Azərbaycan dilində səlis danışdıqları halda, biz rusca o qədər də səlis danışa bilmirdik. Bilmirdik deyəndə ki, rusca fikirlərimizi sərbəst ifadə edə bilirdik, amma bir az əvvəl dediyim kimi, rusların Azərbaycan dilində rəvan danışdıqları kimi, biz Azərbaycan uşaqları rus dilində onlar kimi rəvan danışa bilmirdik. Rusların Azərbaycan dilində belə rəvan danışmalarının ən əsas səbəbi,onların ailələrində də çox vaxt Azərbaycan dilində danışmaları idi… Kolyaya çatdım. Qara, ucuz ayaqqabısının üstü yerlə sürünməkdən rəngi getmiş Kolya (Kolya üçün hər ay bir ucuz çəkmə alırdılar), şalvar cibindən ciddi-cəhdlə nəyisə götürmək istəyirdi. Amma cibindəki nə idisə Kolya onu cibindən çıxarmağa çətinlik çəkirdi (Kolya adətən cibindən nəyisə çıxartmaq istəyəndə,bütün bədəni gərilirdi). Şalvar cibindən çıxan nazik, qızılı sərt teldən bildim ki, onun cibindən çıxarmaq istədiyi ya bir nişandır, ya da nişana bənzəyən başqa bir şey. Kolyanın bütün diqqəti öz işinə yönəlmişdi, mənə də fikir vermirdi və mən də əlimdə yuxa dürmənci Kolyanın cibindən nə çıxaracağını gözləyirdim. Axır ki, Kolya istədiyinə nail oldu. Kolyanın cibindəki Lenin ordeni imiş. Mən o vaxt 5-ci, ya da 6-cı sinifi bitirmişdim - indi onu dəqiq xatırlaya bilmirəm. Amma hər bir Sovet məktəblisi tək, Lenin ordenini görən kimi, onun həqiqi Lenin ordeni olduğunu bildim. Əvvəla bu ordendən qəsəbəmizdə bir neçə adamın yaxasında görmüşdüm,ikincisi bu ordenin şəkli dərsliklərimizdə var idi, digər tərəfdən də,o vaxt hər gün gecə saat 10-da Moskva televiziyasından yayımlanan "Vremya" adlı xəbərlər proqramında, o vaxt ölkə rəhbəri olan Leonid İlic Brejnev tərəfindən həmin ordenin böyük-böyük vəzifə sahiblərinə, adlı-sanlı adamlara verilməsinə dəfələrlə tamaşa etmişdim… Amma Lenin ordenini bu qədər yaxından görməyim və Lenin ordeninin nə qədər yaraşıqlı,gözoxşayan olduğunu ilk dəfə idi ki, bu qədər yaxından,əyani şəkildə görürdüm. Kolya ordeni əlinə alandan sonra, nəhayət ki, əvvəl mənə,sonra da əlimdəki dürməyə baxdı… O, gözünü mənim əlimdəki dürməncə, mən isə gözümü onun əlindəki ordenə zilləmişdim. Ürəyimdən o ordendən məndə də olması arzusu keçirdi və Kolyanın əlindəki ordenə baxa-baxa, o ordeni Kolyadan necə almağın yollarını fikirləşirdim… Sən demə, mən keçirdiyim hissi Kolya da keçirirmiş. Amma bir qədər fərqli şəkildə. Mənim ürəyimdən Lenin ordeni keçən kimi,onun da ürəyindən, içərisi pendir, pomidor, xiyar dilimləri ilə "bəzənmiş" dadlı yuxa dürmənci keçirmiş.

- Ondan bir az mənə ver də… - Kolya dilləndi… Başqa vaxt olsaydı mən sevinə-sevinə dürmənci Kolyaya verərdim və buna görə evdə valideynlərim tərəfindən təriflənərdim də… Çünki Kolyaya nəinki bütün məhəllə,hətta bütün qəsəbəmizin adamları da hörmət edirdilər.Onun xətri,necə deyərlər,hamının yanında əziz idi və bu da əlbəttə onun şikəstliyinə görə idi.

…Amma mən:

-Vermirəm- dedim.

-Nə olar…- Kolya az qala xahiş elədi.

-Özüm yeyəcəm…Acmışam…

-Hamısını istəmirəm ki…Özün nə qədər yeyəcəksən kəs götür,qalanını da ver mən yeyim.

Kolyanın həqiqi mənada olan yalvarışları,mənim Lenin ordenini əldə etmək ümidlərimi artırırdı.

Günəş şüaları altında ordenin üstündə Leninin bərq vuran şəkli,ordenin üzərindəki qızıl sünbüllü zərif naxışlar,Lenin yazılmış hərflərin,sumaxı rəngli oraq çəkicin gözqamaşdırıcı parlaqlığı…gözümü necə tutmuşdusa,birdən-birə qəddar bir adama çevrilmişdim…Yəni Kolyanın yalvarışlarına məhəl qoymayıb özümün də iştahım çəkməyən bir salatlı-pendirli dürmənci ondan əsirgəyirdim.

-Nə olar,o dürməncdən ver də mənə…

-Kolya…

-Nədi?

-Onda gəl belə edək...Mən bu dürmənci verim sənə…Özü də hamısını…Sən də əvəzində o əlindəkini mənə ver.

Kolya əvvəl deyəsən bir şey başa düşmədi…Amma bu bir anlıq oldu.

-Bunu? -Kolya təəccüblə ovcundakı Lenin ordenini göstərdi

-Hə…Onu…

-Al!.. -Doğrusu əvvəl o boyda ordeni belə asanlıqla əldə edəcəyimə inana bilmədim.

-Düz deyirsən?

-Götür… - Kolya əminliklə və sidq ürəklə Lenin ordenini mənə uzatdı.

Ordeni əlimə alanda,yayın bu cırhacır istisində,sanki ürəyimə bir sərinlik yayıldı.

Dürmənci Kolyaya verdim.

Kolya dürməncdən dir dişdəm götürüb iştahla çeynəməyə başladı.

-Əlində niyə tutmusan?

-Nəyi?

-Ordeni.

-Bəs neynim?

-Vur yaxana da.

-Maykama vurum?

-Nə olacaq ki?..Yaxın gəl.

Yaxın gəldim.

-Ordeni ver mənə.Qorxma.Evdə bilirsən ondan nə qədər var? Bunu sənə bagışlamışam.

Ordeni Kolyaya verdim.Kolya əlindəki dürmənci dizlərinin üstünə qoyub,ordeni bir göz qırpımında maykamın yaxasına sancdı.Fərəhimdən yerə-göyə sığmırdım.

-Yaxşıdı?

Kolya baş barmağını şax tutub:

-Vot!- dedi.Yəni əla.

İçərisinə pendir,pomidor,xiyar dilimləri yığılmış yuxa dürməncinə görə Kolya məni təntənəli şəkildə olmasa da,hər halda ürək açıqlığı ilə Lenin ordeni ilə mükafatlandırdı.Təkcə Brejnev kimi qucaqlayıb üç dəfə o üzümdən,bu üzümdən öpmədi.Düzünə qalsa onun məni öpməsini,bu dəm,heç mən özüm də istəmirdim.Çünki Kolyanın dodaqlarının ətrafı başdan-başa pendir,xiyar,pomidor və yuxa qırıntılarına bələnmişdi.

Məhəlləmizin uşaqları yavaş-yavaş Sərdar dayıgilin darvazasının qarşısına yığışırdılar.Bir azdan futbol oynamağa gedəcəkdilər.

-Yaxşı Kolya,mən getdim.

-Hara?

-Uşaqların yanına.

-Bundan evinizdə yenə var?- Kolya yuxanın son tikəsini mənə göstərdi.

Yenə qəddarlığım tutdu,hə desəydim Kolya yenə istəyəcəkdi.Lakin mən hələ evə getmək istəmirdim.

-Yoxdu,Kolya.

-Onda,olanda yenə gətirərsən?

-Gətirərəm.

-Amma əla yaraşır ha.

-Nə?

-Ordeni deyirəm.

Bir neçə addım atmışdım ki,Kolya məni səslədi:

-Bura bax,Ordeni məndən almağını onlara demə ha (məhəlləmizin uşaqlarını göstərdi)...Yoxsa hamısı gəlib məndən orden istəyəcək.

-Deməərəm.

Uşaqların yanına gəldim.Maykamın yaxasında Lenin ordeni,özümü uşaqlardan bir yox,bir neçə pillə yuxarı hesab edirdim.Çünki bu uşaqların heç birinin belə ordeni yox idi.

Maykamın yaxasındakı ordeni birinci görən Adil oldu:

-Ay da…Hardan tapmısan bunu?

Bütün diqqətlər mənə,daha doğrusu maykamın yaxasına cəmləndi.Kimi təəccüblə,kimi heyrətlə,kimi həsədlə,kimi də saymazyana maykamın yaxasındakı ordenə baxırdı.

Məndən bir neçə yaş böyük olan,həmişə də özünü məhəllə uşaqlarından böyük kimi aparan,bir qədər də lovğa təbiətli Elxan yaxına gəldi.Əli ilə Lenin ordeninə toxundu.Sanki ordenin həqiqiliyini yoxlayırdı:

-Hardan almısan bunu?

-Sənə nə var -Əlini kənara itələdim.Ondan onsuz da acıgım gəlirdi.Özü də,özünü böyük kimi apardığına görə.

-Nə olar…Adamdan söz soruşarlar də…

Elxanın səsindəki yumşaqlıq ürəyimi yumşaltdı.Di gəl ki,Kolyanın -Onlara bir söz demə- sözünü xatırlayıb yalan danışmalı oldum:

-Dayımgilə getmişdim.Dayımın bir dostu var,o bağışladı.

-Necə yəni bağışladı?

-Bağışladı da…Ürəyi istədi bağışladı.

-Özünün idi o orden?

-Bəs kimin olacaq?

Bu vaxt qonşu məhəllədə yaşayan Stepan adlı bir kişi bizim yanımızdan keçirdi.Stepan ikinci dünya müharibəsinin veteranı idi.Qəsəbəmizdə ən səliqəli və ciddi adamlardan biri kimi tanınırdı.Həmişə də,yay-qış,qara kostyumda gəzirdi.Kostyumunun da yaxası müharibədə aldığı orden-medallarla dolu.Biz bilirdik ki,yayın ən cırhacır istisində belə o,qara kostyumunu müharibədə aldığı və şəstlə yaxasında gəzdirdiyi orden-medallara görə geyir.Amma onun Lenin ordeni yox idi.Mən öz Lenin ordenimi ona göstərmək üçün iki addım irəli yeridim,elə dayandım ki,Stepan mənim ordenimi görə bilsin…Qoy görsün ki,mənim bir Lenin ordenim,onun neçə-neçə orden-medalına dəyər.

Və istədiyimə nail oldum.Kişi maykamın yaxasındakı ordeni gördü.Görməyi ilə də sifəti elə dəhşətli bir vəziyyətə düşdü ki…Stepanın üzündəki ifadə o qədər qorxulu idi ki,hətta canımdan soyuq bir gizilti keçdi.Amma həmin an Stepanın canından keçən gizilti deyəsən daha dəhşətli idi və bu dəhşətli giziltini o,hirslə yerə tüpürüb -Bezobrazie- deməklə biruzə verdi.Və xam at kimi ayaqlarını yerə bərk-bərk vuraraq,deyinə-deyinə uzaqlaşıb getdi.

-O niyə belə edir? -Bəşir təəccüblə soruşdu və məhəlləmizdə mənim ən yaxın dostum olan, eyni sinifdə oxuduğum İlqar:

-Paxıllığından - dedi- Elə bilir bütün ordenləri ancaq o ala bilər.Başqası ala bilməz…

Artıq saat 7-yə qalardı.İş vaxtı qurtarmışdı.Və bu vaxt Kolyanın atası Karpenkonun əlində bir kağız bağlaması işdən gəldiyini gördüm.Bayaqdan ordenimi başqalarına nümayiş etdirmək istəyən mən,hiss etdim ki,həyəcanlanıram.Üzümü uşaqlara tərəf çevirdim ki,Karpenko yaxamdakı ordeni görməsin.Karpenko neft mədənlərində işləyirdi.Bütün məhəllədə onun kimi qaraqabaq,həmişə hirsli görünən,demək olar ki,heç kəslə ünsiyyəti olmayan Karpenkonun qəribə yeriməyi var idi;elə bil əlləri ilə nəyisə çırmaqlayırdı.Özü də yaman içən idi.Çox içdiyinə görə,arvadı,kök-daha doğrusu şişman,yeriməyə çətinlik çəkən,qaraqabaqlıqda ərindən geri qalmayan Maşa ilə (biz uşaqlar ona tot Maşa deyərdik) teztez davaları düşürdü və onların səs-küylü davadalaşları bəzən qonşu küçələrə qədər gedib çixardı…İndi də Karpenkonun əlindəki kağız bağlamadakı yəqin ki,araq idi.Karpenko üzümüzə belə baxmadan gəlib yanımızdan keçdi…Dərindən nəfəs aldım.Bayaq ki,həyəcanım da keçib getdi.

Daha küçədə qalmağa darıxırdım.İndi də Lenin ordenimi evdəkilərə göstərmək istəyirdim.

İlqara dönüb:

-Mən evə gedirəm -dedim.

-Bəs futbol oynamağa getmirsən? -Adil soruşdu.

-Yox -dedim- Bu gün nədənsə həvəsim yoxdur.

-Daha onun ordeni var,neynir futbolu -Elxan mənə söz atdı.Mən də söz altında qalan deyildim:

-Səndə bu ordendən olsaydı,forsun yerə-göyə sıgmazdı.

Məktəb vaxtı biz futbolu ancaq küçəmizdə oynayardıq.Tətil günlərində isə futbol oynamağa məhəlləmizin yaxınlığında yerləşən məktəbimizin idman meydançasına gedərdik.İndi də tətil olduğundan uşaqlar məktəbimizin idman meydançasına getdilər.

Evə gəldim.Atam,anam,bibim,bibim oğlu, qardaş və bacılarım böyük aynabəndimizdə idilər.Ayaqqabılarımı çıxarıb şəstlə içəri keçdim.Yaxamdakı ordeni birinci olaraq məndən kiçik qardaşım gördü:

-Bunun ordeninə bax!

Hamı dönüb mənə baxdı.Atam qəzet oxuyurdu.Gözünü qəzetdən ayırıb,eynəyinin altından maykamın yaxasındakı ordenə baxa-baxa:

-Hardandı bu səndə? -deyə soruşdu.

-Kolya verib.

-Kolya kimdi?

-Karpenkonun oğlu.

-Aç onu yaxandan.

-Özü bağışladı.

-Dedim ki,aç.

-Əvəzində yuxa vermişəm- Təslim olmaq istəmirdim.

-Eşitmirsən sənə nə deyirəm? -Atamın səsinin ahəngindən vəziyyətin nə qədər ciddi olduğunu anladım.

Ordeni açdım.

-İndi də o ordeni apar qaytar yiyəsinə.

-Yuxa verib almışam- Ordeni özümdə saxlamaq üçün sonuncu cəhdimi edirdim.

-Bu dəqiqə apar qaytar…Bu dəqiqə!

Başa düşdüm ki,artıq məsələ həll olunub.Ordeni geri qaytarmalı idim.Hökmən.

Kor-peşman ayaqqabılarımı geyindim.

Yenə də atamın səsini eşitdim:

-Özü də Kolyaya yox,Karpenkonun özünə qaytar.Eşitdin?

- …

-Eşitdin?! -Atam səsini qaldırdı.

- Eşitdim- dedim.

Kor-peşman küçəyə çıxdım.Yaxşı ki,uşaqlar küçədə deyildi…Ürəyim qan ağlaya-ağlaya Karpenkogilə gedirdim.Ordendən ayrılmaq mənə o qədər ağır idi ki…

Kolyagilin qapısına az qalmış evlərindən gələn dava-dalaş səsini eşitdim (Bu istidə qapılarını bağlamışdılar.Səs-küy açıq pəncərədən gəlirdi).Həyətə keçdim.Maşanın qəzəbli səsi gəlirdi:

-Az iç də bu ….

-Zamolçi.

-Nə zamolçi.Bu qədər içmək olar? Hər gün içirsən.

-Yaxşı edirəm.

-Mən səndən şikayət edəcəm.Ya budu jalovatsya milisiyu…Prokurora deyəcəm.

-Nu idi...Çevo jdyoş- Karpenko ironiya qarışıq hirslə qışqırdı.

Və mən daha bu mərəkəyə qulaq asa bilməzdim:

-Ded Karpenko- Hündürdən səsləndim- Ay ded Karpenko!

Səs-küydən mənin səsimi eşitmirdilər.

Yenə çağırdım.Yenə eşitmədilər.Məcbur olub qapını döydüm.

Karpenko susdu.Amma Maşa dayanmadan deyinirdi:

-Tı nostayaşiy alkoqolik!

Karpenko qapını açdı və zəhrimar sifəti ilə mənə baxdı.

-Bunu atam verdi.

Karpenko heç nə başa düşmədən əlimdəki ordenə baxdı.

Maşa isə dayanmadan elə hey deyinirdi…

Heç nə başa düşməyən Karpenko geri çevrildi,hirslə iki addım irəli yeridi,arvadının üstünə qışqırdı.Yenidən mən dayandığım yerə- qapının agzına gəldi…

Orden hələ də əlimdə idi.

-Bunu atam göndərdi.

**(ardı növbəti sayımızda)**



ƏŞRƏF VEYSƏLLİ

## TƏRTƏR ÇAYI

Qayaları gözəlliyin keşiyində dayanar,
Çiçəkləri günəşin al rənginə boyanar,
Nəğməsindən torpağın yatan bəxti oyanar,
Bulud da zirvələrdən sallanıb öpər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Burda dadı başqadır sevincin də,qəmin də,
Hay- həşirdi bayaqdan meşələrin bəmində,
Ləpələr nə oxuyur yenə öz aləmində.
Fərəh,sevinc bürüyüb qəmdən bixəbər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Nəğmələri şən ömrün,gözəl çağın davamı,
Ceyran gözlü min suyun,min bulağın davamı,
" Əyri qar" ın davamı, " Dəli dağ" ın davamı,
Yanımca yüyürməkdən bürüyübdür tər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Bu dağlar gözəlini dərələr əzizləyər,
Ləpələr bir- birini danışdırar,səsləyər,
Yaşıl- yaşıl nəğmələr kölgəsində bəsləyər,
Meşələr əlləriylə elə hey örtər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Zirvələrə gün düşüb,gədiklər dumanlıdır,
Hər daşının sinəsi nağıllı, dastanlıdır,
Aylı gecələrində dərə kəhkaşanlıdır.
Aman!- uçsa bircə daş sındırar,bölər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Möcüzənin,heyrətin özündən qopub düşüb,
Ağ çalmalı dağların gözündən qopub düşüb.
Bəlkə Aşıq Şəmşirin sazından qopub düşüb,
Tarlalar gecə- gündüz əzbər öyrənər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Sirli bulaqlarıyla bir loğmandır vətənim,
Bu srlərin sirrini gedib kimdən öyrənim.
Bir daş verin, yapışım, qaya verin ,söykənim,-
Çox çaylardan keçmişəm,sevməmişəm hər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Baxdım sonuncu ulduz göy üzündə sönüncə,
Xəyalım zirvələrdən ormanlara enincə.
Gümüş- gümüş ləpələr ağ zanbağa dönüncə
Pambıq düzənlikləri gözünə təpər çayı,
Məni məftun eyləyib yurdumun Tərtər çayı.

Yalçın- yalçın qayalar musiqi çələngidir,
Qəhrəmanlıq marşıdır- heyratıdır,cəngidir.
Ha deyirəm tez gedim, dağlar tutub ləngidir,
Kaş sıxaydım köksümə bu sinədəftər çayı,
Məni Məcnun eyləyib yurdumyn Tərtər çayı.

Bağışlasın qanunlar,- sabah işə geciksəm,
Gözəlliklər toruna düşə- düşə geciksəm.
İşdir- ya bir məclisə, ya görüşə geciksəm,
Bilin,- seyrə dalmışam daşları mərmər çayı,
Məni Məcnun eyləyib yurdumun Tərtər çayı.

Qopub gələ bilmirəm kəkliklərin səsindən,
Yaşıl ormanlarının təbəssüm meşəsindən.
Eh, Əşrəfin ürəyi uçub öz sinəsindən,
Qalır ki, qucaqlasın ulduzları zər çayı,
Məni Məcnun eyləyib yurdumun Tərtər çayı.

## KÖNLÜM DÜŞÜB BİR ALOVA...

Könlüm düşüb bir alova,bir oda,
Aça bilir nə qohuma,nə yada.
Mən ölmərəm,yüz yaşaram dünyada,
Canım olsa o gözəlin fədası.

Gözüm onu hey axtarır hələ də,
Bəxtim vura-indi birdən gələ də.
Yollar boyu çiçəyə də, gülə də
Keçib onun naz-qəmzəsi, ədası.

Günəş kimi nur tökülər üzündən,
Danışdıqca dür tökülər sözündən.
Gözlərimə od yağdırar gözündən,
Qulağımda donub qalar sədası.

Heç bilmirəm nə demişəm, xoşlanıb,
Ürəyimdə bir toy-düyün başlanıb.
Kirpikləri düz sinəmə tuşlanıb,
Axır bir gün xətası var,xətası.

Gülüb baxsa alışaram yanaram,
Küsüb getsə soyuğundan donaram.
Qara rəngdə səadətdir sanaram
Şəvə kimi tellərinin butası.

Hissim,duyğum,canım,gözüm onundur,
Ürəyimdə varsa dözüm-onundur.
Zərif şerim,zərif sözüm onundur,
Zəif şerim özümündür,qadası.

Görən varmı gözəllərin mərdini,
Onlar əymiş aşiqlərin qəddini.
Qohumunun,qonşusunun dərdini
Mən alardım əgər olsa satası.

Bir söz desə-bütün aləm şurlanar,
Yeridikcə yollar da qürurlanar.
Gözlərimə gəlsə gözüm nurlanar
O gözəlin gözlərinin qadası.

Baxışımda bir həsrətin buludu,
Məcnun könlüm məhəbbətin quludu.
Varlığıma o qız salıb bu odu,
Gözləyir ki, kimsə atar oda su.

Kül olmuram, hey yandırır,hey yaxır,
Nə əl çəkir, nə də yaxın buraxır.
Ömür dağdır, mən enirəm, o qalxır
Əlim çətin çatasıdır,çatası.

Nə eybi var,həsrətində, a zalım,
Gecə-gündüz mən əriyim,azalım.
Dünya - görüş dənizidir, məzarım
O dənizdə olar hicran adası.

O tər gülün, o nəğməli dodağın
Vüslaına nə uzağam,nə yaxın.
Xoşbəxtəm ki, o gəzdiyi torpağın
Mən qoynunda yatasıyam,yatası.

## FİL SÜMÜKLƏRİ

Gör məni hayana atdı günlərim,
Nə çalım fəryadı qırıq simlə mən?
Piyada qaldılar atlı günlərim,
Şahmat oynayıram taleyimlə mən.

Şah-Mat!-Düşünürəm bayaqdan bəri,
Fiqurlar -ağlımın cəfakeşləri...

Nə mənim günəşim adam yarıdar,
Nə də üşüyən var soyuq qarımdan.
Bir az taleyimin fiqurları da
Artıqdır özümün fiqurlarından.

Hər qarşı tərəfdə kiçik bir ölkə,
Ordular üz-üzə dayanıb burda.
Mahir bir oyunçu əlində bəlkə,
Dönüb vəzir olar piyadalar da...

Hələ düşünürəm,fiqurlarımın
Çoxu öz işində,öz həvəsində
Çoxu öz yerində,öz ünvanında.
Şah da fil sümyü qiyafəsində
Hələ lovğalanır filin yanında...

Açılır önümdə döyüş yolları,
Bu yollar yüz səmtə şəkirlər məni,-
Necə istəyirsən dəyiş yolları,
Bəs niyə mat qoyub fikirlər məni?

Fillər ölümünü bilir deyirlər,
Fillər ayaq üstə ölür deyirlər.
Bəlkə buna görə fil sümükləri
Daş-qaşlar içində çox qiymətlidir...
Fillər öləndə də əzəmətlidir,
Fillər bir-birinə sədaqətlidir.
Nə satqınları var,nə dönükləri...
Bayaqdan bir şahmat taxtası üstə
Dərin fikrə gedib fil sümükləri.

## BİR ÖMRÜN MƏNZİLİ UZANAR HƏLƏ

Bir ömrün mənzili uzanar hələ,
Bir qız bu yollarda məni ləngidər.
Qara tül libasda o gülə-gülə,
Sevdirər könlümə qara rəngi də.

Ulduzlar hüsnünə heyran qalarlar,
Qonmaq istəyərlər çiyninə hərdən.
Qorxar ki,oğlanlar məcnun olarlar,
O qız qara geyər əyninə hərdən.

Dünya, tilsiminə düşübdür,nədir,
O ala gözlərin,qara qaşların.
O qız tül libasda ağ fəvvarədir,
Soyuq qucağında qara daşların.

Bir duyğu qoymaz ki,danışam,dinəm,
Bağrıma bir həsrət yükü daşınar.
Onsuz yurd yerinə bənzəyər sinəm,
Ürəyim çevrilər ocaq daşına.

Çöhrəsi nur dolu səhərə bənzər,
Görsəm gözlərimin ümidi artar.
Onsuz keçirdiyim günlərə bənzər,
Onun xoşladığı o qara paltar.

O gedər-çiçəklər ,güllər quruyar,
O gələr-gül açar səkilər indi.
Şimşəktək buludu biçər,doğrayar,
Bir ömrün dan yeri sökülər indi.
Onu ömür boyu gözləyərəm mən,
Hərdən şirin-şirin dindirər məni.
Ömrün qürubunda tutub əlimdən,
Gün çıxan tərəfə döndərər məni.

Bir ömrün mənzili uzanar hələ,
Bir qız bu yollarda məni ləngidər.
Qara tül libasda o gülə-gülə ,
Sevdirər könlümə qara rəngi də.

## DƏYİRMAN DAŞI

Dənliyində dən tükənib,
bu daş boşuna fırlanır.
Çaxçağı baş ağrısıdır,
ömrün qışına fırlanır.

Nə gələn var, nə də gedən,
kimdi burda dən üyüdən?
Bu daşı kimdi hərlədən,
ya öz xoşuna fırlanır?

Daş da daşa ruzu kimi,
aşiq olmaz özü kimi
Bir qurbanlıq quzu kimi
dərdin başına fırlanır.

## ÜRƏK AĞRISI

Nədənsə həmişə tənginəfəsəm,
Elə bil babamla həmyaş olmuşam.
Əlim qələm tutan, ağlım söz kəsən
Ürək ağrısına yoldaş olmuşam.

Səfərə çıxmışam min bir həvəslə,
Gözlərim bələdçi, könlüm yolçudur.
Ancaq neyləyim ki, sol döşüm üstə
Sağ əlim çox zaman qarovulçudur.

Neçə ürəklərin yarımçıq qalan
Arzusu, istəyi ağrıyır orda.
Əlindən oğlunu güllələr alan
Analar hələ də ağlayır orda.

Dünən bir dostuma açıb dedim mən,
O güldü: təsəlli verirdi sanki,
Dedi: Sən bununla fəxr etməlisən,
Kişi azarına tutulmusanki...

Onsuz da bilirəm,
bilirəm bir gün
Həyatı bu qədər sevdiyim üçün
Bu ürək ağrısı məni də tez-gec...
Di gəl ki, ürək də ağrımayanda
Elə bilirəm ki, yaşamıram heç...

Bir də, neyləmək?
Bir şair demişkən-
Ürək ağrıyırsa yaşayır demək.
Yaxşısı budur ki, salmayaq yada.
Ağrıyır, deməli, hələlik sağdır.
Ürək ürəkdirsə,
bizdən sonra da
Qalıb bu dünyada ağrıyacaqdır.

## MƏNİM ÜRƏYİM

Hərdən səhra olan,hərdən bağ olan,
Bir dost kəlməsiylə dönüb dağ olan,
Qisməti həmişə ağrımaq olan,
Dərmanı dağların səhər küləyi,
Ay mənim ürəyim,mənim ürəyim.

Dinsin məhəbbəti əziz tutanlar,
Özünü əbədi oda atanlar.
Desin sol döşünün üstə yatanlar-
Nədir bu dünyadan axı diləyim,
Ay mənim ürəyim,mənim ürəyim.

Hər sözə inanıb,uyan sən oldun,
Məni quru yurdda qoyan sən oldun.
Bir zaman hamıya həyan sən oldun,
İndi bir köməyi kimdən diləyim?'
Ay mənim ürəyim , mənim ürəyim.

Köksümdə odu var ilk məhəbbətin,
Oldum dilənçisi bir xoş ülfətin.
Tək tənha yaşamaq çətinmiş,çətin,-
Yenə buza döndü çayım,xörəyim,
Ay mənim ürəyim,mənim ürəyim.

Bir məsum,küsəyən körpə uşaqsan,
Dindirsəm sinəmi dağlayacaqsan.
Bilsən hönkür hönkür ağlayacaqsan,-
Yar qənimim çıxıb,əğyar köməyim,
Ay mənim ürəyim,mənim ürəyim.

## SÖZ DƏ SÖZƏ BAXMAZ...

Tanrım, qurban olum!
Lal olmuşam,lal,
Çarmıxa çəkmisən dilimdən məni,
Alırsan canımı, birdəfəlik al,
Niyə öldürürsən zülümnən məni?

Sükut dəryasında batıb qalmışam,
Bir saman çöpündən tutub qalmışam.
Özüm öz içimdə yatıb qalmışam,
Xəbərim olmayıb çölümdən mənim.

Coşsaydım bir dəli sel idim orda,
Yumruğa dönəcək əl idim orda.
Qolumdan tutsalar el idim orda,
Əcəb ayırdılar elimdən məni.

Üzünü üzümdən döndərən çayım,
Sözünü yellərlə göndərən çayım,
Səni qorumadım , " Köndələn çayım",
Sən niyə qorudun ölümdən məni?!

Bulaqlar- cənnətin mənzərəsiydi,
Dirilik suyuydu,can şirəsiydi...
Orda " cahargah" mənsuriyyəsiydim,
Qırıb tulladılar zilimdən məni.

Canımı canana qurban bilərdim,
Dərdimi oduma yanan bilərdi.
Göstərən olsaydı anam bilərdi,
Anam tanıyardı külümdən məni.

Söz də sözə baxmaz,
sözümdən çıxar ,
Canım gildir- gildir gözümdən çıxar.
Özüm qisasını özümdən çıxar,
Alsa,..
Tanrım alar əlimdən məni.

## TƏBRİK

**Bu gün mənim xoş günümdü,
Xoş saatım, xoş ayım!
Dərsə gedir mənim körpə Mirayım!
Qucağında təzə-təzə gül, çiçək,
Miray balam o güllərdən də göyçək!
Canım, gözüm yaxşı oxu,
hər vaxt bizi sevindir,
Sevil kimi, Uğur kimi,
İndi növbə sənindir!!!!!!**



**Tanınmış kardioloq-həkim Rafiq Yusiflinin nəvəsi Miray xanım bu il 1-ci sinifə qədəm qoyacaq. Onun bu sevincinə hamıdan çox babası, daha doğrusu, dədə dediyi Rafiq həkim, eləcə də bütün doğmaları ürəkdən qoşulur. Biz də Miray xanımı, eləcə də onun sevincinə qoşulanların hamısını təbrik edirik və qədəmlərin mübarək, Miray xanım! - deyirik.**

**Bu sevincə Əbülfət Mədətoğlu da bütün ailə üzvləri ilə qoşulur.**

## Yığmamız dünya çempionu oldu

**Dünən Rumıniyanın Konstansa şəhərində çimərlik güləşi üzrə U-17 dünya çempionatı keçirilib.**

Qol.az xəbər verir ki, baş məşqçi Oyan Nəzəriani və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında mundialda ölkəmizi 4 idmançı təmsil edib.




Hüseyn Sevdimov (50 kq), Ziya Göyüşov (60 kq), Vüsal Əliyev (70 kq) və Anar Cəfərli (80 kq) uğurlu çıxış edib.

Güləşçilərimiz bütün rəqiblərinə qalib gələrək dünya çempionu olublar.

Beləliklə, maksimum nəticəyə imza atan yığmamız 100 xalla komanda hesabında dünya çempionu olub. Moldova 61 xalla ikinci, Fransa isə 48 xalla üçüncü yeri tutub.

**Xatırladaq ki, komandamız iyulda Yunanıstan Katerini şəhərində keçirilən Avropa çempionatında da maksimum nəticə göstərmişdi.**



Yekta Güngör

## Tənhalıq həyatın qaranlığıdır

*-Tənhalıq həyatın qaranlığıdır.-*

*Bəziləri bunu "sağlamlıq və xoşbəxtlik mühiti" adlandırsa da, əslində bu, həyatın qaranlığıdır. Bəzi vəziyyətlərin və bəzi işlərin tələb etdiyi təbii və ya məcburi təklik başqadır. Bunlar həyat axınına və şərtlərinə uyğun olaraq həyata keçirilir. Ancaq tənhalıq adi həyatda dözülməz bir boşluqdur. Bəzi insanların tənhalığı sevməsi həm də şəxsi anlayış və həyat tərzidir. "Allah heç kəsi tək qoymaz" ifadəsi ümumi bir həyat vəziyyəti üçün ifadə edilən arzudur. "Tənhalıq Allaha məxsusdur" ifadəsi də mövqe və məqam xüsusiyyəti ilə iqtidar azadlığını vurğulayır. Anlayış, dözümlülük, həmrəylik, fədakarlığın əhəmiyyəti, yaxınlığın dadı və faydası nə gözardı, nə də inkar edilə bilməz. Yalnızlıq düşüncə, araşdırma, iş və istirahət halıdır, lakin müəyyən mənada həyatın qaranlığıdır. Yaxınlarını itirənlərin tənhalığı dözülməz, hətta dözülməz bir boşluqdur.*

*Növbətdə, dərsdə, səfərdə, səfərdə, əsgərlikdə, tələbə həyatında yan-yana, tək, əl-ələ olmanın gücü danılmazdır. Bəzi insanların tənhalığa üstünlük verməsi, kütləni sevməməsi onların öz iradəsinin, xüsusiyyətlərinin və yaradılış şəraitinin, düşdüyü vəziyyətin tələbidir. Reallıqda sosial həyatın özəyi və əsası insanların tək yaşaması, bir növ sosial təcrid vəziyyətinə düşməsi kimi həyatın ağır şəkildə məhv edilməsidir.*

*Zaman-zaman özünü dinləmək kimi təkliyə meyl, anlayış tələb edən bir həyat tərzidir. Yorğunluğu aradan qaldırmaq, dincəlmək, qərar vermək üçün diqqətlə düşünmək həyatın təbii ehtiyaclarıdır. Sağlamlığın qayğısına qalmaqla həyatı rəngləndirmək insanın özünə qarşı vəzifə və məsuliyyət zərurətidir. Bu münasibət həm də üzvü olduğu cəmiyyətə qayğı borcudur. Yalnızlığın təbii görünməsinə səbəb olan imtiyazlı vəziyyətlər istisna olmaqla, müxtəlif həyat formaları normal həyat nizamı hesab edilmir. İnsan həyatı tənhalığın deyil, cəmiyyətin reallığıdır.*

*Yalnızlıq insan həyatının ziddiyyətidir. Özünü dinləmək, düşünmək, dincəlmək və güc toplamaq üçün tək qalmaq halları istisna olmaqla, tənhalıq cəmiyyətdən kənarlaşdırılmalıdır. Danışıq dilində "tənhalıq" kimi istifadə edilən cəmiyyətdən kənarda olma halı təkliyə üstünlük verməkdir.*

*İstirahət etmək, düşünmək və yaxşılaşmaq üçün ara vermək dərman kimi bəzən üstünlük verilən vərdişdir. Əslində, tənhalıq insanlara dözüləcək bir həyat tərzi deyil. Sosial çəkişmələrdən, çəkişmələrdən və mübahisələrdən qaçmaq üçün təkliyi seçmək özünü qoruyur.*

*Tək yaşayanlar, evlənmək istəməyənlər, çoxsaylı görüş və tədbirlərdən qaçan, "baş dayağı" kimi bəhanələr gətirərək tənhalığını müdafiə edənlər də var, tənhalığı adi hal kimi göstərənlər də.*

*Nəhayət, tənhalıq insanların seçiminə buraxılan bir həyat növüdür. Ancaq yaşayış sahəsi təklikdən çox birlik məkanıdır.*

*Dilimizə uyğunlaşdıran: Eminquey*

## Şükr ki, Slavik kimi həmyerlilərimiz var

**Azər Qəribin bir paylaşımına rast gəldim.**

"Deyirəm dünyanın işinə bir bax.

Gəzirəm Qərbi Berlinin yaşayış məhlələri ilə, Paris küçəsi filan, ahəstə həyat, quşlar cəh-cəh, birdən gözüm vitrində bir rəsm işinə sataşdı, qaqaş skripkanı ağladırdı.

Nəsə gözüm tutdu bu rəsmi, dedim girib qiymətini soruşacam.

Nəticədə nə?

Sahibi bizim həmyerlimiz çıxdı, Slavik Yakubov, 80-ci illərdə buralara köçən yahudilərdən.

Həm söhbətləşdik, həm də yaxşı endirim etdi".

**Paylaşımı oxuyandan sonra mənim də içimə qərib(ə) bir fərahlıq doldu. Çünki bundan az əvvəl bir videoda Türkiyədə ağzının danışığını bilməyən bir xalanın "yaltaq"lığının şahidi olmuşdum. Bu xala azərbaycanlı idi, bəli, bizdən biri. Şükr ki, Slavik kimi həmyerlilərimiz var, tarazlıq az da olsa qorunur.**





**Eminquey**

## Misir piramidalarının yeni sirri açıldı



**Misirlilərin piramidaların tikintisi üçün hansı səbəbdən Giza yaylasını seçmələrinin sirri tapılıb. Məlum olub ki, Qədim Krallığın 4-cü sülaləsinin fironları bu yeri Nil çayına yaxın və asan keçilən kanala bitişik olduğu üçün seçiblər.**

Bu barədə uzun müddət tədqiqatlar aparan fransalı və misirli arxeoloqların PNAS jurnalında dərc olunan elmi işində məlum olub. Onların sözlərinə görə, Nil Qədim Misir tarixində sülalə dövrünün sonunda dayazlaşıb, ancaq Xufu, Xafra və Menkaure dövründə bu kanal gəmiçilik üçün inkişaf etmişdi. Deməli, buradan piramidalar üçün tikinti materiallarını çatdırmaq üçün istifadə edilə bilərdi.

Misirlilərin piramidaların tikintisi üçün seçdikləri Giza yaylasının sirri açıldı.

Qeyd edək ki, Xeops piramidası eramızdan əvvəl III minilliyin ortalarında tikilib. Onun tikintisinə Qədim Krallığın dördüncü sülaləsinin hökmdarlarından biri olan firon Xufu təşəbbüs göstərib. Qədim Misirin bütün böyük piramidaları, o cümlədən Xafra və Menkaure piramidaları, həmçinin məşhur Sfinksin abidəsi bu sülalənin dövründə tikilib.

**Eminquey**

## YARIMÇIQ ARAQ ŞÜŞƏSİ HAQQINDA BALLADA

**Moskva şəhərində yenicə instituta qəbul olmuşdum. Dərsdən çıxıb evə çatanda artıq toranlıq qarışırdı. Dedim yataqxananın qarşısındakı bağdan kəsə yolla keçib dükandan çörək alım.**

Xeyli vaxt yağan yağış artıq səngimişdi. Amma hələ tam kəsməmişdi. Ara bir bəzi yağış damcıları buluddan ayrılıb yerə düşürdü. Ağacların altında yağışdan xeyli islanmiş, qaşlarından iri yağış damcıları süzülən, kefli, yarıdan xeyli yuxarı içi araqla dolu olan ağzı açılmış şüşəyə sağ əlini bərk dayaq edib, ayağa qalxmaq istəyirdi. Addımlarımı yavaşıdıb bu təsirli mənzərəni xeyli seyr eməyə başladım. Kefli dəfələrlə araq şüşəsini özünə dayaq edərək ayağa qalxmağa cəhd elədi. Və hər dəfə çox içdiyindən ayaq üstə tab gətirə bilmir, müvazinətini itirib yenə də yıxılırdı. Amma yıxılarkən sanki içində dünyanın ən qiymətli sərvəti varmış kimi, şüşəni aşmağa qoymurdu. Şüşəni yerə bərk rahatlayıb, özü qəribə bir hərəkətlə aşırdı. Şüşəni elə möhkəm, ehtiyatla tuturdu ki, şüşədən bircə damcı da araq yerə tökülmürdü. Beləcə, dəfələrlə eyni mənzərənin şahidi olandan sonra yoluma davam edim...

**Səhər tezdən dərsə gedəndə yolumu yenə ordan saldım. Həmin şəxs dünyanın ən xoşbəxt adamı kimi nəmli torpaqda rahat uzanmışdı. Səhər günəşinin işıqları yarpaqların arasından onun yaş sifətinə düşüb parıldayırdı. Günəşin şüaları acgözlüklə keflinin bədəninə darışmışdı. Şirin, qayğısız yuxuda olan keflinin sağ əli ayaqüstə tutduğu araq şüşəsindən bərk-bərk yapışmışdı. Şüşədəki araq elə axşamki qədər idi. Yerə tökülməmişdi**

**Adil Misirli**

## ABŞ alimlərinin diqqətəlayiq araşdırması: Ən riskli qan qrupunu açıqladılar

**Elm dünyası ABŞ-dan gələn xəbərlərdən danışır. Adalet.az xarici mətbuata istinadən xəbər verir ki, alimlər erkən beyin qanaması riskinin ən yüksək olduğu qan qrupunu açıqlayıblar.**

ABŞ-ın qabaqcıl universitetlərindən biri olan Merilend ştatında çalışan alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, qan qrupu ilə beyin qanaması riski arasında əlaqə ola bilər.



IFL Science jurnalının xəbərinə görə, A qan qrupu olan insanların 60 yaşından əvvəl beyin qanaması keçirmə riski digər qan qruplarına nisbətən daha yüksəkdir.

**Belə ki, tədqiqatçılar A qrupu qanı olan insanların digər qan qruplarına sahib olanlara nisbətən erkən insult riskinin 18 faiz daha yüksək olduğunu izah ediblər.**

**Əntiqə Kərimzadə**

Aqil Abbas
**general-leytenant Nazim Məmmədovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və dostlarına başsağlığı verir.

Elzadə Misirov
**general-leytenant Nazim Məmmədovun**
vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və dostlarına başsağlığı verir.

Aqil Abbas və Rüstəm Hacıyev **Elşən Vəliyevə** qardaşı
**Rəfael Vəliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sədi Səfərzadə və Mehman Manafov dostları **Adnan Əhmədzadəyə** qaynatası
**Osman müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sədi və Mehman millət vəkili **Ceyhun Məmmədova** atası
**Valeh müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 94**
Çapa imzalanmışdır: 02.09.2022